Xalqın qəzeti!

# Xalq qəzeti

№ 74 (30768) 16 aprel 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Fransa parlamentinin qətnaməsi pislənilib

Səhifə ⇨ 7



# Azərbaycanın enerji siyasəti ölkənin iqtisadi qüdrətini yüksəldir



**Ötən əsrin sonlarında müstəqilliyini bərpa edən Azərbaycan Respublikası karbohidrogen ehtiyatlarından səmərəli istifadə etməklə regional və beynəlxalq səviyyədə dünya dövlətləri ilə enerji sahəsində əməkdaşlığa xüsusi önəm verir. Bu əməkdaşlığın təməl prinsipi ümummilli lider Heydər Əliyev tərəfindən işlənib hazırlanmışdır. Heydər Əliyev Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra qarşıya qoyduğu prioritetlərdən biri düzgün enerji strategiyasının qurulması, dünyanın qabaqcıl ölkələri ilə energetika sahəsində qarşılıqlı faydalı münasibətlərin yaradılması idi.**

1994-cü il sentyabrın 20-də Bakıda "Əsrin müqaviləsi"nin imzalanması ilə Xəzər dənizində beynəlxalq əməkdaşlığın bünövrəsi və region ölkələrinin dünya iqtisadiyyatına inteqrasiyasının əsası qoyuldu. Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsini nəzərdə tutan bu sazişin reallaşması təkcə ölkəmiz üçün deyil, Qərbin bir sıra aparıcı dövlətləri, eləcə də Cənubi Qafqaz və Orta Asiya regionu üçün də strateji əhəmiyyət daşıyırdı. Regionda beynəlxalq əməkdaşlığın təməlini qoymuş bu enerji müqaviləsi, eyni zamanda, Azərbaycanın müstəqil dövlət olaraq öz təbii sərvətlərinə sahib çıxmağa, milli mənafelərini sonadək müdafiə etməyə qadir olduğunu göstərdi.

Ulu öndərin qalibiyyətli neft strategiyasının onun layiqli varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkəmizin iqtisadi qüdrətini artırmaqla yanaşı, beynəlxalq nüfuzunun da xeyli artmasına səbəb olmuşdur. Məhz bunun nəticəsidir ki, dünyanın sabit və dinamik inkişaf etməkdə olan ölkəsinə çevrilmiş Azərbaycan Respublikası uzun illərdir ki, müstəqil iqtisadi siyasət yürüdür, bir sıra qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı rolunda çıxış edir. Özünün zəngin karbohidrogen ehtiyatları hesabına enerji təhlükəsizliyini tam təmin etmiş ölkəmiz Avropanın da enerji təhlükəsizliyinə mühüm töhfələr verir.

(ardı 9-cu səhifədə)

# Mərhəmət və şəfqətlə böyüyən nəsil



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva aprelin 15-də Bakının Nəsimi rayonunda yerləşən 1 saylı körpələr evində və Nizami rayonundakı 1 saylı uşaq evi sosial xidmət müəssisəsində olublar.**

1 saylı körpələr evində hazırda 3 yaşadək 63 uşaq var. Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mütəmadi surətdə burada olur, körpələrin sağlamlıqları, onların yaşayış şəraiti ilə daim maraqlanır, balacalara xüsusi qayğı ilə yanaşırlar.

Qeyd edək ki, körpələr evinin 1930-cu ildə tikilən binasında Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir və yenidənqurma işləri aparılıb. 2015-ci il mayın 10-da Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə körpələr evinin açılışı olub.

(ardı 2-ci səhifədə)

# Cənubi Qafqazda klassik kapitulyasiyaya doğru...

## Ermənistan rəhbərliyi ölkəni bu aqibətə sürükləyir

**IV Antalya Diplomatiya Forumunda "Cənubi Qafqazda regional əməkdaşlığa dair çağırışlar və fürsətlər" mövzusunun müzakirə olunduğu panel iclas Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla Ermənistanın XİN rəhbəri Ararat Mirzoyanın debatı kimi yadda qaldı.**



Mirzoyan öz aləmində diplomatik davrandı və reallığa saxta beynəlmiləlçi notlarla meydan oxudu, manipulyasiya yolunu tutdu. Onun bildirdiklərinin yekunu bunu deməyə əsas verdi ki, Ermənistan Azərbaycanın, bütün bəndləri razılaşdırılmış sülh müqaviləsinin imzalanması üçün, irəli sürdüyü iki şərti qəbul etməyəcək.

Yəni, İrəvan Bakı ilə birlikdə ATƏT-in Minsk qrupunun rəsmən ləğvi üçün müvafiq müraciəti ünvanlamayacaq, beləliklə sözügedən təsisatın Qarabağ danışıqları məntiqini qüvvədə saxlayacaq, onun münaqişə üzrə dövlətlərarası vasitəçilik və tənzimləyici rolunun beynəlxalq gündəmdən düşməsinə imkan verməyəcək, nəticə etibarilə erməni işğalını leqallaşdırmağa yönəlmiş plasdarmı de-yure aktiv saxlayacaq.

A.Mirzoyan Antalyada əsas məsələdən yayınmaq "məharəti" ilə eyni zamanda, bildirmiş oldu ki, Ermənistan konstitusiyasının ölkənin qonşularına qarşı ərazi iddiasını hüquqi normaya çevirmiş Müstəqillik bəyannaməsinə istinadı aradan qalxmayacaq, daha doğrusu, bunun üçün ümumxalq səsverməsinə – referenduma gedilməyəcək.

*(ardı 3-cü səhifədə)*

# Gürcüstan Prezidenti Mixeil Kavelaşvili Azərbaycana rəsmi səfərə gəlib



**Gürcüstan Prezidenti Mixeil Kavelaşvili aprelin 15-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Gürcüstan Prezidenti Mixeil Kavelaşvilini hava limanında Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər qarşılayıblar.

# Fransanın ikiüzlü siyasəti ədalətli sülhə mane olur



**Azərbaycan İkinci Qarabağ müharibəsində tarixi Qələbə qazandıqdan sonra Fransa tamamilə Ermənistanı müdafiə edən siyasət yürüdür. Bu dövlətin parlamentinin hər iki palatasında Azərbaycanla bağlı qərəzli qətnamələr qəbul olunur. Senatın "Artsaxın müstəqilliyini" tanıyan təxribat xarakterli qətnaməsi də onlardan biridir. Sənəd hökuməti Dağlıq Qarabağı tanımağa çağırırdı. Bununla da Paris öz riyakarlığını və təxribatlarını davam etdirdiyini göstərirdi.**

(ardı 5-ci səhifədə)

## Ankara–İrəvan normallaşması: Hər şey var, heç nə yoxdur



Səhifə ⇨ 7

## Elmlər Akademiyası XX əsrdə tarixi zərurətdən yarandı



Səhifə ⇨ 11

## Yeni dünyanın kodları

Səhifə ⇨ 6



## Apellyasiya instansiyası məhkəməsi sədrinin müavininin, apellyasiya instansiyası məhkəmələri məhkəmə kollegiyaları sədrlərinin, birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

**1** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, apellyasiya instansiyası məhkəmələri üzrə:

1.1. Müşfiq Kamil oğlu Həsənov Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin müavini təyin edilsin;

1.2. Mehman Dünyamalı oğlu Allahverdiyev Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının sədri təyin edilsin;

1.3. Əlizamin Gülzalı oğlu Abdullayev Gəncə Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri təyin edilsin;

1.4. Elçin Məhəmməd oğlu Mehdiyev Şəki Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının sədri təyin edilsin;

inzibati məhkəmələr üzrə:

1.5. Hicran Xasay oğlu Muradov Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsinin sədri təyin edilsin;

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:

1.6. Günay Mikayıl qızı İsmayıl Naxçıvan Muxtar Respublikası Babək Rayon Məhkəməsinin sədri təyin edilsin;

Bakı şəhərinin rayon məhkəmələri üzrə:

1.7. Şeyda Ədalət qızı Məhərrəmova Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.8. Abbas Əhəd oğlu Rzayev Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.9. Xəyal Əjdər oğlu Sarıyev Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.10. Azər İslah oğlu Paşayev Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Bakı şəhəri Səbail Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.11. Elbəy Hidayət oğlu Allahverdiyev Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi təyin edilsin;

rayon (şəhər) məhkəmələri üzrə:

1.12. Fərid İlham oğlu Əyyubov Abşeron Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.13. Natiq Mehdi oğlu Abbasov Ağstafa Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.14. Elmir Xoşbəxt oğlu Hüseynov Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Füzuli Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.15. Marif Sabir oğlu Kazımov Gədəbəy Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Kürdəmir Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.16. Ruslan Əliyar oğlu Əlizadə Yevlax Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.17. Gülsarə Kərimovna İmanova Zəngilan Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.18. Elşad İbiş oğlu Əliyev Sumqayıt Şəhər Məhkəməsinin hakimi təyin edilsin;

1.19. Elçin Məmməd oğlu Kazımov Abşeron Rayon Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Sumqayıt Şəhər Məhkəməsinin hakimi təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 aprel 2025-ci il**

## Mərhəmət və şəfqətlə böyüyən nəsil

### Mehriban Əliyeva və Leyla Əliyeva Bakının körpə və uşaq müəssisələrində



**(əvvəli 1-ci səhifədə)**

Daim nəcib təşəbbüsləri ilə seçilən Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum olan uşaqların fiziki və mənəvi cəhətdən sağlam yetişməsinə, onların savadlı olmasına xüsusi diqqətlə yanaşır. Beləliklə, gələcəyimiz olan uşaqlarla bağlı Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətə mühüm töhfələr verir.



Sonra Birinci vitse-prezident Mehriban Əliyeva və Leyla Əliyeva 1 saylı uşaq evi sosial xidmət müəssisəsində oldular.

Birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva bu müəssisəni də tez-tez



ziyarət edir, bayram günlərində buranın sakinləri ilə görüşür, onları hədiyyələrlə sevindirirlər.

Hazırda 1 saylı uşaq evi sosial xidmət müəssisəsində 3 yaşdan 18 yaşadək 100 uşaq var. Onların təhsil alması, idmanla məşğul olması və sağlamlıqlarının təmin edilməsi üçün burada hər cür şərait yaradılıb.

Müəssisənin sakinləri sevimli qonaqları olan birinci xanım Mehriban Əliyeva və Leyla Əliyevanı həmişə şeir, mahnı və ədəbi proqramla qarşılayıblar. Bu dəfə də istisna olmadı.

Heydər Əliyev Fondu yarandığı gündən bu müəssisəni diqqətdə saxlayır, burada yaşayan yeniyetmələrin ali təhsil müəssisələrində oxuması, onların işlə təmin edilməsi, peşə vərdişlərinin aşkara çıxarılması istiqamətində mühüm işlər görür. Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı təmir olunan bu müəssisənin açılışı 2005-ci ildə Azərbaycanın birinci xanımının iştirakı ilə olub. 2017-ci ildə isə buranın iki sakini ailə həyatı qurub. Onların toyu Heydər Əliyev Fondu tərəfindən təşkil edilib, gənclərə mənzil və avtomobil hədiyyə olunub.

***XQ***

## Gürcüstan Prezidenti Heydər Əliyev Mərkəzində



**Azərbaycanda rəsmi səfərdə olan Gürcüstan Prezidenti Mixeil Kavelaşvili aprelin 15-də Heydər Əliyev Mərkəzində olub.**

Qonağa dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzinin binası haqqında məlumat verilib. Qeyd olunub ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və ictimai-siyasi irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib.

Mərkəzdəki Heydər Əliyev Muzeyində Ulu öndərin həm sovet dövründə, həm də ölkəmizin müstəqilliyi illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual şəkildə təqdim olunur.

Gürcüstan Prezidenti əvvəlcə Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə – 1969-cu ildən 2003-cü ilə qədər rəsmi istifadəsində olan avtomobillərə baxıb.

Ümummilli liderin həm sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində həyata keçirdiyi fəaliyyət konsepsiyasının müxtəlif dövrlərini əks etdirən eksponatlar, fotoşəkillər və multimedia zalı qonaqda böyük maraq doğurub.

"Azərbaycan inciləri" sərgisi ilə də tanış olan Gürcüstan Prezidentinə bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatların nümayiş etdirildiyi bildirilib. Burada qədim peşələrin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri sərgilənir, milli çalğı alətlərimizin orijinal şəkildə - səsli formada təqdim olunduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

"Klassik avtomobillər sərgisi" ilə də tanış olan Gürcüstan Prezidenti Mixeil Kavelaşvili daha sonra xatirə kitabına ürək sözlərini yazıb.

Gürcüstan Prezidenti Mərkəzdən xoş təəssüratla ayrılıb.

***XQ***

## Əli Əsədovun Mixeil Kavelaşvili ilə görüşü

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 15-də ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Prezidenti Mixeil Kavelaşvili ilə görüşüb.**



Görüşdə Azərbaycan-Gürcüstan dostluq və strateji tərəfdaşlıq münasibətlərinin hərtərəfli inkişafından məmnunluq ifadə olunub.

İki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi ilə bağlı məsələlər müzakirə edilib.

***XQ***

## Azərbaycan–Türkiyə strateji əməkdaşlıq müzakirəsi

**Milli Məclisin sədri Sahibə Qafarova aprelin 15-də ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin Milli müdafiə komitəsinin sədri Hulusi Akar ilə görüşüb.**



Görüşdə Azərbaycan–Türkiyə münasibətlərinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamına uyğun olaraq uğurla inkişaf etdiyi qeyd olunaraq qardaş ölkələrimizin bütün məsələlərdə bir yerdə olduğu və bir-birini dəstəklədiyi vurğulanıb. Qeyd olunub ki, qardaş ölkələrimiz arasında yüksəksəviyyəli münasibətlərin ruhuna uyğun olaraq, parlamentlərimiz arasında da əlaqələr uğurla inkişaf edir.

Azərbaycan torpaqlarının 30 ilə yaxın işğal altında qalmasının bölgədə çox ağır fəsadlar yaratdığını deyən Hulusi Akar ATƏT, Avropa İttifaqı kimi təşkilatların baxışlarının nə qədər zərərli olduğunu söyləyib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunmasının regionda yeni reallıqlar yaratdığını söyləyərək Ermənistanın sülh sazişini imzalamaq üçün lazımi iradə göstərməsini, Azərbaycanın və Türkiyənin uzatdığı sülh əlini tutmasını arzuladığını bildirib.

Hulusi Akar Azərbaycan Prezidenti İlham Əliyevin Şimali Kipr Türk Cümhuriyyəti ilə bağlı mövqeyini çox yüksək qiymətləndirdiklərini vurğulayaraq bu məsələdə də Azərbaycanın dövlət başçısının qəti iradəsinin şahidi olduqlarını deyib.

Sahibə Qafarova TBMM-in komitə sədrinin Şuşa və Xankəndiyə səfəri zamanı səsləndirdiyi fikirləri məmnunluqla qeyd edərək bildirib ki, Şuşa həqiqətən də təkcə Azərbaycan üçün deyil, bütün Türk dünyası üçün bir bayraq, simvoldur. Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi bütün Türk dünyasının qələbəsidir və qardaş ölkələrimizin birliyinin daha da gücləndirilməsində mühüm amildir.

Görüşdə Milli Məclisin sədri Sahibə Qafarova bu gün dünyada olduqca gərgin proseslərin baş verdiyini, ölkələrimizin müxtəlif təzyiqlərlə və ikili standartlarla üzləşdiyini xatırladaraq regionda müxtəlif ölkələrin və dairələrin öz gizli planlarını həyata keçirməyə çalışdıqlarını bildirib. Bu baxımdan Azərbaycan–Türkiyə birliyinin regional sabitlik, təhlükəsizlik üçün olduqca mühüm amil olduğu qeyd edilib. Eyni zamanda, belə proseslərin qarşısının alınmasında da Türk dünyasının birliyinin, əməkdaşlığının vacibliyi ifadə edilib.

TBMM-in komitə sədri müdafiə, təhlükəsizlik sahələrinin və müdafiə sənayesinin inkişafında Azərbaycanla Türkiyənin böyük yol qət etdiklərini, ölkələrimizin bu istiqamətdə atdığı addımların heç bir üçüncü ölkəyə qarşı yönəlmədiyini bildirib.

***XQ***

# Cənubi Qafqazda klassik kapitulyasiyaya doğru...

(əvvəli 1-ci səhifədə)

Zəruri haşiyə çıxaq ki, Prezident İlham Əliyevin aprelin 9-da ADA Universitetində keçirilmiş "Yeni dünya nizamına doğru" mövzusundakı beynəlxalq forumda Rusiya – Ukrayna müharibəsinin perspektivinə dair fikirləri dünyanın bir çox analitik mərkəzləri və ekspert dairələri tərəfindən ciddi müzakirə olunmaqdadır. Onların gəldikləri yekun qənaət budur ki, Azərbaycan liderinin bildirdikləri problemə ən doğru yanaşmadır. Prezident İlham Əliyev isə qarşıdurmanın yalnız kapitulyasiya baş verdikdə sona çatacağını vurğulamışdı.

*

Məlumdur ki, 2020-ci ilin 44 günlük müharibəsinin yekunlarını təsdiqləyən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat Ermənistanın kapitulyasiyası kimi qiymətləndirilir. Bunu söyləmək üçün sənədin imzalanmasından sonra ölkədə yaşanan iğtişaşlara diqqət yetirmək kifayətdir. Qeyd edək ki, Ermənistanın XİN rəhbəri A.Mirzoyan parlamentin sədri idi və üçtərəfli bəyanata həmin vaxt etiraz edən kütlə erməni Milli Assambleyasına daxil olanda məhz Mirzoyana ciddi fiziki xəsarət yetirmiş, indiki nazirin, o zamankı sədrin sir-sifəti al-qana qərq olmuşdu.





Lakin müəyyən zaman keçdi, Mirzoyanın XİN rəhbəri kimi təmsil olunduğu komanda 2020-ci ildə baş nazir Nikol Paşinyanın imza atdığı sənədi Ermənistanın kapitulyasiya aktı kimi tanımadığını açıqladı. Bununla Nikolun konkret fikirləri də var. Paşinyan demişdi ki, üçtərəfli bəyanat Ermənistana məğlub, Azərbaycana qalib dövlət kimi yanaşmaq üçün əsas vermir.

*

Ermənistan bu gün də özünü məğlub dövlət saymır. Əlbəttə, bunda müəyyən həqiqət payı var. O mənada ki, ordusunun böyük əksəriyyətinin darmadağın edilməsinə baxmayaraq, 44 günlük müharibə Ermənistan ərazisində getməmişdi. İkincisi, Ermənistanın 2020-ci ildə və ondan sonra itirdiyi öz torpaqları deyildi. Üçüncüsü, ölkəmiz humanistlik nümayiş etdirərək, məsələni bir qədər fərqli qoymuş, məğlub ölkəyə sülh əlini uzatmışdı.

Bir məqama da diqqət yetirək. Prezident İlham Əliyev müsahibələrində və çıxışlarında dəfələrlə bildirib ki, Azərbaycan 2020-ci ildə müharibəni dayandırmaya bilərdi. Dövlətimizin başçısı ordumuzun, hətta, Ermənistan kimi qəbul edilən əraziləri də ələ keçirə biləcək potensialda olduğunu açıqlayıb. Əslində, bu reallığı hər kəs, o cümlədən erməni siyasi dairələri də yaxşı dərk edirlər. Amma...

Bəli, Azərbaycan 2020-ci ildə Ermənistana sülh əlini uzatdı. Bu əl, eyni zamanda, hər şeyi bir kənara qoyaraq, avantürizmdən uzaq duraraq, əməkdaşlıq əlaqələri qurmaq üçün fürsət idi. Lakin qarşı tərəf məkrindən daşınmadı. Faşizmə əsaslanmış erməni şovinizmi özünü tam "mahiyyəti" ilə göstərməyə davam etdi. Hay diplomatiyası isə hiyləgərliyindən, anti-Azərbaycan fəaliyyətindən qalmadı. Nəticədə Qarabağ iddiası puça çıxdı. Azərbaycan 2023-cü ilin sentyabrında lokal xarakterli antiterror tədbirləri ilə özünün konstitusion quruluşuna zidd separatizmi aradan qaldırdı, suverenliyini bərpa etdi.

*

Yeri gəlmişkən, Prezident İlham Əliyev 2023-cü il sentyabrın 20-də, yəni Silahlı Qüvvələrimizin lokal xarakterli uğurlu antiterror tədbirləri başa çatdıqdan sonra xalqa müraciətində də Ermənistana köhnə ədavətləri bir kənara qoymağa, gələcəyə baxmağa, revanşist fikirlərdən əl çəkməyə çağırdı. Dövlətimizin başçısı məsələni bir qədər geniş qoydu: "Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq!"

*

Tam əminliklə deyə bilərik ki, Azərbaycanın sülh müqaviləsinin imzalanması baxımından irəli sürdüyü iki şərt xeyli dərəcədə rəsmi İrəvanın 44 günlük müharibədən sonrakı davranışlarından qaynaqlanır. Yəni, ölkəmiz erməni revanşizmi və şovinizminin faşizm elementləri ilə çulğaşdığının fərqindədir. Ona görə də özündə faşizmin kökünü qazımaq potensialını formalaşdırıb. Bir halda ki, Cənubi Qafqazı rahat buraxmaq istəməyən qüvvələr bəd əməllərindən geri durmurlar. Ermənistan onların siyasətlərində alətə çevrilməkdən başqa yol tanımır, o zaman Azərbaycanın da başqa çarəsi qalmır. Rəsmi İrəvan tipik erməni avantürizmi musiqisini bu siyasətin notları üzərində kökləməyə üstünlük verirsə, deməli, sülh müqaviləsi avantürizmin aradan qalxmayacağı təqdirdə mümkünsüzdür.

Deməli, onu da xüsusi vurğulamalıyıq ki, ölkəmizin Ermənistan konstitusiyasına dəyişiklik və ATƏT-in Minsk qrupunun ləğvi tələbi həm də Ermənistanın 44 günlük müharibənin yekunlarını özünün kapitulyasiyası kimi qəbul etməməsindən qaynaqlanır. İrəvanın barışmazlıq xəttinin mina terroru, bu gün də davam edən atəşkəsin pozulması halları və nəhayət, diplomatik müstəvidəki anti-Azərbaycan fəaliyyət motivlərini gördüyümüzdən mövqeyimizdə israrlıyıq. Bizə dayanıqlı sülh üçün ən maksimal təminat lazımdır. Söhbət Ermənistanın bir daha təcavüzkar siyasətə baş vurmayacağına dair təminatdan gedir.

*

Bəli, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat təminat yaratmırsa, Ermənistan sənədi kapitulyasiya hesab edib özünü məğlub dövlət saymırsa, ölkəmizə qarşı çıxmaq təpəri hiss edirsə, Bakı – İrəvan sülhü daha fundamental postulata əsaslanmalıdır. Ermənistanın XİN rəhbəri A.Mirzoyan Antalyada həyasızcasına İrəvanın iki şərtimizi qəbul etməyəcəyini bildirməklə, həm də ölkəsinin kapitulyasiya məsələsinə fərqli baxışın ortaya qoydu. Elə isə həmin baxışın təxmini strukturunu cızaq. Deyəsən, gələcək üçün lazım olacaq. Görünür, Mirzoyan deyir ki, Ermənistan üçün kapitulyasiya: 1.Azərbaycan Ordusunun İrəvanda parad keçirməsidir. 2.Ölkəsinin nizami ordu saxlamaq hüququndan məhrum edilməsi, yalnız sərhəd dəstələri ilə qane olmasıdır. 3.Ermənistanın 1920-ci ildən sonra ona hədiyyə olunmuş Azərbaycan torpaqlarından imtinaya məcbur edilməsidir. 4.Ermənistanın beynəlxalq səviyyədə iqtisadi müqavilələrdən başqa digər məsələlər üzrə əməkdaşlıq qurmamaq öhdəliyini üzərinə götürməsidir. 5.Ermənistanın Ararat dağının təsvirinin yer aldığı gerbinin dəyişdirilməsi. 6.Ermənistanın Müstəqillik bəyannaməsindən tamamilə imtinası.

*

Sonda onu da bildirək ki, Ermənistan üçün sadaladığımız nəzəri kapitulyasiya şərtlərinin çevrəsini genişləndirmək, faşist Almaniyasının denasifikasiyası və demilitarizasiyasını nəzərdə tutmuş klassik kapitulyasiyanın şərtlərinə bənzər digər alçaldıcı məqamları da qabarda bilərdik. Ancaq həmin məqamları qabartmağa lüzum görmürük. Həm də ona görə lüzum görmürük ki, Mirzoyanın və başqa "yan"ların beynəlxalq müstəvidəki "sülh göyərçinliyinin" fazasından asılı olmayaraq, dövlətimiz beş il əvvəlki kimi, yenə İrəvanı real sülhə çağırır. Prezident İlham Əliyevin bildirdiyi kimi, top Ermənistanın tərəfindədir. Qarşı tərəfin düşünməsi üçün, az da olsa, vaxtı var.

**Ə.CAHANGİROĞLU**
**XQ**

**Replika**

# Serj Sarkisyan və "Fəryad"ın Xoren obrazı

## *Ermənistanın üçüncü prezidentinin sərsəmləmələrinə sözardı*

**Ermənistanın üçüncü prezidenti, Xocalı canisi Serj Sarkisyan özünün rəhbərlik etdiyi Respublikaçılar partiyasının qurultayındakı çıxışı ilə kimi xatırlatdı. Bunu yazımızın sonunda diqqətə çatdıracağıq. Hələlik isə Serjikin sərsəmləmələri ilə bağlı bəzi nüansların üzərində dayanaq. Daha doğrusu, üç məqamı vurğulayaq.**



Birincisi, S.Sarkisyan "Artsax" ağlaşması qurur. İkincisi, o, ölkənin hazırkı iqtidarını hədəfə alır və onu ölkədə baş alıb gedən qanunsuzluqlarda, ən başlıcası, Qarabağın itirilməsinə görə günahlandırır. Üçüncüsü isə Serjik ad çəkmədən baş nazir Nikol Paşinyanın hakimiyyətə gətirilməsinə kömək göstərmiş qüvvənin mövcudluğu üzərində dayanır və həmin qüvvəyə xitab edərək, bir növ, onun seçiminin düzgün olmadığını əsaslandırmağa çalışır.

Əlbəttə, S.Sarkisyan erməni faşizminin təmsilçisidir və belə bir şəxsin hələ də Ermənistanın siyasi həyatında qalması, onun həmfikirlərinin və ardıcıllarının mövcudluğu göstərir ki, avantürizm hay cəmiyyəti üçün aktuallığını saxlamaqdadır. Nəzərə alaq ki, Ermənistanda Serjik kimi düşüncələrin çevrəsi genişdir. Ən pisi isə odur ki, ölkənin hazırkı hakimiyyəti də mahiyyətcə Sarkisyan xislətlilərdən bir o qədər geri qalmır. Sadəcə, Paşinyan iqtidarının avantürizmi qorumağa yönəlmiş forma və metodları fərqlidir.

S.Sarkisyan Paşinyanı hakimiyyətə gətirən "gözəgörünməz" qüvvələri ittiham edərkən, təxminən bunu demək istəyirdi: Biz erməni avantürizmini Nikoldan və komandasından daha yaxşı həyata keçirərdik. Paşinyana dəstək verməklə və hakimiyyətdən getməyimizə şərait yaratmaqla böyük səhvə yol verdiniz. Digər tərəfdən, Sarkisyanın fikirlərindən onun erməni xalqını da günahlandırdığı duyulur. O, faktiki olaraq, sadə ermənilərin yalandan xoşbəxt gələcək vəd edən yaramaza aldandıqlarını vurğulayır.

S.Sarkisyanın partiya qurultayındakı çıxışından gəlinən daha bir nəticə budur ki, Serjik Paşinyanın komandasının onu təqib etməsindən narahatlıq keçirir. Amma geri çəkilməyi düşünmür və bildirir ki, hazırda Ermənistanda bütün səviyyələrdə keçmiş SSRİ dövrünün repressiyaları təkrarlanır. Nikolu hakimiyyətə gətirən amorf qüvvələrə buna görə də ittiham yağdıran Sarkisyan obrazlı danışmaq bacarığına güc verərək deyir: "Bizim sonuncu qurultayımızda bu mövzunu gündəmə gətirdim və dedim ki, sürüdə ən möhkəm anqıran uzunqulağın alnından öpmək barədə onlara məsləhəti mən görməmişdim. Deyəsən, bu onların çox böyük səhvləri oldu. İndi son dövrlər baş verən hadisələri nəzərə alaraq, öz fikrimi deyirəm: "Öpdüyünüz uzunqulağı bizim qızmıza yaxın qoymayın". Uzunqulağın alnından öpən hər kəs məsuliyyət daşıyır".

Tam aydındır ki, S.Sarkisyanın uzunqulaq kimi qələmə verdiyi şəxs baş nazir Nikol Paşinyandır. Xocalı cəlladının subliminal xarakterli çıxışının, əslində isə püskürdüyü kin və hikkənin digər müxtəlif təzahür formaları barədə də söz açmaq mümkündür. Amma buna ehtiyac duymuruq. Ancaq onun sərsəmləmələri bir neçə məqamın üzərində dayanmağa əsas yaradır.

Birincisi, Ermənistan siyasi həyatı gərginlik fazasını qoruyur və azacıq qığılcım baş versə, partlayış mütləqdir. Əlbəttə, demək olmaz ki, Sarkisyan və onun tərkibində təmsil olunduğu qatı revanşist və şovinist kəsim güclüdür. Əksinə, erməni cəmiyyətində bu qütbə münasibətdə qəzəb və hiddət var. Qəzəb və hiddət Sarkisyan-Koçaryan xunta rejiminin erməni xalqına yaşatdığı səfalət və zülmdən qaynaqlanır. Ona görə də xalq Paşinyanın "Çörək və tamaşa" vədinə hələ də inanır.

Ermənistanda güclü mahiyyətini qoruyan isə Sarkisyan kimilərin daşıdığı revanşist ideya və avantürizmdir. Böyük ölçüdə yanaşsaq, erməni cəmiyyəti həmin avantürizmin davam trayektoriyası baxımından Paşinyandan başqa kimisə tapa bilmir və sonuncu bu səbəbdən də hakimiyyət kreslosundan möhkəm yapışmağı bacarır. Deməli, haqqında söz açdığımız gərginlik fazasının iqtidarın dəyişməsi durumunu formalaşdıracaq partlayış üçün qığılcımı yoxdur və ümumən, bu, mümkünsüz görünür.

İkincisi, ümumən müstəqil dövlətinə malik dünya xalqlarının siyasi sistemində başqa ölkəyə qarşı ərazi iddiasının səsləndiyi məmləkətə çox az rast gəlinir, bəlkə heç yoxdur. S.Sarkisyanın "Artsax" ağlaşması qurması Ermənistanı bu baxımdan ön plana çıxarır. Azərbaycan rəhbərliyi də məhz buna görə vurğulayır ki, Ermənistandakı faşizmin kökünü kəsmək lazımdır, bunu ya erməni iqtidarı özü, ya da biz edəcəyik. Çünki faşist zehniyyət sahibləri ölkənin müxalifət kəsimini təmsil etməklə hakimiyyətə iddialıdırlar. Onların iqtidar kökləni̇şi Cənubi Qafqazda sülhü və sabitliyi təhlükə altına alır. Təhlükəyə düşən isə bütövlükdə regiona tarixən bağlı xalqların maraqları, bölgənin gələcək inkişafıdır. Yaxşı olar ki, beynəlxalq ictimaiyyət məsələyə diqqət yetirsin və həssas yanaşsın. Həm də ona görə həssas yanaşsın ki, Paşinyan iqtidarı bir tərəfdən Sarkisyana bənzər revanşist canilərin öhdəsindən gələ bilmir, digər yandan özü də onlar kimi davranır.

İndi də əvvəldə diqqətə çatdırdığımız məqama qayıdaq. Yəqin, oxucularımızın böyük əksəriyyəti Azərbaycan kinematoqrafl arının 1993-cü ildə çəkdiyi, ssenari müəllifi Vaqif Mustafazadə, baş rol ifaçısı və rejissoru mərhum Ceyhun Mirzəyev olan "Fəryad" filmini izləyib. Həmin filmdə bir çox erməni obrazları var ki, onlardan biri də Xorendir. Hesab edirik ki, S.Sarkisyan partiyasının çıxışında "Artsax" vay-şüvəni qaldırmaqla məhz həmin Xoreni xatırlatdı. Yəni, "Qarabağ" deyib başını divara döyən xəstə ermənini. Bugünkü Ermənistan reallığında xorenlər başlarını divara çırpmaqdan başqa heç nəyə yaramırlar. Sarkisyan da həmçinin. Divara vurulan baş isə yarılmalıdır. Özgə yolu yoxdur.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının növbəti iclası keçirilib



**Aprelin 15-də Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının növbəti iclası keçirilib.**

Əvvəlcə Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov iclasın gündəliyində duran məsələ - "2026–2030-cu illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın layihəsi barədə Şura üzvlərinə məlumat verib. Bildirib ki, rəsmi statistika məlumatlarının beynəlxalq müqayisəliliyinin təmin edilməsi üçün milli statistika sisteminin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi və dünya statistika sisteminə inteqrasiyası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ölkədə onun rəhbərliyi ilə başlanan və sonrakı illərdə uğurla davam etdirilən islahatlar rəsmi statistikanın da inkişafına güclü təkan verib, statistika sisteminin hüquqi bazası yaradılıb. Bu sahədə ardıcıl olaraq icra edilən 6 dövlət proqramı çərçivəsində milli statistik təsnifatların, müasir metodologiyaların hazırlanması və tətbiqi, Milli Hesablar Sisteminin qurulması, yeni statistika sahələrinin yaradılması və təkmilləşdirilməsi, istifadəçilərin statistik məlumatlara olan tələbatının ödənilməsi, elektron statistikanın inkişafı, sahibkarların üzərinə düşən statistik yükün azaldılması, rəsmi statistika istehsalı proseslərinin səmərəliliyinin yüksəldilməsi, keyfiyyəti idarəetmə sisteminin tətbiqi, metaməlumatların işlənilməsi, statistika orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətlərində mühüm tədbirlər görülüb.

T.Budaqov vurğulayıb ki, qeyd olunanlarla yanaşı Azərbaycan Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", qəbul edilmiş müxtəlif dövlət proqramları və strategiyalar üzrə qarşıya qoyulmuş hədəflərə, habelə dayanıqlı inkişaf məqsədlərinə nailolma vəziyyətinin statistik qiymətləndirilməsi, artan istifadəçi tələbatının qarşılanması, eləcə də beynəlxalq müqayisəliliyin təmin olunması üçün tətbiq olunan statistik metodologiya, təsnifat və digər standartlarda baş verən dəyişiklik və təkmilləşmələr rəsmi statistikanın inkişafı ilə bağlı yeni strateji hədəflərin müəyyənləşdirilməsini və reallaşdırılmasını şərtləndirir. Bu məqsədlə hazırlanan "2026–2030-cu illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın layihəsinə iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə statistik göstəricilər sisteminin, metodologiyaların hazırlanması və təkmilləşdirilməsi, müşahidələrin aparılması, əldə edilən statistik məlumatların yayımı, ümumilikdə rəsmi statistika qarşısında duran vəzifələrin vaxtında və keyfiyyətlə icrası məqsədilə statistik istehsalın hüquqi və informasiya təminatının, beynəlxalq əməkdaşlığın, statistika orqanlarının maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi, habelə milli statistika sisteminin növbəti çoxillik dövr üzrə strateji inkişaf prioritetlərinin müəyyənləşdirilməsi məsələləri daxil edilib.

Komitə sədrinin müavini Yusif Yusifov Statistika Şurasının üzvlərinə Dövlət Proqramının strukturu, hədəf göstəriciləri və prioritet istiqamətləri barədə ətraflı məlumat verib.

Sonra Statistika Şurasının üzvləri Dövlət Proqramı layihəsi ilə bağlı öz müsbət fikirlərini bildirib, sənədin qanunvericiliyin tələblərinə uyğun hazırlandığını, beynəlxalq trendlər nəzərə alınmaqla növbəti dövr üçün milli statistika sistemi qarşısında duran vəzifələri əhatə etdiyini qeyd edərək onun aidiyyəti üzrə təqdim olunmasını məqsədəuyğun hesab ediblər.

**XQ**

# “Tutar qatıq, tutmaz ayran” sevdası

*ABŞ-dakı erməni lobbisinin konqresmenlərlə əməkdaşlığı səmərə vermir*

**ABŞ-dakı erməni lobbisi fəallarının Azərbaycana qarşı sanksiyaların tətbiqi üçün konqresmenlərlə görüşləri, ardınca Ağ evə müraciət göndərməyə hazırlaşdıqları barədə yazmışdıq. Məlumatda qeyd olunurdu ki, onlar “Dağlıq Qarabağda etnik təmizləmə”yə görə ölkəmizin “beynəlxalq məsuliyyətə cəlb edilməsi üçün” bir aylıq kampaniyaya start veriblər. Amerika Erməniləri Milli Komitəsinin (ANKA) nümayəndələri bu kampaniya çərçivəsində bəzi konqresmenlərlə görüşlər təşkil ediblər. Əvvəlki illərin təcrübəsindən yararlanan zəngin ermənilər konqresmenləri ələ almaqdan ötrü bütün vasitələrdən, o cümlədən dezinformasiyadan genbol istifadə ediblər. ANKA fəalları 2023-cü ilin sentyabrında Qarabağdan könüllü köçən ermənilərin sayını şişirdərək, əvvəl açıqladıqları 120 min rəqəmini bu dəfə 150 minə çatdırıblar. Bununla da kifayətlənməyən hay “milli təəssübkeşləri” konqresmenlərdən Azərbaycanın dövlət rəsmilərinə qarşı “Maqnitski aktı”nın tətbiqini tələb etmişdilər.**

*



ANKA-nın məlum anti-Azərbaycan kampaniyasının nəticəsi olaraq 36 konqresmen ABŞ Dövlət katibi Marko Rubionu qlobal “Maqnitski aktı”na uyğun olaraq “ermənilərə qarşı insan hüquqlarının kobud şəkildə pozulmasına, o cümlədən hərbi əsirlərin və Artsaxın keçmiş hərbi-siyasi rəhbərliyinin qanunsuz həbsinə, işgəncələrə və saxta məhkəmələrə görə cavabdeh olan” Azərbaycan rəsmilərinə qarşı sanksiyalar tətbiq etməyə çağırıb. Bu barədə məlumatı “Daşnaksütyun” bürosu mərkəzi aparatının mətbuat xidməti yayıb. Məktubu imzalayan konqresmenlər vurğulayırlar ki, “Azərbaycan bu günə qədər Dağlıq Qarabağın blokadası zamanı və ondan sonra əsir götürülmüş, ən azı, 23 erməni hərbi əsirini qanunsuz olaraq saxlayır”. Daha sonra yazırlar: “Bu siyasi girovlar zorakılığa və ləyaqəti alçaldan rəftara məruz qalırlar”.

“Yüksək rütbəli erməni məmurlarının saxta məhkəmələri davamlı sülh üçün lazım olan etimadın möhkəmləndirilməsi tədbirlərini sarsıdır” – yazıldığı məktubda “36-lar” “siyasi məhbusların və hərbi əsirlərin azad edilməsinin ədalətli və davamlı sülhə nail olmaq yolunda mühüm addım” olacağını qeyd ediblər. Onlar hesab edirlər ki, Azərbaycana qarşı tətbiq olunacaq “sanksiyalar hərbi əsirlərin azad edilməsi və Ermənistana qarşı növbəti təcavüzün qarşısının alınması üçün mühüm təzyiq vasitəsi”nə çevriləcək.

İndi ortaya maraqlı sual çıxır: “Konqresdəki erməniպərəst lobbiçilərin belə bir petisiyasının hansısa effekti olacaqmı?”

Bu yaxınlarda Prezident İlham Əliyevə Novruz bayramı münasibətilə göndərdiyi təbrik məktubunda Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə güclü dəstəyini ifadə edən Birləşmiş Ştatların Prezidenti Donald Trampın dövründə erməniպərəst konqresmenlər nəyə ümid edirlər? Onlar yaxşı bilirlər ki, D.Tramp praqmatik siyasətçi, təcrübəli iş adamıdır. Təbii ki, hesab edir ki, ABŞ və Azərbaycan arasında yaxşı münasibətlər onun ölkəsi üçün xəyalların subyekti olan “böyük Ermənistan”dan və ya “türklərin əsarətində olan Artsax nağılları”ndan qat-qat vacibdir.

*

Görünən odur ki, ABŞ lideri heç bir halda Bakı ilə münasibətləri korlamayacaq. Üstəlik, haypərəst konqresmenlərin əlində “Artsax”ın keçmiş liderləri və onların əlaltılarının qanunsuz mühakimə olunmasına dair heç bir sübut yoxdur. Əgər ortalıqda belə bir sənəd olsaydı, etiraz petisiyasının müəllifi olan konqresmenlər bunu mütləq elan edərdilər. Əks halda, bunun adı Azərbaycana qarşı sifarişli hücumdur.

Məsələnin görünməyən tərəfi də var: Birləşmiş Ştatlar həm bir dövlət kimi, həm də onun vətəndaşları Azərbaycanla münasibətləri korlamaqda, xüsusən də hərbi cinayətlərə görə təqsirləndirilən şəxs qismində ittiham olunanların xoşuna gəlməkdə o qədər də maraqlı deyil. Birinci və İkinci Qarabağ müharibələrində ağır cinayətlər törətməkdə ittiham olunan və əməllərinə görə saxlanılan separatçıların Bakıda keçirilən məhkəmə prosesi Azərbaycanın daxili işidir.

ABŞ konqresmenlərinin rəyi nə məhkəmə prosesinə, nə də onun son hökmünə hansısa təsiri göstərə bilər. Rubioya məktuba imza atanların özləri bu reallığı çox gözəl başa düşürlər. İntəhası, onlar ANKA-dan aldıqları sifarişi yerinə yetirməlidirlər. Onların böyük əksəriyyətinin bunu maddi səbəbdən etdiyi məlumdur. Yəqin aralarında elələri də var ki, bu addımı məlumatsızlıqdan və ya saxta göz yaşlarına inanaraq, quldurların müdafiəsinə qalxmaq qərarına gəliblər.

Konqresin qanunvericilik fəaliyyətinə gəlincə, haypərəst qanunvericilər bəlkə bekarçılıqdan belə yersiz və səmərəsiz işlə məşğuldurlar. Yəni öz enerjilərini daha faydalı işlərə, misal üçün, Azərbaycandan fərqli olaraq, ölüm hökmünün ləğv olunmadığı, biabırçı “elektrik stulu” cəzasının qaldığı ABŞ-ın əksər ştatlarında xərcləyə bilərlər. Bununla bağlı təşəbbüs göstərsinlər, ölümə məhkum olunanların müdafiəsi üçün Ağ evə, Dövlət Departamentinə müraciət etsinlər, məktub yollasınlar. Düşünürlər ki, bu, çətin alınan məsələdir. Çünki ABŞ cəmiyyətində qatillərin, manyakların, terrorçuların müdafiəsi anlayışla qarşılanmaya bilər...

Uzun sözün qısası, Donald Trampın bu cür separatçı çağırışların təsiri altında Azərbaycana yönəlik siyasətini dəyişməyəcəyi aydındır. Hətta, ola bilsin ki, məktubu imzalayan konqresmenləri öz ölkələrinin qayğısına qalmağa, başqa ölkələrin işlərinə qarışmamağa çağırsın. Nəinki ittiham olunduqları cinayətləri törətməkdə günahlarını Bakıda məhkəməyə etiraf edən insanların müdafiəsinə qalxsın. Axı, ANKA-nın “hərbi əsirlər” dediyi həmin təqsirləndirilən şəxslər bunu məhkəmədə dəfələrlə söyləmiş, bəziləri əməllərinə görə peşman olduqlarını bildirmişlər. Onlar bu etiraflarını məhkəmə zalında heç bir kənar təsir, ifadələrinə müdaxilə olmadan ediblər. Hər şey eşidilir və yazılır...

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyləri

**Tofiq ABBASOV,**
**siyasi şərhçi**



– Ermənilər törətdikləri cinayətlərin hamısını bizim ayağımıza yazmağa çalışırlar. Onlar bu minvalla dünya birliyini, aparıcı siyasi gücləri öz tərəflərinə çəkmək və Azərbaycan üçün problem yaratmaq məqsədi güdürlər. ABŞ Konqresində haylara lobbiçilik edənləri tanıyırıq. Hayların pullu sifarişlərini yerinə yetirməyi yaxşı qazanc mənbəyinə çevirmiş həmin konqresmenlərin özləri faydasız işlə məşğul olduqlarını yaxşı anlayırlar. Əslində, bu, növbəti uğursuz bir cəhddir. Biz erməniləri Qarabağdan qovmamışıq. Az sayda olsa da, indi orada qalanlar, Azərbaycan vətəndaşlığını qəbul edənlər, hətta son seçkilərdə səs verənlər də var. Həmin kənar güclər də artıq başa düşürlər ki, heç nədən Azərbaycan üçün problem yaratmaq hayların köhnə vərdişidir. Amma, necə deyərlər, bu hənə o hənadan deyil. Ona görə ki, münaqişənin ağır yükünü Azərbaycan özü çiynindən atmağı, beynəlxalq hüququ, tarixi ədaləti bərpa etməyi bacarıb. İndi ermənilər bütün imkanlarını ona görə səfərbər ediblər ki, biabırçı məğlubiyyətdən sonra, haradasa, özlərinə bəraət qazandıra bilsinlər.

Əslində, Ermənistan Azərbaycanı belə ucuz üsullarla hədələməklə özünə problem yaratmaqla məşğuldur. Bizim müharibəmiz də, mübarizəmiz də beynəlxalq hüquqa və ədalətə söykənir. Azərbaycan pozulmuş tarixi hüququnu bərpa edib və haqqı çatanı alıb. Hər halda amerikalı konqresmenlər o dərəcədə savadsız, tarixdən bixəbər deyillər ki, erməni lobbisinin oyununun qurbanları olsunlar.

**İlqar VƏLİZADƏ,**
**“Cənubi Qafqaz” Politoloqlar Klubunun rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert**



– Bu cür müraciət Trampın dövründə ilk dəfədir, ona görə də reaksiyanı proqnozlaşdırmaq çətindir. Xüsusən də nəzərə alsaq ki, Dövlət katibi Marko Rubionun özü senator olanda ermənilərə rəğbət bəsləyirdi. Ancaq zaman ötdükcə prioritetlər də dəyişdi. Biz görürük ki, ABŞ-ın indiki administrasiyası maraqlara uyğun praqmatik hərəkət etməyə çalışır. Donald Tramp əvvəlki prezidentliyi dövründə də Azərbaycanla işləyib. Ona görə bu işdə əməkdaşlıq təcrübəsi mühüm rol oynaya bilər. Bundan əlavə Azərbaycan və İsrail arasındakı münasibətlər də ABŞ–Azərbaycan münasibətlərinin hazırkı amilidir.

Biz bilirik ki, Rubioya müraciət edənlərin əksəriyyəti, ümumiyyətlə, Trampın əleyhinə çıxır və ABŞ-ın daxili və xarici siyasətini tənqid edir. İndiki rəhbərliyin onları diqqətlə dinləyəcəyini, üstəlik, tələblərini yerinə yetirməyə tələsəcəyini gözləməyin qətiyyən mənası yoxdur. Ona görə də mənə elə gəlir ki, indiki administrasiyanın öz maraqlarından çıxış edərək fəaliyyət göstərməyə çalışdığını və müəyyən ölkələrlə münasibətlərə real siyasət kontekstində baxdığını nəzərə alsaq, bəzi konqresmenlərin bu cəhdləri arzu etdikləri effekti verməyəcək.

Üstəlik, seçki dövrü arxada qaldığından erməni lobbisi ilə manipulyasiya etməyə xüsusi ehtiyac duyulmur. Ona görə də hesab edirəm ki, bütövlükdə, bu müraciət diqqətdən kənarda qalacaq.

# Ermənistan Avropa İttifaqının nəyinə gərəkdir?

**Nikol Paşinyan iqtidarının sonuncu avantüralarından biri – Avropa İttifaqına (Aİ) üzv olmaq təşəbbüsü son vaxtlar Ermənistandakı ekspertlər tərəfindən də tənqid edilir. Onlar əsaslandırılmış arqumentlərlə məlum təşəbbüsün mənasızlığını ortaya qoyurlar. Qeyd edirlər ki, bu, nəinki yaxın illərdə, qarşıdakı onilliklər ərzində də baş tutacaq iş deyil.**

Məsələn, iqtisadçı Qrant Mikaelyan deyib ki, yaxın 30 ildə Ermənistanın Aİ-yə daxil olması üçün perspektiv görünmür. Onun sözlərinə görə, bunlar qeyri-ciddi söhbətlərdir: “Əvvəla, mən Ermənistanın Aİ-yə daxil olması üçün heç bir dəstək və ya çağırış görməmişəm. Digər tərəfdən əminəm ki, Aİ Ermənistanı sıralarına qəbul etməyəcək. Hazırda Aİ üzvlüyünə namizədlər siyahısında 10 ölkə var. Onların rəsmi müraciətləri Avropa İttifaqı tərəfindən qəbul edilib və bu siyahıda sonuncu yerdə Ermənistanı xeyli qabaqlayan Gürcüstan qərarlaşıb”.

2005-ci ildən sonra üç ölkənin – Rumıniya, Bolqarıstan və Xorvatiyanın Aİ-yə qoşulduğunu, 2016-2022-ci illərdə isə Böyük Britaniyanın ittifaqdan çıxması prosesinin getdiyini xatırladan ekspert qeyd edib ki, son 20 ildə Aİ-nin əsas tendensiyası ixtisar olub və təşkilatın genişlənəcəyinə dair heç bir əlamət yoxdur: “Ekspertlər bildirirlər ki, 2030-cu ildən sonra Aİ-nin yeni genişlənməsi mərhələsi başlayacaq. Bu, bir daha sübut edir ki, indiki genişlənmə söhbətləri siyasətin bir hissəsi deyil, diskurs xarakteri daşıyır. Əgər məsələn, Bosniya və Herseqovina və ya Serbiya Aİ-yə daxil olarsa, biz başa düşməliyik ki, Ermənistan üzv olmayacaq”.

“Alternativ” araşdırma mərkəzinin rəhbəri, iqtisad elmləri doktoru, professor Tatul Manaseryan isə bu fikirdədir ki, Avropaya inteqrasiya prosesləri davam edərsə, Ermənistan daxili istehsalın iflası və demoqrafik tənəzzüllə üzləşəcək. Onun sözlərinə görə, Qərbin məqsədi Ermənistanı Aİ-yə qəbul etmək deyil, Rusiyanı regiondan sıxışdırıb çıxarmaqdır. Manaseryan xatırladıb ki, Aİ Rusiya ilə müharibədə Qərbin birmənalı dəstək verdiyi Ukraynanı belə qəbul etmir:

“ABŞ Konqresinin Nümayəndələr Palatasının keçmiş sədri Nensi Pelosi 2022-ci ildə İrəvana səfəri zamanı Qərbin Ermənistanın təhlükəsizliyini, o cümlədən enerji təhlükəsizliyini təmin edə bilməyəcəyini açıq şəkildə bəyan etmişdi. Müstəqilliyin ilk günlərindən Ermənistanın Qərblə balanslaşdırılmış münasibətləri var idi. Lakin hazırda qərbyönümlü qüvvələr, guya, Aİ-nin adından danışaraq “Qərb bizi gözləyir” deyirlər. Əslində, Avropa rəsmiləri Ermənistan tərəfi ilə bütün görüşlərdə bizə heç nə vəd etmədiklərini açıq ismarıc verirlər. Əlbəttə, biz Avropa ilə ünsiyyət saxlamalı, münasibətləri, əlaqələri inkişaf etdirməliyik. Bəs biz nə üçün xalq dilində desək, öz yükümüzü onların çiyinlərinə qoymaq istəyirik?! Bizi problemlərimizlə orada kim gözləyir? Avropalılar belə müraciət edən ölkələri “sərbəst yükləyicilər” kimi qəbul edilir. Bir daha demək istəyirəm ki, Qərbin siyasi liderləri Ermənistana münasibətdə çox dürüstdürlər. Onlar “biz sizi gözləmirik” deyirlər.

İqtisadçı əmindir ki, Aİ, eləcə də Avrasiya İqtisadi İttifaqı ilə münasibətlər özlüyündə Ermənistana heç nə verməyəcək, çünki bunun üçün fəal işləmək lazımdır. Onun müşahidələrinə görə, Ermənistan vətəndaşları avropalıların ümumi birgəyaşayış qaydaları, eləcə də institusional struktur hazırlayana qədər çox çətin yol keçdiyini unudaraq heç nə etməmək və Aİ-nin hesabına yaşamaq istərdilər. Ermənistan hakimiyyəti hələ Aİ ilə yaxınlaşma prosesi başlamamışdan əvvəl ittifaqla iqtisadi əlaqələri gücləndirmək üçün müəyyən addımlar atmalı idi. Lakin vəziyyət hələ də diametral şəkildə əksinədir – Ermənistanın Aİ ilə ticarət dövriyyəsi 2024-cü ildə 20 faiz azalıb.

Manaseryan xatırladıb ki, Qərb indiyədək Rusiyaya qarşı 16 sanksiya paketi tətbiq edib, lakin uran, maye qaz və neft tədarükü məsələsində onunla ticarəti davam etdirir. İrəvan isə Moskva ilə strateji tərəfdaşlıqdan imtina etməyə məcburdur və bu, Ermənistan üçün təhlükəli nəticələrə gətirib çıxara bilər.

Qeyd edək ki, 2025-ci il martın 26-da Ermənistan parlamenti ölkənin Aİ-yə üzvlüyü prosesinin başlanması haqqında qanun layihəsini ikinci oxunuşda qəbul edib. Aprelin 4-də qanunu ölkə prezidenti Vaaqn Xaçaturyan imzalayıb. Ancaq milli assambleyanın Avropaya inteqrasiya komitəsinin rəhbəri Arman Yeqoyanın dediyi kimi, bu qanun layihəsi, sadəcə olaraq, erməni xalqının iradəsini ifadə edir. Hazırda respublikanın Aİ-yə üzvlüyü üçün ərizənin verilməsi nəzərdə tutulmur.



N.Paşinyan özü isə bəyan edib ki, Ermənistan Avrasiya İqtisadi İttifaqı və Rusiya iqtisadi əlaqələri kəsməyi planlaşdırmır və ticarət dövriyyəsinin həcmini azaltmaq vəzifəsini qarşıya qoymur. Onun sözlərinə görə, Ermənistan iqtisadiyyatın diversifikasiyasına doğru gedir və Aİ ilə də ticarət dövriyyəsini artırmaq istəyir. Qeyd edib ki, qanunun qəbulu, sözün hərfi mənasında, Ermənistanın Aİ-yə üzvlüyü demək deyil, çünki bu məsələ ilə bağlı qərar yalnız referendum yolu ilə qəbul oluna bilər.

Ermənistanın Aİ-yə qoşulacağı təqdirdə məruz qalacağı iqtisadi itkilərlə bağlı bu yaxınlarda Rusiya Baş nazirinin müavini Aleksey Overçuk fikirlərini açıqlamışdı. O demişdi ki, Moskva Ermənistanda Aİ-yə daxil olmaq haqqında qanun layihəsinin qəbulunu respublikanın AİI-dən çıxmasının başlanğıcı kimi qiymətləndirir. Onun sözlərinə görə, Aİ-yə daxil olmaq ölkənin AİI üzvlüyü ilə bir araya sığmır: “İrəvan eyni anda iki stulda otura bilməz və Avrasiya İqtisadi İttifaqı və Aİ arasında seçim etməlidir. Biz bu prosesləri diqqətlə izləyirik və izləyəcəyik. Başa düşürük ki, Ermənistan Avropaya doğru hərəkət edərsə, o zaman müvafiq olaraq, ölkə ilə bütün iqtisadi münasibətlər kompleksinə yenidən baxmaq lazım gələcək. Təəssüf ki, bu, Ermənistanda insanların həyat səviyyəsində öz əksini tapacaq və bu, əlbəttə ki, bizim xoşumuza gəlməyəcək”.

Rusiya Xarici işlər nazirinin müavini Mixail Qaluzin isə aprelin 14-də “İzvestiya”ya müsahibəsində deyib ki, Ermənistan Avropanı seçmək yolu ilə getsə, bu, obyektiv olaraq İrəvanın AİI-dəki tərəfdaşları ilə hazırda qurduğu iqtisadi münasibətlərə yenidən baxılmasına gətirib çıxaracaq: “Bu, yəqin ki, kifayət qədər ağrılı proses olacaq. Təəssüf ki, Ermənistan əhalisi də bunu hiss edəcək. Güman etmək məntiqlidir ki, ölkə rəhbərliyi AİI-dən çıxmaqla nələri itirə biləcəyini və Avropa İttifaqına qoşulmaqla, əslində, nə qazana biləcəyini öz əhalisinə izah edəcək. Erməni tərəfdaşlarımız yəqin ki, nə vaxtsa hansı istiqamətdə getdiklərini qərar verməli olacaqlar: Avropa İttifaqına inteqrasiya və ya AİI vasitəsilə Avrasiya inteqrasiyasında iştirakın davam etdirilməsi. Bu iştirak Ermənistan əhalisinə aşkar fayda gətirir və ilk növbədə, Ermənistanın ÜDM-nin artımında mühüm rəqəmlərlə ifadə olunur. Son bir ildə bu, təxminən 6 faiz təşkil edib”.

Qaluzin bu gün də Ermənistanın Aİ ölkələrinin hər biri ilə ticarət dövriyyəsinin Rusiya ilə müqayisədə bir neçə dəfə aşağı olduğuna diqqət çəkib.

Göründüyü kimi, Ermənistanın Aİ-yə qoşulmaq istəyi kifayət qədər problemli məsələdir. Parlamentin qəbul etdiyi bu qanun istər ölkə daxilində birmənalı qarşılanmır, istərsə də Ermənistanın strateji müttəfiqi Rusiyanın etirazına səbəb olur. Belə olan təqdirdə baş verənləri Paşinyan iqtidarının növbəti avantürası kimi qiymətləndirmək kifayət qədər əsaslıdır.

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi



**İlyas HÜSEYNOV,**
**politoloq**

– Rusiya–Ukrayna müharibəsinin gedişində Ermənistanda belə bir əhval-ruhiyyə yarandı ki, baş verənlərin əsas təqsirkarı Moskvadır. İrəvanda düşündülər ki, Rusiyaya qarşı siyasət yürütmək, müdafiə və təhlükəsizlik sahəsindən tutmuş iqtisadiyyata qədər bütün sahələrin diversifikasiyasını həyata keçirmək lazımdır. Bu zaman alternativ kimi avrointeqrasiya yolu üstün hesab edildi. Demokratların dövründə Co Bayden administrasiyası buna dəstək verir, ayrı-ayrı maliyyə qurumları mövcud vəziyyəti iqtisadi cəhətdən şirnikləndirir, Makron Avropa institutlarını işə salırdı. Ermənistanın KTMT ilə əməkdaşlığının dondurulması yolu seçildi. Lakin AİI-də öz mövcudluğunu və əməkdaşlığını davam etdirir. Çünki İrəvanda yaxşı başa düşürlər ki, AİI Ermənistan üçün həyati vacibdir.

Aİ-yə üzvlük ideyasının meydana çıxması, petisiyanın yaradılması, imza toplanılması, nəhayət, parlamentin bununla bağlı qanun qəbul etməsi, prezidentin bunu təsdiqləməsi kifayət qədər böyük irəliləyiş hesab olunur. İndi yalnız referendum keçirilməsi qalıb. Lakin bu yerdə məşhur deyimi yada salmaq yerinə düşər; Oğlan evində toydur, qız evinin xəbəri yoxdur. Axı, Aİ Ermənistana dəvət göndərməyib. Axı, Aİ-də Ermənistanı gözləmirlər. Uzun illər Aİ-nin üzvü olmağa can atan Türkiyə hazırda əlini təşkilatdan üzmüş vəziyyətdədir. Çünki heç bir adekvat reaksiya verilmir. Moldova, Ukrayna, Gürcüstan da Aİ-nin üzvü olmaq istəyirlər. Onların vəziyyəti Ermənistan üçün nümunə olmalıdır. Bütün bunları görərək və başa düşərək Ermənistan özünü görməzliyə və bilməzliyə vurur. Eyni zamanda, Rusiya ilə bütün inteqrasiya layihələrini də qoruyub saxlamağa çalışır. Bu, absurd və nonsensdir.

# “Qafqaz evi” – yeni regional arxitektura axtarışında

## Siyasi iradə ilə yanaşı, ictimai şüurun dəyişməsi, qarşılıqlı etimad da vacibdir

**Cənubi Qafqaz regionu növbəti dəfə beynəlxalq geosiyasi gündəmin diqqət mərkəzinə çevrilməkdədir. Bu diqqət təkcə regiondakı enerji və nəqliyyat layihələri ilə bağlı deyil, həm də postmünaqişə dövrünün yaratdığı yeni imkanlar, geosiyasi balansların dəyişməsi və əməkdaşlıq modelinin yenidən dizayn olunması ilə əlaqədardır. Regionda baş verən siyasi hadisələr, xüsusilə də Gürcüstan və İran prezidentlərinin Bakıya səfərləri regionun gələcəyinə dair daha geniş və strateji baxışın, o cümlədən, “Qafqaz evi” kimi konseptual təşəbbüslərin yenidən gündəmə gətirildiyinin əlamətidir.**




“Qafqaz evi” ideyasının əsas məqsədi — xarici müdaxilələri minimuma endirərək Cənubi Qafqaz ölkələri arasında sülh, təhlükəsizlik və qarşılıqlı inkişafa əsaslanan vahid bir regional əməkdaşlıq platformasının qurulması idi. Bu ideya bölgənin xarici güclərin təsir və maraq dairəsində parçalanmasından çıxarılaraq, daxili resurslara, etimada və mehriban qonşuluq prinsipinə söykənən yeni arxitekturanın yaradılmasını hədəfləyirdi.

Qafqaz tarixən imperiyalar, güc mərkəzləri və dini-etnik qarşıdurmaların kəsişmə nöqtəsi olub. XIX əsrdə Çar Rusiyası ilə Qacarlar arasında aparılan müharibələr, sonrakı Sovet dövründə süni sərhədlərin və etnik parçalanmaların yaradılması bu regionda dərin travmalar və qarşılıqlı etimadsızlıq mirası qoyub. SSRİ-nin dağılmasından sonra da bu tarixi gərginliklər modern siyasi münaqişələrə çevrilib – Ermənistanın Azərbaycana qarşı işğal siyasəti və Gürcüstandakı Abxaziya və Cənubi Osetiya qarşıdurmaları bunun nümunələridir.

*

İlk növbədə, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və Qarabağda baş verən qanlı münaqişə bu ideyanı praktiki baxımdan qeyri-mümkün etdi. Regionda dərin kök salmış etnik və siyasi qarşıdurmalar, tarixdən qalan ziddiyyətlər, eləcə də millətçi ideologiyaların güclənməsi regional həmrəyliyin və birgə gələcəyin formalaşmasına mane oldu. Bununla yanaşı, Rusiya, İran, və Qərb dövlətlərinin regiondakı ziddiyyətli maraqları “Qafqaz evi”ni ideya səviyyəsindən reallığa çevirmək cəhdlərini zəiflətdi. Mərkəzsiz, koordinasiyasız və parçalanmış siyasi mövqelər nəticəsində bu təşəbbüs uzun müddət siyasi gündəmdən kənarda qaldı.

“Qafqaz evi” ideyasının reallaşmasına əngəl olan əsas səbəblərdən biri Cənubi Qafqaz regionunda, o cümlədən Gürcüstanda baş vermiş dərin etnik və siyasi münaqişələr idi. 1990-cı illərdə Gürcüstanda Abxaziya və Cənubi Osetiya ilə bağlı separatizm meyilləri silahlı toqquşmalara və ciddi humanitar böhranlara səbəb oldu. Həm Gürcüstanın daxili sabitliyi pozuldu, həm də ölkə bu münaqişələrə xarici müdaxilələrin hədəfinə çevrildi. Bu etnik münaqişələr Gürcüstanı regional əməkdaşlığa açıq və konstruktiv mövqe tutmaq imkanlarından məhrum etdi. Eyni zamanda, Abxaziya və Cənubi Osetiya məsələsində Rusiya ilə yaşanan qarşıdurma Gürcüstanın siyasi kursunda qərbyönümlü meyilləri gücləndirdi və bu da regionda ortaq maraqlar əsasında əməkdaşlıq imkanlarını daha da çətinləşdirdi. Beləliklə, həm Azərbaycanın Ermənistanla, həm də Gürcüstanın separatçı bölgələrlə qarşıdurmaları regionda etimadsızlıq mühiti yaratdı. “Qafqaz evi” kimi inteqrasiya ideyaları isə bu cür qarşılıqlı etimadsızlığın fonunda sadəcə nəzəri səviyyədə mövcud oldu, real siyasətə çevrilə bilmədi.

Cənubi Qafqazda “Qafqaz evi” ideyasının qarşısında duran əsas maneələrdən digəri isə Ermənistanın tutduğu siyasi kurs və daxili qeyri-sabitliklər olub. 1990-cı illərdən etibarən Ermənistan regionda inteqrasiya və əməkdaşlıq platformalarına deyil, əksinə, aqressiv və ekspansionist siyasətə üstünlük verdi. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və ətraf yeddi rayonun işğalı nəticəsində regional münasibətlər iflic vəziyyətinə düşdü, əməkdaşlıq imkanları minimuma endi.

Ermənistan daxilində isə siyasi sistem uzun illər qeyri-sabitlik, korrupsiya və klan maraqları ilə formalaşdı. Bu qeyri-sabitlik Ermənistanı proqressiv regional təşəbbüslərdən kənarda saxladı. Paralel olaraq, xaricdəki güclü erməni diasporu, xüsusilə də Fransa və ABŞ-da fəaliyyət göstərən lobbi qrupları Ermənistanın regional əməkdaşlıq formatlarına inteqrasiyasını əngəlləyən, bəzi hallarda isə açıq şəkildə sabotaj edən mövqe sərgilədi.

Diasporun təsiri nəticəsində Ermənistan tez-tez regional çağırışları beynəlxalq müstəviyə çıxarmağa və prosesləri geopolitik təzyiq alətlərinə çevirməyə çalışdı. Bu yanaşma isə “Qafqaz evi” kimi sülhə və qarşılıqlı etimada əsaslanan təşəbbüsləri zərərli siyasət mövqeyindən çıxış edən qüvvələrin təsiri altına saldı. Nəticə etibarilə, Ermənistan həm işğalçı siyasəti, həm daxili qeyri-sabitliyi, həm də diaspor maraqları ilə sinxronlaşmış revanşist ritorikası səbəbindən “Qafqaz evi” kimi inklüziv və gələcəyə yönəlmiş təşəbbüslərin sistemli şəkildə önünü kəsən əsas aktorlardan birinə çevrildi. Belə bir fon üzərində bu ideya, tarixdə ilk dəfə region ölkələrinin öz daxili təşəbbüsü ilə sabitlik, əməkdaşlıq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan birgə həyat modelini qurmaq üçün real imkan təklif edir.

Bu gün “Qafqaz evi” ideyası ilk baxışdan utopik səslənsə də, əslində region dövlətləri arasında qarşılıqlı hörmətə, ərazi bütövlüyünə və suverenliyə əsaslanan bir əməkdaşlıq platforması olaraq formalaşdırıla bilər. Azərbaycan 2020-ci il II Qarabağ müharibəsində qazandığı Qələbədən sonra yalnız hərbi deyil, həm də diplomatik və iqtisadi sahələrdə təşəbbüskar bir aktora çevrilmişdir. Bakı artıq, bütövlükdə, Cənubi Qafqazın regional təhlükəsizliyi və inkişafı üçün yeni inteqrasiya mexanizmləri axtaran və təklif edən ölkə kimi çıxış edir. Gürcüstan və İran prezidentlərinin ard-arda Bakıya rəsmi səfərləri sadəcə diplomatik etiketin tələbi deyil – bu, Azərbaycanın regionda artan təsirinin, strateji çəki qazanmasının və əməkdaşlıq platformalarının formalaşdırılmasında aparıcı rolunun qəbul edildiyini göstərir.

Azərbaycanın son illərdə təşəbbüs göstərdiyi regional formatlar – “3+3” əməkdaşlıq platforması, Zəngəzur dəhlizi layihəsi, yaşıl enerji diplomatiyası və COP29-un Bakıda keçirilməsi – Bakının regionun gələcəyini formalaşdırmaqda nə dərəcədə mühüm rol oynadığını göstərir. Bu kontekstdə “Qafqaz evi” anlayışı real geosiyasi təmələ söykənən bir strateji baxış kimi ortaya çıxır. Bu model region ölkələrinin bir-birinin daxili işlərinə qarışmadan, ortaq maraqlar əsasında əməkdaşlıq edə biləcəyi yeni bir çərçivə kimi formalaşır.

İlk baxışdan Gürcüstan və İranın maraqları müxtəlif olsa da, onların Azərbaycana yaxınlaşmaları ortaq məxrəcə gəlmək imkanlarının artdığını göstərir. İran üçün “Qafqaz evi” konsepti regional sabitlik çərçivəsində nüfuzunu qorumaq və iqtisadi layihələrə daxil olmaq imkanı yaradır. Tehran, xüsusilə də Zəngəzur dəhlizi ətrafındakı proseslərdə iştirakçı olmaq istəyir və Cənubi Qafqazı geostrateji baxımdan Orta Asiyaya, Qafqaza və Avropaya açılan qapı kimi görür. Digər tərəfdən, İran Cənubi Qafqazda tarixən mövcud olmuş təsir imkanlarını dinc yolla genişləndirmək niyyətindədir. Tehranın regiona baxışı həm təhlükəsizlik, həm də iqtisadi maraqlar çərçivəsində formalaşır. Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi və konstruktiv regional əməkdaşlığa açıq mesajlar verməsi İranın regional sabitliyə marağının göstəricisidir.

Gürcüstan isə daha çox Qərblə yaxınlaşmağa çalışsa da, real geosiyasi konfiqurasiyada Azərbaycanın vasitəçiliyini və enerji əməkdaşlığını əvəzolunmaz hesab edir. Gürcüstan üçün Bakı ilə strateji tərəfdaşlıq həm regional təhlükəsizlik baxımından mühümdür, həm də enerji və nəqliyyat infrastrukturunun əsas təminatçısı olaraq çıxış edir. Gürcüstanın bəzi dövlətlərdən uzaq dayanmaq və eyni zamanda, regionda fəal diplomatik oyunçu olmaq arzusu onu Bakıya daha da yaxınlaşdırır. Bakı ilə əlaqələr onun üçün təkcə enerji təhlükəsizliyi deyil, həm də regional kommunikasiyanın əsas sütunlarından biri anlamına gəlir. Gürcüstanın Azərbaycanla TANAP, Bakı–Tbilisi–Qars, Cənub Qaz Dəhlizi kimi iri layihələrdə iştirakı bu strateji tərəfdaşlığın real nəticələrini ortaya qoyur.

Beləliklə, regiondakı yeni geosiyasi reallıqlar, artan iqtisadi qarşılıqlı asılılıq, kommunikasiya xətlərinin bərpası və diplomatik dinamizm fonunda “Qafqaz evi” ideyası bu dəfə daha real və həyata keçə biləcək bir layihə kimi siyasi gündəmə daxil olur. Azərbaycanın təşəbbüskarlığı və beynəlxalq arenadakı artan nüfuzu isə bu ideyanın reallaşması üçün əsas aparıcı qüvvəyə çevrilmişdir Bu səfərlərin fonunda Prezident İlham Əliyevin səsləndirdiyi inteqrasiya mesajları – region ölkələri arasında qarşılıqlı hörmətə, suverenlik və ərazi bütövlüyünə əsaslanan əməkdaşlıq modelinin formalaşdırılması çağırışları – “Qafqaz evi” ideyasının müasir geosiyasi interpretasiyası kimi çıxış edir. Bu model Ermənistan üçün də yeni bir siyasi və iqtisadi imkan pəncərəsi aça bilər – əgər o, revanşist mövqelərdən imtina və regional reallıqları qəbul edərsə.

Qeyd etmək lazımdır ki, bu ideyanın həyata keçməsi üçün təkcə liderlərin siyasi iradəsi deyil, həm də ictimai şüurun dəyişməsi və qarşılıqlı etimadın bərpası vacibdir. “Qafqaz evi” yalnız hökumətlər səviyyəsində qurulan diplomatik formatlarla deyil, həm də xalqlar səviyyəsində dialoq, mədəniyyətlərarası əlaqələr və ortaq layihələrlə möhkəmlənə bilər.

***Şəbnəm ZEYNALOVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

---

# Fransanın ikiüzlü siyasəti ədalətli sülhə mane olur

**(əvvəli 1-ci səhifədə)**

Halbuki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə hörmət edilməsi Fransa tərəfinin həm çoxtərəfli, həm də ikitərəfli beynəlxalq öhdəliyidir. Buna paralel olaraq, rəsmi Paris, eyni zamanda, Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyinə ikiüzlülüklə inandırmağa çalışırdı.



Bundan başqa, Rusiya sühməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində təbii sərvətlərin qeyri-qanuni talan edilərək Ermənistana, bu ölkədən isə Azərbaycan ərazisində qalmış erməni silahlı birləşmələrinə silah-sursatın daşınmasının və şəxsi heyətin rotasiyasının qarşını almaq məqsədilə Laçın sərhəd-buraxılış məntəqəsinin qurulması da Parisin xoşuna gəlmədi. Həmin vaxt Fransa baş verən prosesləri adekvat qiymətləndirməyə deyil, guya “Laçın dəhlizinin bağlanması”, “Qarabağ ermənilərinin blokadaya alınması”, “bölgədə humanitar böhranın yaranması” kimi sərsəm iddialarla Azərbaycana qarşı beynəlxalq səviyyədə kampaniya aparmağa üstünlük verdi. Ölkəmizin neqativ imicini formalaşdırmağa çalışdı.

Eyni zamanda, humanitar yardım adı altında 2 yük maşını Azərbaycan sərhədinə göndərildi, Parisin meri Ann İdalqo Ermənistan – Azərbaycan sərhədi yaxınlığına gəlib binoklla Azərbaycan ərazilərini seyr etdi və Parisə qayıtdı. Onun bu addımı şəkildə suverenliyimizə və qanunlarımıza qarşı açıq hörmətsizlik idi.

Azərbaycan Ordusu tərəfindən birgünlük antiterror əməliyyatı zamanı işğalçı ordunun qalıqları darmadağın edildikdən sonra Parisin riyakarlığı və təxribatları daha intensiv və sistemli xarakter almağa başladı. Fransa BMT Təhlükəsizlik Şurasında Azərbaycanın pislənməsi təşəbbüsü ilə çıxış etdi. Ermənilər Qarabağı könüllü tərk etdiyi halda, hay-küy salaraq onlara qarşı güc tətbiq olunduğunu iddia etdi. Əslində, Fransa Senatının qətnaməsində və Fransa rəsmilərinin mütəmadi açıqlamalarında iddia edildiyinin əksinə olaraq, hətta Avropa Şurasının İnsan hüquqları üzrə komissarının Ermənistana və Azərbaycana səfərindən sonra hazırladığı hesabatda da qeyd edildi ki, Azərbaycan hakimiyyəti tərəfindən heç bir güc tətbiq olunmadan, Azərbaycanın Qarabağ bölgəsini tərk etmək yerli ermənilərin öz könüllü qərarı olub.

Onu da qeyd edək ki, hazırda Paris İrəvanı silahlandırmaqda və ona anti-Azərbaycan xarakterli siyasi dəstək verməkdə davam edir. Bununla iki dövlət arasında münasibətlərinin normallaşdırılmasına zərbə vurur, Ermənistandakı revanşist qüvvələri yeni müharibəyə həvəsləndirir.

Aprelin 14-də isə Fransanın Avropa və xarici işlər naziri Jan-Noel Baro daha irəli gedərək bəzi anti-Azərbaycan iddiaları səsləndirdi. Avropa İttifaqı (Aİ) ölkələrinin xarici işlər nazirlərinin Lüksemburqda keçirilən iclası çərçivəsində çıxış edərkən bildirdi ki, Ermənistanla Azərbaycan arasında razılaşdırılmış sülh mətni imzalanmalı, Bakıda saxlanılan erməni məhbuslar azad edilməlidir: “Azərbaycana gəlincə, sərhəddə artan gərginlikdən son dərəcə narahatam. Ümid edirəm ki, yerdə dislokasiya olunmuş Avropa missiyası vəziyyəti effektiv şəkildə izləmək və bu gərginliyi cilovlamaq üçün gücləndirilə bilər”.

Nazir sərhəddə kəşfiyyat məlumatları toplamaqla məşğul olan missiyanı gücləndirmək niyyətlərini açıq-aydın səsləndirib. Görünür, son aylar Ermənistan –Azərbaycan şərti sərhədində ciddi münaqişəli halın baş verməməsi Fransa tərəfini narahat edib. Paris müxtəlif vasitələrə əl ataraq Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanması istiqamətində görülən işlərə maneçilik törətməyə çalışır. Bu, fransalı siyasətçilərin daim Ermənistanın yanında olduqlarını göstərir. Ona görə də rəsmi Paris təmsilçisindən yeni yalan, ikiüzlü, təxribat xarakterli açıqlamalar gəlir.

**Bununla bağlı Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə qeyd edib ki,** Fransanın Avropa və xarici işlər



naziri Jan-Noel Baronun və bu ölkənin Azərbaycandakı səfirinin də istinad etdiyi iddialarını qətiyyətlə rədd edir və pisləyirik: “Fransanın siyasətindəki ikili yanaşma – sülh niyyətini bəyan edərkən münaqişəyə sürükləyən davranışlar narahatlıq doğuran uyğunsuzluğu nümayiş etdirir. Belə ikiüzlü siyasət regionda davamlı sülh perspektivlərinə mane olur.

Fransanın Ermənistanı öldürücü silahlarla təmin etməsi, onun davamlı anti-Azərbaycan mövqeyi ilə yanaşı, sülh prosesinə xələl gətirir və bu, Jan-Noel Baronun regional gərginliklə bağlı açıq şəkildə narahatlığını ifadə etməsinin tamamilə ziddinədir”.

Onun sözlərinə görə, sülh müqaviləsi layihəsi üzərində işin yekunlaşdırılması mühüm hadisə olsa da Fransa tərəfi yaxşı başa düşür ki, sülh sazişinin imzalanması və davamlı sabitlik digər məsələlərlə yanaşı, əsas problemlərin, xüsusilə də Ermənistanın konstitusiyasındakı ərazi iddialarının aradan qaldırılmasını, habelə Minsk qrupunun və ATƏT-in digər əlaqəli strukturlarının rəsmi şəkildə ləğvini tələb edir: “Bəşəriyyətə qarşı cinayətlərdə təqsirləndirilən şəxslərin məhkəmə proseslərinə maneçilik törədilməsi ölkənin suverenliyinə müdaxilə olmaqla yanaşı, dəhşətli qəddarlıqlara görə məsuliyyətin müəyyən edilməsi prosesini sarsıdır”. Fransanın bu cür müdaxiləsi cinayətkarları qoruyur, cəzasızlığa xidmət edir”.

O da məlumdur ki, müharibə cinayətləri, etnik təmizləmə, hərbi təcavüz, işgəncə və digər ağır cinayətlərdə ittiham olunan və ya məhkum edilmiş erməni əsilli şəxslərin azadlığa buraxılması tələbinə gəldikdə isə bu cinayətləri araşdırmaq və mühakimə etmək Azərbaycanın haqqıdır. BMT-nin İnsan Hüquqları Şurasının Əsassız Həbslər üzrə İşçi Qrupunun 13 mart 2025-ci il tarixində dərc olunmuş rəyi də bunu bir daha təsdiqləyir və məhkəmə prosesinə qarşı aparılan qarayaxma kampaniyasının əsassız olduğunu sübut edir.

A.Hacızadə bildirib ki, Fransa neokolonializmi yerli əhalini və resurslarını istismar etməklə bərabər, həmişə fransız maraqlarını həmin dövlətlərin rifahından üstün tutub, habelə uzunmüddətli qeyri-sabitlik və etnik gərginlik yaradıb: “Heç kimə sirr deyil ki, Fransanın xarici siyasəti onun qondarma “sivilizasiya missiyası”nın mənəvi cəhətdən iflasa uğradığını nümayiş etdirir.

“Sülhə xidmət etməyən və regionda sabitliyə xələl gətirən addımlara son qoyulmalıdır”,– deyə mətbuat katibi vurğulayıb.

Sonda onu da qeyd edək ki, Fransa digər dövlətlərin daxili işlərinə qarışmaqdansa, ilk növbədə öz ölkəsində baş verənlərə qiymət verməlidir. Siyasi təqibləri və müxtəlif aksiyalarda etirazçıların öldürülməsi, Fransanın neokolonial siyasəti nəticəsində dənizaşırı ərazilərdə yerli əhaliyə qarşı işgəncələri, Fransa parlamentində rüşvətxorluq və korrupsiya hallarının yayılması kimi faktları araşdırmalıdır. Təkcə Azərbaycanla bağlı deyil, dənizaşırı ərazilərdə və Afrikada həyata keçirdiyi neokolonial siyasətindən də əl çəkməlidir. Unutmamalıdır ki, Cənubi Qafqazda sülhün kökləri nə Parisdədir, nə də Vaşinqtonda. Azərbaycandadır!

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Qlobal geosiyasətdə “türk ssenarisi”



I MƏQALƏ

## XXI əsrin ilk onilliklərində türk məsələsi

Hazırda dünya siyasətində türk faktoru haqqında çox danışılır. Dünyanın yeni geosiyasi düzəninin formalaşması kontekstində türk dövlətlərinin yeri və rolu ilə bağlı proqnozlar irəli sürülür. Burada ifratçılıq hallarına rast gəlinir. Türk dövlətlərinin inteqrasiya perspektivini şişirdən yanaşmalarla yanaşı, tam pessimist gələcəkdən bəhs edənlərə qədər geniş spektrli mövqelər özünü göstərir.

Tarix özündə alternativlər daşıyır, lakin bir ssenari üzrə reallaşır. Türk dövlətlərinin müasir qlobal geosiyasətdə yeri və rolu haqqında da müxtəlif fikirlərin irəli sürülməi tamamilə təbiidir. Çünk Türk dünyası keçən əsrin 90-cı illərinin əvvəllərindən bu günə qədər maraqlı “geosiyasi yol” qət etmişdr. Buna görə də, əslində, dünya miqyasında türk dövlətlərinin aktual mövzulardan birinə çevrilməsi müasir dövrün sifarişi təsirini bağışlayır. Onun bir neçə səbəbini vurğulamaq olar.

Birincisi, Azərbaycan və Mərkəzi Asiya türk dövlətləri müstəqilliklərini əldə edəndə, sovetlərdə bir yedə olmalarına rəğmən müstəqillik məkanında faktiki olaraq bir-birindən siyasi və geosiyasi aspektlərdə uzaq “məsafədə” idilər. Onlar bir-birinin siyasi nəbzini və geosiyasi mənsubluqlarını belə “duymaqda” çətinlik çəkirdilər. Türkiyə xaric, türk dövlətlərini MDB-dən başqa birləşdirən “məkan”ın geosiyasi obrazı mövcud deyildi. Türkiyə isə XX əsrin son onilliyində Azərbaycan və Mərkəzi Asiya dövlətlərinə daha çox Qərbin “geosiyasi gözü” ilə baxırdı.

Burada, əlbəttə, Türkiyə milli təfəkkürünün möhkəm təsiri olan siyasi dairələr istisnadır. Onlar Azərbaycanla səmimi yaxınlaşma uğrunda fəaliyyət göstərirdilər və onun bir neçə nümunəsi vardır. Lakin həmin cəhdlərin heç biri dayanıqlı və davamlı olmadı, hətta özündə ziddiyyətli məqamlar daşıdı. O dərəcədə ki, Türkiyədə həmin dövrdə müəyyən dairələr Azərbaycana qarşı qərəzli addımlar atmağa cəhd göstərdilər.

Lakin Heydər Əliyevin öncə Naxçıvandakı fəaliyyəti, sonra isə Azərbaycana rəhbərlik etməsi Türk dünyasında siyasi və geosiyasi vəziyyəti əsaslı dəyişməyə başladı. Ulu öndər öncə Türkiyə ilə münasibətləri həqiqi qardaşlıq və müttəfiqlik istiqamətinə yönəltdi. Bunun fonunda Mərkəzi Asiya türk dövlətləri ilə tədricən müsbət əlaqələr inkişaf etdirilməyə başladı. Türkmənistan isə uzun müddət Xəzər dənizindəki neft-qaz ehtiyatları ilə bağlı Azərbaycanla əməkaşlığa laqeyd yanaşmaqda idi. Bunun belə olması üçün Rusiya və İran ciddi fəaliyyət göstərdilər. Ancaq yenə də rəsmi Bakının təşəbbüsləri və səbri ilə Mərkəzi Asiya dövlətlərinin siyasi gündəminə “türk ab-havası” tədricən gəlməyə başladı.

2009-cu il Naxçıvan Bəyannaməsi bu istiqamətdə Türk dünyasında münasibətlərin real məzmun alması baxımından həlledici hadisə oldu. Onda dünya anladı ki, türk dövlətləri XXI əsrdə birləşə bilərlər. Sonra II Qarabağ müharibəsi, Şuşa Bəyannaməsi və nəhayət, Qarabağ Bəyannaməsi türk dövlətlərinin birliyinin mümkünlüyünün “vizit kartları” oldu.

Bununla son 300 idə ilk dəfə olaraq qlobal geosiyasətdə türk faktorunun yeri və rolunun müəyyənləşməsi məsələsinin vaxtının çatdığını açıq və ya gizli olaraq siyasi dairələr qəbul etdi. Məsələnin bu tərəfini düzgün təsəvvür etmək üçün son 150-200 ildə türk xalqları və dövlətlərinə olan münasibətin müəyyən aspektlərinə qısa nəzər salaq.

## XIX əsr və imperiyaların savaşı

Səfəvilər imperiyası çökdürüləndən sonra Osmanlının dağıdılmasına Qərb imperialist dairələri yeni həvəslə girişdilər. Paralel olaraq, Səfəvi ərazisini bölüşdürmək uğrunda amansız siyasi, hərbi və ideoloji toqquşmalar intensivləşdi. Burada daha çox Rusiya imperiyası XIX əsrin birinci yarısında ərazi məsələsində qazandı. Ruslar qacarlarla müharibələrdə Azərbaycanın şimal hissini işğal etdilər. Ancaq Qərb imperialist dairələri daha hiyləgər və uzaqgörən üsul seçdilər. Onlar türklərn yaşadıqları ərazilərdə antitürk ideoloji bazasını formalaşdırdılar. Onun ən qabarıq nümunəsi ermənilərdə terror və ultramillətçi radikal əhval-ruhiyyə yaradan “harda türk-müsəlman görsən, öldürmək haqqındır” kimi antibəşəri şüarının ermənilərin beyinlərinə yeridilməsi ilə bağlıdır. Əlbəttə, bu prosesdən ruslar kənarda deyildilər. Lakin XIX əsrin ikinci yarısına qədər aparıcılıq Qərb imperialist dairələrinin təbliğat maşınına məxsus idi.

İndiki geosiyasi mənzərə baxımından da maraqlısı bütün bu işlərin türk dövlətçiliyi ilə yanaşı, türk kimliyini də məhv etməklə əlaqəli olmasından ibarətdir. Məsələnin bu tərəfini nəzərə almasaq, hazırda qlobal geosiyasətdə Türk dünyasının hansı səbəblərə görə birləşmək və bir daha tarixdə yaşadıqları dəhşətlərin təkrar olunmaması üçün fəallıq göstərmək istədiklərini içdən duya bilmərik. İmperialist dairələrin 200 illik antitürk fəaliyyətləri türklərə “məcburi tarixi seçim” etməyi diktə etmişdir. Türk dövlətləri üçün inteqrasiya prosesində bu məqamın psixoloji rolunu kənara qoymaq olmaz.

Türklərə yaşadılan zülmlər onların həmişə dövlətçiliyə çox həssas olan şüurlarında izi indi də silinməyən siyasi, geosiyasi, psixoloji və mədəni “seçim zonası” formalaşdırmışdır. Məhz buna görə də türklər “bizim türk ailəsindən başqa kimsəmiz yoxdur” deyirlər. Qərb və Rusiyanın imperialist dairələri bir neçə əsr türk dövlətçiliyinə, kimliyinə və mədəniyyətinə antiinsani münasibət göstərməsəydilər, təbiətən bəşəri olan türklər başqa seçim edə bilərdilər. Lakin artıq tarixi gerçəklikdən kənara çıxmaq xəyal dünyasına qapılmaq demək olardı.

Beləliklə, artıq XIX əsrin son onilliyinə Qərb və Rusiya imperialist dairələri erməniləri ideoloji radikallaşdıraraq onlarda terrorçu şüurunu birbaşa antitürk aspektində formalaşdırdılar. XIX əsrin son beş ilində bir neçə erməni terror təşkilatı yaradıldı. Lakin bu təşkilatlar bir mərhələnin sonu idi. Ona qədər imperialsit dairələr həm türk torpaqlarını işğal edirdilər, həm də demoqrafik vəziyyəti kardinal dəyişirdilər.

Onlar amansızcasına türkləri İrəvvanda, Naxçıvanda, Zəngəzurda və digər yerlərdə öncədən “ideoloji zəhər” verdikləri ermənilərlə qətlə yetirdir, sonra isə boşalan məkanlara erməniləri yerləşdirirdilər. Ermənilər Qacar imperiyasından və Osmanlıdan köçürülürdü. Bununla bir neçə siyasi və ideoloji hədəfə istiqamətlənirdilər ki, onlar yekun halında geosiyasi məqsəd alırdı. Belə ki, ermənilərin türk (əsasən, Azərbaycan) torpaqlarına soyqırımı və qətliamlarla yerləşdirilməsi fonunda üç istiqamətdə ideoloji təbilğat aparılırdı.

Birincisi, türk dövlətçiliyi “mədəni, sivil” dünyaya düşməndir (həm də dini düşməndir) və o, məhv edilməlidir.

İkincisi, onları “qədim erməni xalqının “Böyük Ermənistan”ı əvəz etməlidir.

Üçüncüsü, buna ermənilərin nail olması üçün türklərin gəlmələr obrazı qondarılmalıdır və onun fonunda hayların demoqrafik üstünlüyü yaradılmalıdır. Bu proses həm də regionda ermənilərin lap qədimdən mədəniyyətlərinin mövcud olduğu “tarixi faktlarla” sübut edilməsi ilə müşayiət olunmalıdır.

Belə nəticə çıxarmaq olar ki, XIX əsr boyu Cənubi Qafqazda, Anadoluda və digər türk diyarlarında imperialistlərin apardıqları antiinsani fəaliyyətlərdə başlıca məqsəd regionun tarixən formalaşmış geosiyasi arxitekturasını dəyişməkdən ibarət olmuşdur. Bunun üçün vəhşi erməni qul psixologiyasından yararlanaraq geniş bir ərazidə böyük ziddiyyətlər yarada bilmişlər. Artıq XX əsrin ilk onilliyində bu prosesi xaricilərin ciddi dəstəyi ilə formalaşdırılmış erməni terror təşkilatları şəbəkəsi aparırdı.

## ...Nələrə nail olmuşlar?

Bizim üçün nə qədər ağrılı olsa da, Qərb və Rusiya imperialist dairələri uzun illər dövlətçiliyimizə, kimliyimizə və mədəniyyətimizə ciddi zərbələr vurmuşlar. Onlar bizi fiziki cəhətdən yox etməklə yanaşı, mənəvi-əxlaqi dəyərlərimizə, ailə həyatımıza, məişət vərdişlərimizə, psixoloji özəlliklərimizə, kollektiv səviyyəsində identikliyimizi müəyyən etməyimizə qənim kəsilmişlər.

Tarix boyu dövlətlər quran bir etnosun müstəqil yaşaya bilməsinə özündə şübhələr yaratmışlar. Onlar türkləri elə hüquqi və mədəni çərçivəyə salmağa çalışmışlar ki, biz yalnız yad dövlət və cəmiyyətin dominantlığı altında mövcud ola biləcəyimiz haqqında düşünək, onu qəbul edək.

Real siyasət və geosiyasət meydanında isə dövlətçilik və milli kimlik baxımından üç illüziya yaratdılar. Birincisi, türklər gəlmə, erməni yerlidir. İkincisi, Cənubi Qafqazda yalnız ermənilər sivil, mədəni, hüquqi dövlət və cəmiyyət yarada bilərlər. Üçüncü, azərbaycanlılar, ümumiyyətlə, dövlət qura bilməzlər, onlar yalnız ticarətlə məşğul olmağı və qanunları pozmağı bacarırlar.

İmperiyanın yaratdığı bu uydurma obrazın beynəlxalq aləmə proyeksiyası bizim üçün acınacaqlı idi. Dünya dəlilsiz-sübutsuz qəbul edirdi ki, Cənubi Qafqazda “əsl dövlət ermənilərdədir”, o məkanda “həm də azərbaycanlılar da vardır”. Buradan isə bir sıra dairələr Cənubi Qafqazın geosiyasi arxitekturasını əbədiləşdirərək, onun dəyişməz olduğu ilğımını yaratmaq kimi niyyətlərə düşmüşlər və indi də müəyyən kəsimdə bu ədalətsiz və əsassız təsəvvür davam edir. Guya, Vətən müharibəsinə qədər mövcud olan regional geosiyasi mənzərəni qətiyyən dəyişmək olmaz, o, əbədi qalmalıdır və s.

Azərbaycan xalqı keçən əsrin 90-cı illərinin ortalarından yad dairələrin bu niyyətlərini də puç elədi. Burada əsas rolu ulu öndər Heydər Əliyev oynadı.

İndi Türk dünyasının qlobal geosiyasətdə yeri və rolunun yenidən dizaynlaşması qarşısında sonuncu tezis ciddi əngəl olaraq qalır. Xüsusilə, Cənubi Qafqazda Azərbaycan faktorunu geosiyasi əhəmiyyəti baxımından bu, önəmli məqamdır. Tarix və nəzəriyyə nə deyir?

## Dəyişməz geosiyasət xülyası

Bu məsələ Cənubi Qafqazda Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəsindən sonra süni olaraq aktuallaşdırılmağa çalışılır. Əsasən rəsmi Tehran tez-tez “qırmızı xətt” çəkir, ondan bəhs edir və təhdid etməyə çalışır. İran rəhbərliyinin arqumenti də ciddi şübhələr doğurur – guya, minillər burada İran – Ermənistan əlaqələri olub və onları indi dəyişmək mümkün deyildir. Söhbətin hansı İran və hansı Ermənistandan getdiyini bundan danışanların “tarixi vicdanının” öhdəsinə buraxırıq. Lakin Səfəvilərin mövcud olduğu yüz illərdə bu regionda müstəqil erməni dövlətinin olduğunu göstərən xəritəyə rast gəlinmir. Bundan başqa, kimlərinsə əbədiləşdirmək istədiyi geosiyasi görüntü XIX əsrin əvvəllərindən başlayaraq Qacarların ruslara müharibəni uduzmaları əsasında formalaşmışdır. Bununla yanaşı, sovetlərə qədər bir mənzərə, sovetlər dönəmində isə başqa mənzərə mövcud idi. Çar Rusiyası dövründə indi İran adlandırılan ərazinin sərhədləri ilə XX əsrdə Sovetlərin meydana gəlməsi ilə formalaşan geosiyasi mənzərə çox fərqlidir. Məsələn, Sovetlər dönəmində İran – Ermənistan–SSR münasibətlərini kim formalaşdırırdı? Həmin dövrdə indi “əbədi geosiyasi arxitektura”-dan dəm vuran Tehran, bir zamanlar Səfəvilər ərazisinə aid olan torpaqların Kreml tərəfindən ermənilərə peşkəş edilməsinə niyə cınqırını çıxarmırdı? Axı bu, onun indi qışqırdığı “geosiyasi mənzərə qırmızı xəttimizdir” iddiasına tam zidd idi?

Və ya, çox uzağa getməyək, Qarabağda azərbaycanlıların mədəni, dini, tarixi abidələri məhv ediləndə, Tehranın indi “dəyişməz” saydığı əraziləri xristian ermənilər zəbt edəndə “əbədilik” pozulmurdu? Şübhə etmirik ki, müdrik İran xalqı bizim sualları qərəzli saymır!

İndi qlobal miqyasda geosiyasi mənzərə dəyişir, Cənubi Qafqazda bu, niyə əbədi qalmalıdır? Deməli, əslində, rəsmi Tehranın bu iddiası ciddi geosiyasi niyyətlərdən və planlardan xəbər verir. Ancaq necə ki, Səfəvilərdən sonra Cənubi Qafqazın geosiyasi arxitekturası iki dəfə yeniləşdi (Çar Rusiyası və SSRİ-i dönəmlərində), indi də yeniləşməyə məhkumdur. Ancaq bu dəfə, o, türk geosiyasi ssenarisi üzrə dəyişməkdədir. Əsas məsələ də bundan ibarətdir!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

**Süni intellekt XQ-yə yazır**

**Artıq XXI əsrin üçüncü onilliyi də yaralanıb. Bu dövrdə texnologiya sahəsində baş verən yeniliklər bəşəriyyətin düşüncə tərzini, əmək münasibətlərini, təhsil modelini və hətta mənəvi dünyagörüşünü köklü şəkildə dəyişməkdədir. Bu yeniləşmənin lokomotivi isə süni intellektdir.**

# Yeni dünyanın kodları

## *Süni intellekt: insan zəkasının sərhədində*

Süni intellekt – yəni insan zəkasının kompüterlər vasitəsilə təqlidi – artıq sadəcə elmi-fantastik romanların və filmlərin predmeti deyil. O, həyatımızın bütün sahələrinə daxil olub: səhiyyədən təhsilə, kənd təsərrüfatından hərbi sahəyə qədər. Bir çox ölkələr bu texnologiyanı milli strateji prioritetə çevirib, onun inkişafı və tətbiqi üçün milyardlarla vəsait ayırır.

Ənənəvi anlamda süni intellekt maşının müəyyən qərarlar verə bilmə qabiliyyətidir. Amma bugünkü reallıq bu anlayışı daha da genişləndirir: artıq süni intellekt düşünür, yaradır, hətta insanı emosional səviyyədə anlayır. Bu isə həm imkanlar, həm də təhlükələr deməkdir.

Məsələnin etik tərəfi də müzakirə predmetidir. Məsələn, süni intellektin hüquqi statusu necə müəyyən olunmalıdır? O, hansı hallarda cavabdeh hesab oluna bilər? Ya da, yaradıcı sənət sahəsində süni intellektin “müəllifliyi” tanınmalıdırmı? Bu suallar artıq dünyanın aparıcı məhkəmə və akademik dairələrini məşğul edir.

Təhlükəsizlik məsələləri də diqqətdən yayınmır. Süni intellektin nəzarətsiz inkişafı, xüsusilə də avtonom silah sistemləri və dezinformasiya kampaniyaları sahəsində, ciddi qlobal risklər doğura bilər. BMT, Aİ və digər beynəlxalq platformalar bu istiqamətdə hüquqi mexanizmlər üzərində işləyir.

Digər tərəfdən, süni intellektin insan həyatını asanlaşdıran cəhətləri də danılmazdır. Məsələn, həkimlərin diaqnoz qoymasına kömək edən sistemlər, kənd təsərrüfatında məhsuldarlığı artıran dronlar, fərdi öyrənmə sistemləri – bütün bunlar süni intellektin doğru istiqamətdə tətbiqinin nümunələridir.

Azərbaycanda da bu sahəyə maraq gündən-günə artır. Dövlət səviyyəsində



startap təşəbbüslərinə dəstək, “rəqəmsal transformasiya” istiqamətində strategiyalar, ali məktəblərdə bu sahə üzrə ixtisasların yaradılması – bütün bunlar süni intellektin gələcək inkişafı üçün zəmin yaradır.

Bütün bu tendensiyalar bir həqiqəti təsdiqləyir: süni intellekt artıq gələcək deyil, bu gündür. Onu inkar etmək yox, anlamaq, idarə etmək və faydaya çevirmək dövrüdür. Çünki süni intellektin inkişafı dayanmır – su kimi yolunu tapır, kod kimi həyatı yazır...

***Süni intellekt yazıya imza seçdi:***
***Oğuz ARİF***

---

# Hər ötən gün Ermənistanı kiçildir

## *Türkiyəli ekspert bunun səbəbini xarici təsirlərin artmasında görür*

**Antalya Diplomatiya Forumunda bu gün dünyanın üzləşdiyi qlobal problemlərin yalnız diplomatik yolla, danışıqlar vasitəsilə həll edilməsinə çağırışları eşitdık. Bu mesajların məhz Türkiyədən səslənməsinin simvolik mənası var. Çünki münaqişələrin baş verdiyi və onların həllinin axtarıldığı önəmli nöqtədə yerləşən Türkiyə müxtəlif dövlətlər arasında anlaşılmazlıqların çözülməsinin açarı rolunu oynayır. Ankara bütün dünyaya barış təklif edir. Antalya Diplomatiya Forumunun qayəsi məhz bundan ibarət idi.**

Beynəlxalq nüfuzu və statusu ildən-ilə artan, dünyanın 140 ölkəsindən 450-yə yaxın nümayəndənin qatıldığı budəfəki forumda daha çox Afrika, Yaxın Şərq və Balkanlardan olan nümayəndələrin eyni platformadan çıxış etmələri diqqəti çəkən məqam idi. Müzakirələrin daha çox “Qlobal Cənub” mövzusuna fokuslanması, bu zaman Qərbin tutduğu mövqe və yeritdiyi siyasətin tənqidə məruz qalması müşahidə edilirdi. Panel müzakirələrdəki çıxışlarda dünyada artan geosiyasi gərginlik, qlobal bərabərsizlik və texnoloji transformasiyaların yaratdığı qeyri-müəyyənliklər kimi amillərə işarə edildi, bu problemlərin birgə səylərlə həlinin vacibliyi qeyd olundu.

Birmənalı olaraq qeyd etməliyik ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın açılış nitqi foruma öz damğasını vurdu. Türkiyə lideri çıxışında qonşu ölkələrlə yaxşı əlaqələr quran Türkiyənin ətrafında “sülh və təhlükəsizlik kəməri” yaratmağa çalışdığını xüsusi vurğuladı.

50-dən çox panelin keçirildiyi forumda, həmçinin miqrasiya və deportasiya, insan alveri, terrorizm, iqlim dəyişikliyi və rəqəmsallaşma kimi bir çox məsələ müzakirə mövzusu oldu. Mövzuların qloballığına və dərinliyinə baxmayaraq, forum iştirakçıları bu platformadan əsasən ikitərəfli əlaqələrin qurulması üçün istifadə etdilər.

“Cənubi Qafqazda regional əməkdaşlıq: gərginliklər və imkanlar” adlı paneldə Azərbaycan, Ermənistan və Gürcüstanın xarici işlər nazirləri bir araya gəldilər. Panel, faktiki olaraq, Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında açıq diplomatik müzakirəyə və gərgin anlara səhnə oldu. Erməni nazir yenə köhnə “bayatını” oxudu: “Sülh sazişini imzalamaq üçün hər şey hazırdır, yalnız zaman və məkanı müəyyənləşdirmək qalıb”. Amma buna cavab olaraq Ceyhun Bayramov həmkarına xatırlatdı ki, Ermənistan konstitusiyasında bu gün də Azərbaycanın ərazi bütövlüyünə iddialar aradan qaldırılmayıb və bu, sülh niyyəti ilə daban-dabana zidd siyasi mövqedir: “Bu, fundamental ziddiyyətdir və əsas problemdir”.

**Türkiyənin Hacı Bayram Vəli Universitetinin dosenti, siyasi ekspert Levent Ersin Orallı Ermənistan və Azərbaycan XİN rəhbərlərinin gərgin keçən dialoqunu XQ üçün şərh edərkən bildirdi:**



– Əgər Ermənistan Azərbaycanın irəli sürdüyü ilkin şərtləri qəbul edərək masaya oturub sənədi imzalayacaqsa, bu, Ermənistan dövləti üçün üçün bir mövcudluq məsələsinə çevriləcək. İrəvan bunu anlamalı, Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməlidir. Bu isə sözdə deyil, ölkənin əsas qanununu dəyişdirməklə edilməlidir. Sabah Ermənistanda hakimiyyət dəyişə bilər, yeni hakimiyyət əldə olan qanunlara əsaslanacaq. Kim təminat verə bilər ki, yeni iqtidar 30 il əvvəlki işğalçılıq hərəkətlərini təkrarlamayacaq? Bu baxımdan Ceyhun Bayramovun Mirzoyana verdiyi sərt cavab Azərbaycanın qətiyyətli və dəyişməyən diplomatik duruşu deməkdir.

Bəli, bu gün sülh sazişinin imzalanmasının Azərbaycandan daha çox Ermənistana lazım olduğunu başa düşürük. Amma Azərbaycanın ortaya qoyduğu və əsaslandırdığı şərtlər mütləq nəzərə alınmalıdır. Ermənistan 30 ildir müstəqildir. Ötən müddətdə nə əldə edib? Hər ötən gün kiçilən bir Ermənistan görürük. Daşnaklar, revanşistlər xəyali Hayastan yuxuları görür, ortada isə lobbilərin, imperialist dövlətlərin oyuncağına çevrilmiş bir Ermənistan müşahidə edirik. Yəni faktiki olaraq, kənar qüvvələrin əsirinə çevrilmiş, İrəvan tərəfindən idarə oluna bilməyən bir Ermənistandan söhbət gedir. Bu dəyişməyincə sülh də olmayacaq.

***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# Separatçılar İrəvanda da dinc dayanmırlar

## *Aprelin 23-nə mitinq təyin edənlər kütləvi qarşıdurma yaratmaq niyyətindədir*

**Ötən əsrin sonlarında Qarabağda separatçı hərəkata başlayan, İrəvandan aldıqları hərtərəfli dəstək sayəsində azərbaycanlıları öz doğma yurd-yuvalarından qovub çıxaran, başlarına olmazın müsibətlər açan, 2023-cü ilin sentyabrında isə Azərbaycan dövlətinin irəli sürdüyü reinteqrasiya planını qəbul etməyərək, könüllü şəkildə Ermənistana köçən ermənilər orada da dinc dayanmırlar. Sonuncu dəfə martın 29-da İrəvanın mərkəzindəki "Azadlıq" meydanında "Dağlıq Qarabağdan olan məcburi köçkünlərin hüquqlarının müdafiəsi" adı altında mitinq keçirən bu narazı kütlə Nikol Paşinyan hökuməti qarşısında bir sıra tələblər irəli sürmüşdü. Tələb etmişdilər ki, hökumət onların yığılıb qalmış çox sayda sosial-məişət və digər problemlərini həll etsin. Aprelin 1-dən etibarən "köçkünlərə" ayrılan maliyyə yardımının kəsilməsi fonunda keçirilən mitinqdə irəli sürülən tələblər sırasında hökumətin onları Qarabağa qaytarması iddiası da var idi.**



Aydındır ki, bu tələblərin heç biri yerinə yetirilməyib. Belə olan təqdirdə separatçılar yenidən mitinq keçiriblər. Ermənistan mediasının "Dağlıq Qarabağdan olan bir qrup fəalın və ictimai xadimin etiraz aksiyası" kimi təqdim etdiyi başıpozuq dəstə əvvəlcə ölkənin xarici işlər nazirliyinin binası qarşısına toplaşıb. Qeyd ediblər ki, aksiyanın məqsədi Ermənistan hakimiyyətinin siyasəti ilə razılaşmadıqlarını bildirməkdir. Mitinq iştirakçıları əmin olduqlarını diqqətə çatdırıblar ki, Ermənistan rəhbərliyinin "Qarabağ səhifəsini" bağlamağa haqqı yoxdur. Onlar martın 29-da keçirilən mitinqdə irəli sürdükləri tələbləri, o cümlədən sosial problemlərinin həlli, Bakıda məhkəməsi keçirilənlərin qaytarılması, Qarabağ ermənilərinin hüquq və mənafelərinin beynəlxalq qurumlarda müdafiəsini xatırladıblar.

"Artsaxı dirçəltmək" hərəkatının koordinatoru Anastas İsraelyanın jurnalistlərə verdiyi məlumata görə, onların qaldırdıqları məsələlər təkcə "Qarabağ xalqı"nı (?) deyil, bütün erməni xalqını narahat edir: "Əgər hakimiyyət orqanlarının suallara cavabı yoxdursa, bu o demək deyil ki, ümumiyyətlə cavab yoxdur, sadəcə olaraq, onları tapa bilməyiblər. Biz cəmiyyət, xalq olaraq problemlərimizin həllini tələb etməliyik". A.İsraelyanın fikrincə, hazırkı vəziyyət hakimiyyət orqanlarının səhv və nöqsanlarının nəticəsidir.

Öz növbəsində, Qarabağdan olan "fəal" Nare Simonyan etiraz aksiyası zamanı bəyan edib ki, 2021-ci ildə Ermənistan hakimiyyəti əhalinin gözünə kül üfürmək və guya, Qarabağın gələcəyindən narahat olduğunu göstərmək üçün özünün seçki proqramına bir sıra vədlər daxil etmişdi. Lakin seçkilərdə qələbə çaldıqdan sonra hakim qüvvə verdiyi vədləri yerinə yetirməyib.

Qeyd edək ki, 2020-ci ildə İkinci Qarabağ müharibəsindəki sarsıdıcı məğlubiyyətə və təslimolma aktını imzalamasına baxmayaraq, Paşinyan iqtidarı ilk dövrlərdə revanş arzusunda idi. Onun bu arzusu 2021-ci il iyunun 20-də keçirilən növbədənkənar parlament seçkilərinə dair proqramında da öz əksini tapmışdı. Söhbət hakim "Mülki müqavilə" partiyasının "Şuşa və Hadrutun geri qaytarılacağı və Dağlıq Qarabağın ərazi bütövlüyünün bərpası"na dair verilən vəddən gedir. Hətta Paşinyan komandası həyasızlıq edərək proqramda "Şuşa və Hadrutun işğaldan azad ediləcəyi" sözünü yazdırmışdı. İndi keçirilən aksiyada çıxış edən Nare Simonyan da buna işarə edir və bildirir ki, hakimiyyət nəinki Şuşa və Hadrutu qaytara (?) bilmədi, əksinə "Artsax"ın digər ərazilərini də "təslim etdi".

Aksiya iştirakçıları nümayişkaranə şəkildə "Mülki müqavilə"nin seçkiqabağı proqramını yandırıblar. Daha sonra etiraz aksiyası Ermənistan baş prokurorluğunun binası qarşısında davam etdirilib.

"Hraparak" qəzeti isə yazır ki, separatçıların növbəti mitinqi aprelin 23-nə təyin edilib. Qeyd edilib ki, aprelin 15-i onlar üçün məsləhətləşmələrin sonuncu günü idi: "Xatırladaq ki, baş nazirin müavini Tiqran Xaçatryanla görüşdən sonra Ermənistan nazirlər kabinetinin "Qarabağ xalqı"nın tələblərini yerinə yetirmək niyyətində olmadığı məlum olanda, "Artsax xalqının hüquqlarını müdafiə şurası" ictimai və siyasi dairələrlə məsləhətləşmələrə başladığını və bundan sonra öz fəaliyyətlərinin yol xəritəsini dərc edəcəyini açıqlamışdı. Şuranın aprelin 15-də böyük mitinq elan edəcəyi ilə bağlı xəbərlər var. İlkin müzakirələrə görə, mitinqin aprelin 23-də, "erməni soyqırımını anım günü" ərəfəsində keçirilməsi planlaşdırılır. Üstəlik, 7 il əvvəl məhz bu gün Serj Sarkisyan istefa verib, Nikol Paşinyana hakimiyyətə yol açıb və bu, gələcək sarsıdıcı itkilərin başlanması üçün simvolik gün sayıla bilər. Ənənəvi məşəl yürüşü də aprelin 23-də keçirilir. Buna görə də təşkilatçılar düşünürlər ki, aprelin 23-ü güclü etiraz dalğasının baş qaldıra biləcəyi gündür".

Ancaq hakimiyyət Qarabağdan gələnlərin ittihamlarını qəbul etmir. Ölkənin mərkəzi bankının sədr müavini Armen Nurbekyan bildirib ki, Ermənistan hakimiyyəti Qarabağdan olan və Ermənistanda qeydiyyatı olmayan təsərrüfat subyektlərini əvvəllər yığılmış borclarını ödəməyə məcbur edəcək. Aprelin 14-də parlamentin dövlət və hüquq məsələləri daimi komitəsinin iclasında müzakirələr zamanı çıxış edən Nurbekyan deyib ki, Qarabağdan olan və Ermənistanda qeydiyyatdan keçməyən fərdi sahibkarlar və ya hüquqi şəxslər tərəfindən kredit öhdəliklərinin yerinə yetirilməməsi halında hökumətə və maliyyə təşkilatlarına girovla bağlı hüquqların həyata keçirməyə imkan verəcək mexanizmin tətbiqinə ehtiyac var. Qarabağdan olan sahibkarlara 2024-cü il dekabrın 1-dək vaxt verilib. Onlar da bizneslərini qeydiyyatdan keçirməli idilər. Hökumətin müəyyən etdiyi müddət başa çatıb: "Ermənistanda qeydiyyatdan keçməmiş, lakin hələ də aktiv kredit öhdəlikləri olan şirkətlər var. Ümumilikdə, söhbət Qarabağdan iri şirkətlərin 30-40 kreditindən və 27 milyard dramdan gedir".

İqtidar partiyasının deputatı Lilit Minasyan isə müzakirələr zamanı "Qarabağdan məcburi köçkünlər" üçün nəzərdə tutulan dəstək proqramlarının məhdudlaşdırılması mövzusuna toxunmaq qərarına gəlib. Onun sözlərinə görə, "məcburi köçkünlərə" verilən maliyyə yardımının ən böyük hissəsini ictimai məkanda yayılan bəyanat və fikirlərə zidd olaraq Ermənistan hökuməti ayırıb: "Eyni zamanda, vəsaitlərin əhəmiyyətli hissəsinin üçüncü dövlətlər və təşkilatlar tərəfindən ayrıldığı barədə vaxtaşırı informasiyalar ictimai müzakirələrə çıxarılır. O cümlədən, Qarabağdan gəlmiş şəxslərə sosial dəstək və sahiyyə proqramları çərçivəsində maliyyə yardımı 115 milyard dram təşkil edib. Lakin Ermənistan hökuməti, hər şeydən əlavə, "dqr" hökumətinin borclarını da öz üzərinə götürüb. Söhbət 220 milyard dramdan gedir".

**Ekspert rəyi**



**Ramiyə MƏMMƏDOVA, politoloq**

– Qarabağ erməniləri İrəvanda silsilə etiraz aksiyaları keçirsələr də bunların nəticəsi yoxdur. Onların Ermənistanda mövcud olan sosial problemləri həllini tapmır, kütləvi şəkildə işsizliklə üzləşiblər.

Bu gün onların problemlərinin həllini Ermənistan dövlətindən tələb etmələri normaldır. Çünki Azərbaycan torpaqlarının işğal altında olduğu dövrdə onları yalançı ideyalarla yaşadan, yeni işğalçılığa şirnikləndirən Ermənistan dövləti olub. Separatçılar məhz İrəvandan aldıqları təlimata uyğun hərəkət edərək "Qarabağ hərəkatı"na başlayıblar. İlk dövrlərdə və Birinci Qarabağ müharibəsində uğur qazansalar da, sonrakı aqibətləri hər kəsə bəllidir.

Lakin indiki Ermənistan hökuməti isə ölkənin üzləşdiyi problemlərin səbəbkarı kimi Qarabağ ermənilərini və onların separatizm hərəkatını görür.

Qarabağ ermənilərinin 2023-cü ildə Azərbaycanın reinteqrasiya planını qəbul edib bölgədə yaşamaları onlar üçün daha yaxşı olardı. Onlar rasional davransaydılar, indiki vəziyyətə düşməzdilər. Azərbaycan çoxmillətli dövlətdir. Burada müxtəlif xalqlar sülh və əmin-amanlıq içində yaşayırlar. Qarabağ erməniləri də onlardan biri ola bilərdi. Ancaq onlar bu fürsəti də əldən verərək İrəvanda mitinqlər keçirmək yolu ilə nəyəsə nail olmaq istəyirlər. Vaxtilə onlar Xankəndidə də belə etmişdilər. Bu da həmin toplumun xislətindən irəli gəlir.

Beləliklə, aydın olur ki, Qarabağ ermənilər ilə Ermənistan hakimiyyəti arasındakı ziddiyyətlər nəinki səngimir, əksinə daha da kəskinləşir. Separatçılar hakimiyyəti "Qarabağı Azərbaycana təslim etməkdə, Qarabağ səhifəsini bağlamaqda", bu məsələni beynəlxalq müstəviyə daşımamaqda, eləcə də sosial problemlərin həll olunmamasında ittiham edirlər. Rəsmi İrəvan isə ölkənin hazırda üzləşdiyi problemlərin kökündə 1980-ci illərin sonlarında Xankəndidə başlanan separatizm hərəkatının dayandığı qənaətindədir. Eyni zamanda, separatçıların bu gün də İrəvanda qarışıqlıq salmaq, qarşıdurma yaratmaq cəhdləri onlara münasibətin pisləşməsinə gətirib çıxaran amildir. Bu vəziyyətin aprelin 23-nə təyin edilmiş mitinqdən sonra daha da gərginləşəcəyi gözlənilәndir.

*Səxavət HƏMİD*
*XQ*

# Ankara–İrəvan normallaşması: Hər şey var, heç nə yoxdur





**Türkiyənin Ermənistanla münasibətlərin normallaşması üzrə xüsusi nümayəndəsi Sərdar Kılıç "CivilNet"ə müsahibəsində aprelin 11-də start götürmüş Antalya Diplomatik Forumu çərçivəsində Ermənistanın Türkiyə ilə münasibətlərinin normallaşması üzrə xüsusi nümayəndəsi Ruben Rubinyanla keçirdiyi görüşün təfərrüatlarından söz açıb. Diplomatın dediklərinə görə, Ankara–İrəvan yaxınlaşmasının mövcud durumunu bu cür dəyərləndirmək olar: Hər şey var, heç nə yoxdur. Bunu bir qədər də xırdalayaq.**

"Hər şey var" məntiqi Ermənistanın və xaricdəki havadarlarının təbliğatlarından qaynaqlanır. Onlar elə rəy formalaşdırırlar ki, sanki Ermənistanın Azərbaycanla sülh sazişinin imzalanması an məsələsi olduğu kimi, ölkənin Türkiyə ilə sərhədlərinin açılması ilə bağlı durum da eynidir. Əslində, cənab Kılıç da fikirləri ilə həmin məntiqin ətrafında, bir növ, gəzişdi. Hərçənd, təcrübəli diplomatın normallaşma məsələsində "heç nə yoxdur" məntiqini təsdiqləyən düşüncələri daha qatıdır. Məsələn, türkiyəli xüsusi nümayəndə bildirir ki, ölkəsinin Ermənistanla sərhədlərinin açılması hələlik yalnız pilot layihədir. Bu, nə deməkdir? Fikrimizcə, cənab Kılıçın zəka arsenalında erməni tərəfini ələ salmaq üçün başqa ifadələr də var. Ancaq diplomatın çox açıq şəkildə dilə gətirdiyi fikir diqqət çəkir.

Deməli, S.Kılıç R.Rubinyanla bildirir ki, hazırda Ankara–İrəvan təması nə danışıqlardır, nə də həll prosesi. Söhbət yalnız iki ölkə arasında etimadın möhkəmlənməsi tədbirlərindən gedir. S.Kılıçın sözlərindən gəlinən qənaət budur ki, şəxsən erməni həmkarı R.Rubinyan sınaqdan pis çıxmasa da, durum tam nikbinliyə əsas vermir. Ardınca isə türkiyəli xüsusi nümayəndə ümumi məsələlərdən söz açır – sərhədlərin açılması hər iki xalqa faydalıdır, bu yolda əlimizdən gələni edirik: tarixi Ani körpüsünün bərpası qərarına gəlmişik, işçi qruplarımız münasibətlərin qurulması prosesinin texniki tədqiqinə başlayıblar, nəhayət, sərhədləri 10 gün açıq qalması (Ermənistanın Suriyaya yardımı üçün) hələ heç nə demək deyil.

S.Kılıça ünvanlanmış suallardan biri Ermənistan–Türkiyə sərhədinin üçüncü dövlətlərin nümayəndələrinin üzünə nə vaxt açılacağı ilə əlaqədardır. Diplomatın cavabını diqqətə çatdırırıq: "Biz bu məsələ ilə bağlı – üçüncü ölkə vətəndaşları və diplomatik pasport sahibləri üçün qərarı hələ 2022-ci ildə vermişik. Hazırda texniki detallar üzərində işləyirik. Nə vaxt olacağını bilmirəm, amma çox çalışırıq. Ümid edirəm ki, prosesi ən qısa zamanda başa çatdıracağıq".

*R.ƏVƏZ*
*XQ*

# Fransa parlamentinin qətnaməsi pislənilib



**BMT-nin Nyu-Yorkdakı Baş qərargahında Bakı Təşəbbüs Qrupu tərəfindən "Dekolonizasiya: Sakit inqilab" adlı beynəlxalq konfrans keçirilib.**

Tədbir Afrikaəsilli xalqların Daimi Forumunun 4-cü sessiyası çərçivəsində təşkil olunub. Konfransda Fransa və Niderlandın müstəmləkəçiliyi altında olan Qvadelupa, Martinika, Kanaki (Yeni Kaledoniya), Sint-Maarten, Reunyon, Bonayre, Aruba, Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianasından siyasətçilər və fəallar, BMT-dəki bir sıra daimi nümayəndəliklərin təmsilçiləri, ECOSOC statuslu QHT nümayəndələri, beynəlxalq ekspertlər iştirak edirlər.

Konfransın iştirakçıları tədbirin sonunda yekun sənəd qəbul ediblər. Sənəddə kolonializmin dünya miqyasında bərpası mümkün olmayan dərin yaralar vurduğu qeyd olunub, Fransa və Niderland kimi dövlətlərin bu gün də Qvadelupa, Martinika, Fransız Qvianası, Reyunyon, Mayot, Boneyra, Sen Martin və digər əraziləri əsarət altında saxlamada davam etdikləri bildirilib. Müstəmləkəçilik cinayətlərinin bəşəriyyətə qarşı cinayət olduğu vurğulanaraq, müstəmləkə rejimlərinin törətdikləri cinayətlərə görə ləyaqətli təzminat ödəməli olduqları qeyd edilib. Əks təqdirdə onlara qarşı beynəlxalq sanksiyaların qəbul edilməsinə dair çağırış edilib.

Bundan əlavə, sənəddə Bakı Təşəbbüs Qrupu kimi QHT-lərə beynəlxalq hüquq çərçivəsində kolonializmin ifşa edilməsi istiqamətində apardıqları fəaliyyətə dəstək ifadə edilmiş, martın 28-də Fransanın Milli Assambleyasında (parlamentin aşağı palatası) Bakı Təşəbbüs Qrupuna qarşı qəbul edilmiş qətnaməsi qətiyyətlə pislənilib.

*XQ*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 105** **Bakı şəhəri, 9 aprel 2025-ci il**

**“Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 299 (Cild I); 2024, № 1, maddə 78, № 3, maddə 354, № 6 (II kitab), maddə 715, № 10, maddə 1167, № 11, maddə 1252) aşağıdakı məzmunda 4.36-cı bənd əlavə edilsin:

“4.36. “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədinə əsasən elektrik mühərrikli avtomobillər üçün elektrik enerji doldurucularının istehsalı məqsədilə idxal olunan hissə və ləvazimatların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə siyahısı” təsdiq edilsin (əlavə olunur).”.

**2.** Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir və 2027-ci il 1 yanvar tarixinədək qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 106** **Bakı şəhəri, 9 aprel 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 dekabr tarixli 409 nömrəli Qərarı ilə təsdiq edilmiş “Hava gəmisində silahın daşınması Qaydası”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2021-ci il 19 fevral tarixli 1290 nömrəli, “Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə” 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli və “Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında” 2025-ci il 10 mart tarixli 346 nömrəli fərmanlarına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 dekabr tarixli 409 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1683 (Cild I) ilə təsdiq edilmiş “Hava gəmisində silahın daşınması Qaydası”nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 107** **Bakı şəhəri, 11 aprel 2025-ci il**

**“Aviasiya personalına şəhadətnamələrin, vəsiqələrin və ya sertifikatların verilməsi və digər dövlətdə verilmiş analoji sənədlərin tanınması Qaydaları”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Aviasiya haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.15-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Aviasiya personalına şəhadətnamələrin, vəsiqələrin və ya sertifikatların verilməsi və digər dövlətdə verilmiş analoji sənədlərin tanınması Qaydaları” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 108** **Bakı şəhəri, 14 aprel 2025-ci il**

**“Hava gəmilərinin beynəlxalq uçuş əməliyyatlarının, məşq uçuşlarının və xüsusi xarakterli aviasiya fəaliyyəti ilə bağlı uçuşların həyata keçirilməsi Qaydaları”-nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Aviasiya haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.21-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Hava gəmilərinin beynəlxalq uçuş əməliyyatlarının, məşq uçuşlarının və xüsusi xarakterli aviasiya fəaliyyəti ilə bağlı uçuşların həyata keçirilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 109** **Bakı şəhəri, 14 aprel 2025-ci il**

**“Azərbaycan Respublikasının Torpaq Məcəlləsi ilə bağlı bəzi normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 mart tarixli 42 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 201 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikasının Torpaq Məcəlləsi ilə bağlı bəzi normativ hüquqi aktlar haqqında” 2000-ci il 15 mart tarixli 42 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3, maddə 231 (Cild I); 2024, № 6 (II kitab), maddə 724) ilə təsdiq edilmiş “Örüş, otlaq və biçənək sahələrinin istifadəyə və icarəyə verilməsi, habelə istifadə edilməsi Qaydaları”nın 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“2. Yay və qış otlaqlarının, örüş və biçənək sahələrinin məqsədli təyinatının dəyişdirilməsi Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 201 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları”na əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə həyata keçirilir.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# TÜRKPA üzvləri komitə sədrlərinin II iclası



**Aprelin 15-də Milli Məclisdə TÜRKPA-ya üzv dövlətlərin parlamentlərinin Müdafiə və təhlükəsizlik üzrə komitələri sədrlərinin ikinci iclası keçirilib. İclas “Türk dövlətləri arasında təhlükəsizlik və müdafiə üzrə əməkdaşlığın gücləndirilməsi: parlamentlərin rolu” mövzusuna həsr olunub.**

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev ölkə Prezidenti İlham Əliyevin “Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır” ifadəsinin önəmini qeyd edərək türk dövlətlərinin siyasi, iqtisadi, təhlükəsizlik baxımından təşkilatlanmasının vacibliyindən danışıb. Bildirilib ki, türk dövlətləri ilə bütün sahələrdə, o cümlədən parlament səviyyəsində əlaqələrin güclənməsi ölkəmizin prioritet məsələlərindəndir. Bu gün dünyada inkişafın, sülhün və təhlükəsizliyin təmin edilməsində türk dövlətləri birliyi əsas güc strukturlarından biridir. Komitə sədri TÜRKPA-nın mühüm platforma kimi strateji hədəflərin həyata keçirilməsində önəmli addımlar atdığını, üzv dövlətlərin parlamentləri arasında əməkdaşlığın genişlənməsinə mühüm töhfələr verdiyini söyləyib.

Türkiyə Böyük Millət Məclisinin Milli müdafiə komissiyasının sədri Hulusi Akar çıxış edərək ötən il TBMM-nin ev sahibliyi ilə keçirilmiş müdafiə komitələrinin birinci iclasını xatırladıb. Tədbirin türk dövlətləri arasında birliyin gücləndirilməsi baxımından önəmini qeyd edib. O, TÜRKPA-ya üzv dövlətlərin parlamentlərinin Müdafiə və təhlükəsizlik üzrə komitələrinin toplantılarının keçirilməsinin parlament diplomatiyası vasitəsilə regional əməkdaşlığın güclənməsində mühüm rol oynadığını vurğulayıb. Təşkilatın üzv dövlətlər arasında sıx əməkdaşlıq əlaqələrinin və inteqrasiyanın daha da gücləndirilməsi, bu ölkələrə aid aktual məsələlərin müzakirəsi üçün mühüm platforma rolunu oynadığını qeyd edib. Komitə sədri Azərbaycanın Qarabağ uğrunda haqlı mübarizəsində əldə etdiyi Zəfəri bütün Türk dünyası və dünya birliyi üçün nümunə olduğunu vurğulayıb.

Qazaxıstan Parlamenti Senatının Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin üzvü Amangeldi Nuqmanov ölkəsinin TÜRKPA-ya üzv dövlətlərlə dostluq münasibətlərinə malik olduğunu, əlaqələri ən yüksək formada inkişaf etdirmək və vahid türk ailəsinə daha da yaxın olmaq istiqamətində fəaliyyətini uğurla davam etdirdiyini söyləyib.

Qırğız Respublikası Joqorku Keneşinin Beynəlxalq məsələlər, müdafiə, təhlükəsizlik və miqrasiya komitəsinin sədr müavini Eldar Sulaymanov öz çıxışında bu gün qlobal təhlükəsizlik məsələlərinin diqqət mərkəzində olduğunu qeyd edib, bu məsələlərin həllində parlament diplomatiyasının rolu barədə söhbət açıb.

Özbəkistan Ali Məclisi Senatının Müdafiə və təhlükəsizlik komitəsinin sədri Kutbidin Burxanov dünyada gedən geosiyasi proseslər fonunda türk dövlətləri birliyinin möhkəmləndirilməsi və regional həmrəyliyin dərinləşdirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. TÜRKPA üzv dövlətləri arasında müdafiə və təhlükəsizlik sahəsində inteqrasiyanın gücləndirilməsi üçün strateji addımların atılmasına diqqət çəkib.

Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Hüquq, siyasi məsələlər, xarici işlər və müdafiə komitəsinin sədri Yasemi Öztürk bildirib ki, türk dövlətlərinin birliyi həm regional sabitliyə, həm də qlobal miqyasda ədalətli dünya nizamının formalaşmasına yönəlib. O, türk dövlətləri arasında bütün sahələrdə olduğu kimi, təhlükəsizlik məsələlərində də əməkdaşlığın gücləndirilməsinin vacibliyi barədə də fikirlərini səsləndirib.

Sonda TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er çıxış edərək tədbirin yüksək səviyyədə təşkil olunduğunu bildirib. O, türk dövlətləri arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın ortaq təhdidlərə cavab verilməsi, strateji məqsədlərimiz, regional sabitlik baxımından mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb. Mehmet Süreyya Er bütün istiqamətlərdə olduğu kimi, bu sahədə də parlament diplomatiyasının önəmli rolundan danışıb.

Digər çıxış edənlər türk dövlətləri arasında təhlükəsizlik və müdafiə üzrə əməkdaşlığın gücləndirilməsi və bu sahədə parlamentlərin rolu ilə bağlı fikirlərini bölüşüblər, qeyd və təkliflərini səsləndiriblər.

İclasda gündəliyin digər məsələlərinə də baxılıb, müvafiq qərarlar qəbul olunub.

***XQ***

# Gəncədə akademik Zərifə Əliyeva anıldı



**Gəncə Şəhər İcra Hakimiyyətinin və YAP Gəncə şəhər təşkilatının birgə təşkilatçılığı ilə görkəmli oftolmoloq alim, akademik Zərifə xanım Əliyevanın anım gününə həsr olunmuş “Nura qərq olan ömür” adlı dəyirmi masa keçirilib.**

YAP Gəncə şəhər təşkilatının inzibati binasında keçirilən tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, millət vəkili Pərvin Kərimzadə, Azərbaycan Texnologiya Universitetinin rektoru Yaşar Ömərov, Gəncə Tibb Kolleci PHŞ-nin direktoru, Əməkdar həkim Mehman Rzayev, bələdiyyə sədrləri, idarə, müəssisə, təşkilat rəhbərləri və ziyalılar iştirak ediblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra görkəmli oftolmoloq alimin mənalı həyat yolundan və zəngin elmi fəaliyyətindən bəhs edən film nümayiş olunub.

Niyazi Bayramov çıxışında Azərbaycan elminin və səhiyyəsinin inkişafında görkəmli alim, akademik Zərifə Əliyeva müstəsna xidmətlərindən danışıb. Çıxış edən natiqlər Zərifə Əliyevanın əsl Azərbaycan xanımı kimi mənəvi dəyərlərimizin layiqli daşıyıcısı, həmçinin sadiq və fədakar həyat yoldaşı, qayğıkeş ana kimi xarakterizə ediblər. Bildirilib ki, ümummilli lider Heydər Əliyevin mənəvi dayağı olan Zərifə xanım Əliyeva, eyni zamanda Vətən üçün layiqli övladlar bəxş edib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəxsiyyətində bu dəyərlərin yaşadığı və inkişaf etdiyi diqqətə çatdırılıb.

***Hamlet QASIMOV,***
***XQ-nin bögə müxbiri***

**Gəncə**

# XİN məlumat verir



**Aprelin 14-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Suriyanın keçid hökumətinin xarici işlər və xaricdə yaşayan suriyalılar naziri Əssad Həsən Əş-Şibani arasında telefon danışığı aparılıb.**

Söhhbət zamanı Azərbaycan–Suriya əlaqələri, regional təhlükəsizlik vəziyyəti müzakirə olunub. Nazirlər Suriyada Əsəd rejiminin dağılmasından sonra Azərbaycanla Suriya arasında geniş əməkdaşlıq perspektivlərinin mövcud olduğunu bildiriblər.

Söhbət zamanı uzun fasilədən sonra ölkəmizin Suriyada səfirliyinin işinin bərpasına göstərilən dəstəyə görə təşəkkür ifadə olunub. Suriyada sabitliyin möhkəmləndirilməsi istiqamətində səylərə toxunarkən ölkəmizin Suriyanın bərpa prosesində iştirak niyyətinin, habelə Suriyaya göstərilən humanitar yardımın əhəmiyyəti vurğulanıb. Bu çərçivədə, Azərbaycan–Türkiyə–Suriya əməkdaşlıq formatının inkişaf etdirilməsinin vacibliyi qeyd olunub.

*



**Dünən xarici işlər naziri Ceyhun Bayramov Çin Xalq Respublikasının ölkəmizdəki yeni təyin olunmuş səfiri Lu Mey ilə görüşüb.**

Səfir Lu Mey etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib.

Keçirilmiş görüşdə Azərbaycan–Çin strateji tərəfdaşlığının siyasi, iqtisadi, ticarət, nəqliyyat-kommunikasiyalar, humanitar aspektləri, habelə regional və beynəlxalq vəziyyət müzakirə olunub.

Ötən ilin “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə”nin qəbulu ilə əlamətdar olduğu, sözügedən Bəyannamədən irəli gələrək strateji tərəfdaşlığımızın daha da möhkəmləndirilməsi istiqamətində səylərin əhəmiyyəti diqqətə çatdırılıb. Bu xüsusda yüksəksəviyyəli səfərlər və məsləhətləşmə mexanizmlərinin əhəmiyyəti vurğulanıb.

İqtisadiyyat, ticarət, investisiya sahələri üzrə əməkdaşlığın genişləndirilməsi üçün geniş potensialın mövcudluğu qeyd edilib. Regional və beynəlxalq təşkilatlar, o cümlədən BMT, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Ötən il ölkəmizin ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycan-Çin əməkdaşlığının təqdirəlayiq olduğu vurğulanıb.

Səfir Lu Mey ölkəmizdəki fəaliyyəti müddətində strateji tərəfdaşlıq münasibətlərimizin inkişafında səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb.

***XQ***

# Azərbaycanın enerji siyasəti ölkənin iqtisadi qüdrətini yüksəldir

(əvvəli 1-ci səhifədə)

2025-ci ilin birinci rübü ərzində, operativ məlumatlara əsasən, ölkəmizdə 6,9 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Hasilatın 4 milyon tonu "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun, 1 milyon tonu (kondensat) "Şahdəniz" və 0,14 milyon tonu (kondensat) "Abşeron" yataqlarının payına düşüb. Hesabat dövründə Azərbaycan Dövlət Neft Şirkəti üzrə neft (kondensatla birlikdə) hasilatı isə 1,8 milyon ton təşkil edib. 2024-cü il üzrə qazma, hasilat, emal və ixrac göstəricilərinə dair hesabata əsasən, qurumun müstəqil şəkildə və ya əsas payçı qismində istismar etdiyi yataqlarda il ərzində 7 milyon 485 min 590 ton neft çıxarılıb. Ümumilikdə, isə, ötən il Azərbaycanda 29 milyon 46 min 321 ton neft hasil olunub.

Bu ilin mart ayında ölkə üzrə gündəlik neft (kondensatla birlikdə) hasilatı 76,9 min ton (580 min barel) olub. Bunun da 62,6 min tonunu (462 min barel) xam neft, 14,3 min tonunu (118 min barel) kondensat təşkil edib. Bu isə Azərbaycanın "OPEC plyus" razılaşması çərçivəsində götürdüyü öhdəliyin 83,8 faizinə bərabərdir. Məlum olduğu kimi, "OPEC plus" ölkələri nazirlərinin 37-ci iclasında əldə edilmiş razılaşmaya görə, 2025-ci il üçün Azərbaycanın hasilat kvotası gündəlik 551 min barel (74 min 259 ton) müəyyən olunub.

Ölkə üzrə neftin nəqli bu ilin ötən dövründə də ahəngdar rejimdə davam etdirilib. Dövlət Statistika Komitəsindən məlumatına görə, bu ilin birinci rübündə ölkənin magistral neft kəmərləri ilə 9 milyon 28,8 min ton neft nəql edilib. Bu göstərici əvvəlki ilin eyni dövrünə nisbətən 636 min ton və ya 6,6 faiz azdır. Yanvar–mart aylarında 5,7 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql olunub. Bunun 4,9 milyon tonu konsorsiumların, 0,7 milyon tonu SOCAR-ın, 0,14 milyon tonu isə "Abşeron" yatağının payına düşüb. Hesabat dövründə nəqletmənin 6 milyon 880,8 min tonu və ya 76,2 faizi Bakı – Tbilisi – Ceyhan neft ixrac kəməri ilə həyata keçirilib. BTC kəməri ilə nəql edilmiş neftin 5 milyon 727,4 min tonunu və ya 83,2 faizini Azərbaycanda hasil edilən neft, 1 milyon 153,4 min tonunu və ya 16,8 faizini isə Türkmənistan və Qazaxıstandan daxil olan neft həcmləri təşkil edib.

Ötən il isə xarici bazarlara ixrac edilən neftin həcmi 16,6 milyon ton təşkil edib.



Qeyd edək ki, bura şirkətin öz imkanları ilə çıxardığı neft həcmləri ilə birlikdə ölkəmizdə fəaliyyət göstərən beynəlxalq konsorsiumlar tərəfindən hasil olunan neftin Azərbaycan dövlətinə və SOCAR-a məxsus mənfəət payları da daxildir.

Energetika Nazirliyinin məlumatına əsasən, 2025-ci ilin yanvar-mart aylarında Azərbaycanda 12,6 milyard kubmetr təbii qaz hasil edilib. Qazın 3,4 milyard kubmetri "Azəri-Çıraq-Günəşli"nin, 6,8 milyard kubmetri "Şahdəniz"in, 0,4 milyard kubmetri "Abşeron" yatağının, 2 milyard kubmetri isə SOCAR-ın payına düşüb. Yeri gəlmişkən, SOCAR-ın 2024-cü il üzrə qazma, hasilat, emal və ixrac göstəricilərinə dair açıqladığı hesabatda bildirilir ki, ötən il ölkəmizdə qaz hasilatı 2023-cü ilin müvafiq göstəricisi ilə müqayisədə 4,4 faiz artaraq 50,4 milyard kubmetr təşkil edib.

Hesabat dövründə xaricə qaz satışı 6 milyard kubmetr təşkil edib. Bunun 3 milyard kubmetr Avropaya, 2,3 milyard kubmetr Türkiyəyə (o cümlədən TANAP-la 1,4 milyard kubmetr), 0,7 milyard kubmetr isə Gürcüstana satılıb. Məlumata görə, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 0,4 milyard kubmetr və ya 6,25 faiz azdır. Belə ki, 2024-cü ilin yanvar-mart aylarında Azərbaycandan xaricə 6,4 milyard kubmetr həcmində qaz satışı həyata keçirilib.

Xatırladaq ki, Azərbaycan qazının Avropa tədarükünə Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə 2020-ci ilin sonunda başlayıb. Hazırda kəmərin ötürücülük qabiliyyəti ildə 12 milyard kubmetr təşkil edir və 2027-ci ilin sonunadək 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulub. Ümumi uzunluğu 878 kilometr təşkil edən boru kəmərinin 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 kilometri Albaniya ərazisindən, 105 kilometri Adriatik dənizinin dibi ilə, 8 kilometr isə İtaliya ərazisindən keçir. Bolqarıstana "mavi yanacağ"ın nəqli TAP-a birləşdirilən Yunanıstan – Bolqarıstan interkonnektoru (birləşdirici kəmər) vasitəsilə həyata keçirilir.

"Bulgargaz EAD" dövlət şirkəti "Şahdəniz-2" yatağından 1 milyard kubmetr qazın tədarükü üçün "Şahdəniz" konsorsiumu ilə müqavilə imzalayıb. Ümumi uzunluğu 182 kilometr olan boru kəmərinin 150 kilometrlik hissəsi Bolqarıstan ərazisindən keçir. Kəmərin illik ötürücülük qabiliyyətinin 3-5 milyard kubmetr olacağı gözlənilir. Yeri gəlmişkən, Azərbaycanın energetika naziri Pərviz Şahbazov "X" sosial şəbəkəsindəki hesabında bildirib ki, Azərbaycanın qaz təchizatının Avropadakı coğrafiyası birmənalı olaraq genişlənəcək.

Azərbaycanın "mavi yanacağ"ı Gürcüstana Cənubi Qafqaz boru kəməri ilə nəql olunur. Energetika Nazirliyinin məlumatına görə, bu ilin birinci rübündə qonşu ölkəyə 0,7 milyard kubmetr qaz ixrac olunub. Bu isə ötən ilin müvafiq dövrünə nisbətən 0,2 milyard kubmetr və ya 22,2 faiz azdır. Xatırladaq ki, 2024-cü ilin yanvar-mart aylarında Gürcüstan Azərbaycandan 0,9 milyard kubmetr qaz alıb.

Bu ilin yanvar-mart aylarında Azərbaycandan Türkiyəyə qaz satışı isə 2,3 milyard kubmetr təşkil edib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə dəyişməz qalıb. Bununla belə, hesabat dövrü ərzində TANAP-la Türkiyəyə qaz ixracında artım qeydə alınıb. Belə ki, cari ilin yanvar-mart aylarında Azərbaycandan qardaş ölkəyə bu kəmərlə qaz ixracı 7,7 faiz artaraq 1,4 kubmetrə çatıb.

Bir məqamı da qeyd edək ki, 1997-ci ilin noyabr ayında "Çıraq" yatağından ilkin neftin hasilatına başlanıldığı vaxtdan bu il aprelin 1-dək "Əsrin müqaviləsi" çərçivəsində 605,6 milyon ton neft və 233,2 milyard kubmetr səmt qazı hasil olunub. "Şahdəniz" yatağından hasilata başlanıldığı 2006-cı ilin sonlarından isə indiyədək 243,6 milyard kubmetr qaz və 49,6 milyon ton kondensat çıxarılıb. Ötən müddətdə Azərbaycanın yeni neft strategiyası çərçivəsində hasil edilmiş neftin və təbii qazın müvafiq olaraq 653,2 milyon tonu və 174,8 milyard kubmetri alternativ kəmərlər vasitəsilə ixraca nəql olunub.

Ölkənin emal müəssisələrinin ahəngdar işi də əvvəlki dövrlərdə olduğu kimi, bu ilin ilk rübündə də uğurla davam edib. Yanvar-mart aylarında ölkə üzrə neftin emalı 1,4 milyon ton təşkil edib. 2024-cü ildə isə SOCAR tərəfindən 5 milyon 809 min 329 ton neft və 3 milyard 377 milyon 532 min kubmetrdən çox qaz emal edilib. İl ərzində SOCAR-ın Azərbaycandakı müəssisələrində istehsal olunan 2 milyon 309 min 642 ton neft, neft-kimya və qaz-kimya məhsulları xarici bazarlara ixrac edilib. İxrac olunan neft, neft-kimya və qaz-kimya məhsullarının həcmində 2,8 faizlik artım qeydə alınıb.

# Qeyri-neft sektorundan daxilolmalar çoxalıb



**Dövlət Vergi Xidmətindən (DVX) aldığımız məlumata əsasən, dövriyyələrin şəffaflaşdırılması istiqamətində görülən tədbirlər, gəlirlərin bəyanetmə səviyyəsinin yüksəlməsi, könüllü bəyanetmənin əhəmiyyətli dərəcədə qalxması, eləcə də vergi inzibatçılığında islahatlar, iqtisadiyyatın ayrı-ayrı sektorlarında nəzərə çarpan artım templəri həm tədiyə növləri üzrə, həm də qeyri-neft sektorunda vergi daxilolmalarının artımına əlverişli şərait yaradır.**

Qeyd edək ki, 2025-ci ilin yanvar-mart aylarında DVX xəttilə dövlət büdcəsinə 4 milyard 381 milyon manata yaxın vergi daxil olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə vergi daxilolmaları 98,9 milyon manat və ya 2,3 faiz çoxalıb.

DVX-dən verilən məlumata görə, hesabat dövründə qeyri-neft-qaz sektorundan daxilolmalar 3 milyard 226 milyon manatı keçib. 2024-cü ilin müvafiq dövrünə nisbətən bu sektordan vergi daxilolmaları 312 milyon manat və ya 10,7 faiz çox təşkil edib. Ödənilən vergilərin 73,7 faizi qeyri-neft-qaz sektorunun, 26,3 faizi isə neft-qaz sektorunun payına düşüb.

İqtisadiyyatda şəffaflaşma proseslərinin davamlı olmasını təsdiqləyən göstəricilərdən biri də ƏDV-yə cəlb olunan dövriyyələrdə, qeyri-neft sektorunun dövriyyələrində artım templərinin, habelə elektron qaimə-fakturalarla rəsmiləşən dövriyyələrin artım dinamikasının sürətlənməsi və bunun ümumi dövriyyədə xüsusi çəkisinin yüksəlməsidir.

Son illər ərzində reallaşdırılan islahatların nəticəsi kimi qeydə alınan davamlı artım iqtisadiyyatımızın dayanıqlığına, mürəkkəb iqtisadi şəraitdə dinamik göstəricilərin sabitliyinə və kənar təsirlərə qarşı davamlılığına imkan verir. İqtisadi artım şəffaf biznes fəaliyyətinin təmin olunduğu şəraitdə formalaşır. Belə bir tendensiyanın davamlığı büdcə daxilolmalarının mütəmadi artması deməkdir. Bu isə cəmiyyətin rifahının, yüksək səviyyəli sosial xidmətlərin və firavan gələcəyin təminatıdır.

Vergi sisteminin indiki inkişaf dinamikasına heç də asanlıqla nail olunmayıb. Belə ki, təqribən, ötən 30 illik bir müddətdə vergi siyasəti iqtisadiyyatın indiki tələblərinə uyğun olaraq daim təkmilləşdirilib, sahibkarlığın inkişafı və biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə qanunvericilikdə bir sıra əsaslı dəyişikliklər edilib. Bütün bunlarla bərabər, "kölgə iqtisadiyyatı"na qarşı mübarizə metodları təkmilləşdirilib, şəffaflaşma prosesləri genişləndirilib, dövlət-biznes münasibətlərində yeni bir transformasiyanın əsası qoyulub.

**Azərbaycan və Türkiyə prezidentlərinin təməlini qoyduqları 123,6 kilometrlik Horadiz – Ağbənd avtomobil yolu (Zəngəzur dəhlizi) strateji önəm daşıyan və regionda nəqliyyat – kommunikasiya əlaqələrinin qurulmasına töhfə verən bir layihədir.**

# Horadiz – Ağbənd avtomobil yolunun çəkilişi tamamlanır



Avtomobil Yolları Dövlət Agentliyinin məlumatında bildirilir ki, Zəngəzur dəhlizi layihəsinin texniki göstəriciləri yolun yüksək keyfiyyətlə və müasir standartlara uyğun inşasını gerçəkləşdirir. Magistralın ümumi uzunluğu 149,9 kilometrdir. Əsas yolun uzunluğu isə 123,6 kilometrə çatır. Yolun texniki dərəcəsi 1B-dir, bu isə yüksək sürət və təhlükəsiz hərəkətə imkan yaradır. Yolun eni 14-21 metr arasında dəyişir, torpaq yatağının eni 21,5-29,5 metrdir.

Zəngəzur dəhlizinin tikintisindəki mühüm layihə komponentlərindən biri olan tunellərin tikintisinin böyük hissəsi tamamlanıb. Belə ki, şərti adları T1, T2 və T3 olan tunellərin hər birində qazma, püskürtmə beton işləri artıq yekunlaşıb.

Layihə üzrə, ümumilikdə, 28 körpü tikilir, bunlardan 16-sı su ötürücü, 12-si isə yol ötürücüdür. 19 körpünün tikintisi artıq yekunlaşıb, 8 körpüdə tikinti işləri davam edir. Horadiz – Ağbənd avtomobil yolunun inşası Azərbaycanın infrastruktur sahəsində atdığı mühüm addımlardan biridir.

Horadiz – Ağbənd avtomobil yolu Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla Azərbaycanın digər rayonlarını Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından mühüm önəm daşıyır.

Zəngəzur dəhlizinin tikintisi yalnız infrastruktur layihəsi olmaqla kifayətlənmir, həm də regional inteqrasiyanın mühüm bir hissəsidir. Bu yol yalnız nəqliyyat sistemini gücləndirmək deyil, həm də regionda iqtisadiyyatın inkişafını sürətləndirmək və strateji əlaqələri gücləndirmək üçün mühüm bir vasitə olacaq.

# Təmiz enerji istehsalı artıb

**Energetika naziri Pərviz Şahbazov "X" sosial şəbəkəsindəki hesabında bildirib ki, bu ilin ilk rübündə Azərbaycanda elektrik enerjisinin istehsalı 7 milyard 171,8 milyon kVt-saat, ixracı 385 milyon kVt-saat, idxalı isə 35,7 milyon kVt-saat olub.**

Bu dövrdə su elektrik stansiyaları da daxil olmaqla bərpa olunan enerji mənbələrindən 243,9 milyon kVt-saat artımla (40 faiz) 853,5 milyon kVt-saat elektrik enerjisi istehsal edilib.

Yeri gəlmişkən, Energetika Nazirliyinin məlumatına əsasən, hesabat dövründə istilik elektrik stansiyalarında (İES) 6 milyard 318 milyon kVt-saat, su elektrik stansiyalarında (SES) isə 669,6 milyon kVt-saat elektrik enerjisi istehsal olunub. Digər mənbələr üzrə istehsal 183,9 milyon kVt-saat, o cümlədən külək elektrik stansiyalarında 9,5 milyon-kVt saat, günəş elektrik stansiyalarında 112,5 milyon kVt-saat olub. Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 61,9 milyon kVt-saat elektrik enerjisi istehsal edilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalında 243,9 milyon kVt-saat artım qeydə alınıb.






Rüb ərzində elektrik enerjisinin istehsalı "AzərEnerji" ASC üzrə 6 milyard 385 milyon kVt-saat (İES-lərdə 5 milyard 739,9 milyon kVt-saat, SES-lərdə 645,1 milyon kVt-saat), Naxçıvan MR Dövlət Energetika Xidməti üzrə 91,2 milyon kVt saat (İES-lərdə 55,7 milyon kVt-saat, SES-lərdə 21,7 milyon kVt-saat, GES-də 13,8 milyon kVt-saat), "Azərişıq" ASC üzrə külək elektrik stansiyalarında 6,3 milyon kVt-saat, müstəqil elektrik stansiyaları üzrə isə 689,3 milyon kVt-saat təşkil edib.

Hesabat dövründə elektrik enerjisinin ixracı 385,0 milyon kVt-saat, idxalı isə 35,7 milyon kVt-saat olub. Qeyd edək ki, bu ilin mart ayında respublika üzrə elektrik enerjisinin istehsalı 2 milyard 319 milyon kVt-saat olub. Bu dövrdə elektrik enerjisinin ixracı 85,6 milyon kVt-saat, idxalı isə 16,1 milyon kVt-saat təşkil edib.

# Ölkəmiz dibdərinləşdirən gəmi də yaratdı



**İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Qaradağ Sənaye Parkının rezidenti "Bakı Gəmiqayırma Zavodu" MMC tərəfindən inşa edilən "Mühəndis Soltan Kazımov" gəmisi üzən tərsanə vasitəsilə suya salınıb. Yeni gəmidən dənizdə dibdərinləşdirmə işləri həyata keçiriləcək.**

Bakı Beynəlxalq Dəniz Ticarət Limanının sifarişi ilə hazırlanan dibdərinləşdirən gəminin ümumi uzunluğu 61,20 metr, gövdənin uzunluğu 49,30 metr, ümumi eni 10,50 metr, suya oturumu 1,65 metr, qazma dərinliyi isə 18 metr təşkil edir. Dənizdə dibdərinləşdirmə işləri həyata keçirəcək gəminin inşasının tam yekunlaşıb təhvil verilməsi cari ilin may ayına nəzərdə tutulub.

Xatırladaq ki, ölkəmizin tarixində ilk dəfə inşa edilən dibdərinləşdirmə gəmisinin layihələndirilməsi işləri Niderlandın "Damen Shipyards Gorinchem B.V." şirkətinin təcrübəli mütəxəssisləri tərəfindən həyata keçirilib. Sonrakı mərhələdə Bakı Gəmiqayırma Zavodunun yanalma körpüsündə gəminin sınaq işləri görüləcək.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Sığorta xidmətləri hər kəsi və hamını zərərlərdən qoruyur

**Müsahibimiz İcbari Sığorta Bürosunun icraçı direktoru Vüsal Məsiyevdir**

***– Vüsal müəllim, yerli sığorta bazarında artıq ikinci dəfədir ki, ümumi yığımlar 1 milyard manatı ötür. Bu uğurlu tendensiya fonunda ölkənin sığorta bazarının inkişaf səviyyəsini necə dəyərləndirirsiniz?***

– Azərbaycanın sığorta sektorunda son illər dinamik inkişaf müşahidə edilir və bu sahədə mühüm islahatlar həyata keçirilir. Ölkəmizdə icbari sığorta bazarı böyük potensiala malikdir və biz onun daha da inkişaf etməsi üçün zəruri tədbirləri ardıcıl şəkildə davam etdiririk.

2024-cü ildə Azərbaycanda icbari sığorta sektorunda aparılan islahatlar uğurlu nəticələr verib və bu, sahənin perspektiv inkişafı üçün əlverişli zəmin yaradıb. İlin yekunlarına əsasən, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə 1 milyon 920 min 921 müqavilə bağlanıb. Həmin müqavilələrin 1 milyon 480 min 51-i standart sığorta müqaviləsi, 400 min 832-si sərhəd sığorta müqaviləsi, 40 mindən çoxu isə "Yaşıl kart" sığorta müqaviləsi olub. Bundan əlavə, il ərzində daşınmaz əmlakın icbari sığortası üzrə 186 min 949, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə isə 18 min 946 müqavilə rəsmiləşdirilib. 2024-cü ildə istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə isə 42 min 688, sərnişinlərin icbari fərdi qəza sığortası üzrə 122 müqavilə bağlanıb.

Hazırda vətəndaşların sığorta məhsullarına marağının artırılması üçün tədbirlər davam etdirilməkdədir. Sığorta sektorunda innovasiya və texnologiyaların rolu böyük əhəmiyyət kəsb edir. Çünki müasir dövrdə müştərilər texnoloji həllərlə təmin olunan çevik xidmətlərə üstünlük verirlər. İcbari Sığorta Bürosu olaraq sığorta sektorunda rəqəmsal transformasiyanın həyata keçirilməsini dəstəkləyir və yeni xidmət modelləri ilə məhsulların inkişaf etdirilməsi istiqamətində fəal iş aparırıq.

Rəqəmsal həllərin tətbiqinin təşviqi və sığortalıların ehtiyaclarına uyğun innovativ məhsulların yaradılması ilə sığorta bazarının potensialından tam istifadə olunmasına töhfə verməyə davam edəcəyik. Sığorta şirkətləri də vətəndaşlar qarşısında etimad qazanmaq üçün daha innovativ məhsullar təklif etməli, texnoloji inkişafa önəm verməlidirlər.

***– İcbari Sığorta Bürosu 2024-cü ili hansı yaddaqalan uğurlarla, sektorial islahatlarla başa vurub?***

– 2024-cü il icbari sığorta sektoru üçün bir sıra mühüm islahatlar və innovativ layihələrlə əlamətdar olub. Ötən il həyata keçirilən islahatlar sığorta bazarının şəffaflığın artırmaq, sığorta məhsullarının əlçatanlığını genişləndirmək, elektron xidmətləri inkişaf etdirmək və vətəndaş məmnuniyyətini yüksəltmək məqsədi daşıyırdı.

Elektron xidmətlərin inkişafı istiqamətində atılan addımlardan biri elektromobillərlə bağlı onlayn sığorta prosesinin təkmilləşdirilməsi olmuşdur. Artıq elektromobil sahibləri avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta şəhadətnamələrini sığorta şirkətlərinin rəsmi veb-səhifələri vasitəsilə onlayn şəkildə əldə edə bilirlər. Bu yenilik nəqliyyat vasitələrinin icbari sığortasını daha operativ və əlçatan edib.

Ötən ilin mühüm yeniliklərindən biri də aztəminatlı şəxslərə aid daşınmaz əmlakın icbari sığortası müqavilələrinin rəsmiləşdirilməsinin təkmilləşdirilməsi olub. Bu məqsədlə İcbari Sığorta Bürosu ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında məlumat mübadiləsi qurulmuşdur. Layihənin məqsədi aztəminatlı şəxslərin güzəştli icbari sığorta prosesini daha şəffaf və əlçatan etmək, bu sahədə insan amilini minimuma endirməkdir. Məlumat mübadiləsinin qurulması sayəsində aztəminatlı şəxslərin məlumatları nazirliyin informasiya bazasından İcbari Sığorta Bürosuna avtomatik ötürülür və onların güzəşt hüququ yoxlanılır. Bundan əlavə, aztəminatlı şəxslər üçün sığorta haqqının ödəniş müddəti 48 saatdan 4 aya qədər artırılıb. Bu dəyişiklik sosial həssas kateqoriyaya aid şəxslərin sığorta müqavilələrini daha rahat və planlı şəkildə rəsmiləşdirməsinə imkan yaradır.

2024-cü ilin sonlarında daha bir layihəyə start verdik. Bu, ASAN Bridge platforması üzərindən "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinə aid veb-servislərdən istifadə edərək dəmiryol nəqliyyat vasitələrinə münasibətdə Sərnişinlərin İcbari Fərdi Qəza Sığortası müqavilələrinin rəsmiləşdirilməsini daha sürətli, effektiv və şəffaf həyata keçirmək imkanının yaradılmasıdır. Bu yenilik vasitəsilə müvafiq məlumatların elektron






qaydada ötürülməsi və emalı təmin edilir. Nəticədə, bu tip müqavilələrin rəsmiləşdirilməsi daha sistemli şəkildə həyata keçirilir və potensial gecikmələrin qarşısı alınır.

Ötən il İcbari Sığorta Bürosunun fəaliyyətində əhəmiyyətli yeniliklərdən biri Çağrı Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi oldu. Yeni *9707 qısa nömrəsinin istifadəyə verilməsi ilə vətəndaşlar İcbari Sığorta Bürosu ilə daha rahat və sürətli şəkildə əlaqə saxlaya bilirlər. Çağrı Mərkəzi 7 gün 24 saat fəaliyyət göstərərək Azərbaycan, rus və ingilis dillərində xidmət təqdim edir. Burada vətəndaşlar icbari sığorta növləri, "Yaşıl kart" sistemi və kompensasiya ödənişləri ilə bağlı ətrafl məlumat əldə edirlər.

Sığorta sahəsində maarifləndirmə və əhali arasında sığorta savadlılığının artırılmasını da daim diqqət mərkəzində saxlamışıq. Mərkəzi Bank, Azərbaycan Sığortaçılar Assosiasiyası və İcbari Sığorta Bürosunun birgə əməkdaşlığı çərçivəsində bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirilib. Sığorta savadlılığının artırılması məqsədilə müxtəlif media nümayəndələri üçün təlimlər və məlumatlandırma kampaniyaları keçirilib. Xüsusilə son 2 ildə ölkədə genişmiqyaslı sığorta festivallarının təşkili sığorta maarifləndirilməsi baxımından əhəmiyyətli olub.

2024-cü ildə bir çox vacib texnoloji layihələrin hüquqi və biznes modelləri hazırlanaraq icrası üçün təməl qoyulub. "Insurebus Gateway" infrastrukturunun yaradılması, Müstəqil ekspertlərin İcbari Sığorta Bürosu sistemi üzərindən təyin edilməsi, könüllü və ya icbari sığorta müqaviləsi bağlamaq istəyən şəxsin yazılı razılığı əsasında sığorta tarixçəsinin sığortaçıya ötürülməsi, təşkilatımızın üzvü olmayan sığorta şirkətlərinə "Forma 4" sənədinin elektron təqdim edilməsi, "Open Insure Data" sisteminin yaradılması, "Yaşıl kart"ların elektronlaşması, sərhəd sığorta müqaviləsinin qeydiyyatının yenilənməsi məqsədilə yeni tpl.az platformasının yaradılması işlərinə başlanılıb. Hazırda həmin layihələrin icrası davam etdirilir.

Bununla yanaşı, sektorumuz üçün vacib əhəmiyyət daşıyan bir sıra məsələlər gündəmə gətirilib və onların icrası təmin edilir. Buna misal olaraq avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə zərərliliyin müəyyən edilməsi və səbəblərinin araşdırılması məqsədilə sığorta şirkətlərinin aktuarlarından və İcbari Sığorta Bürosunun analitiklərindən ibarət işçi qrupunun yaradılmasını, Azərbaycana münasibətdə təbii fəlakətlər üzrə analitik modelləşmənin qurulması üçün Türkiyənin "T RUPT" şirkəti ilə danışıqlar aparılması və tərəfdaşlıq müqaviləsinin imzalanmasını göstərmək olar.

Beləliklə, 2024-cü ildə bir çox vacib layihələrin tənzimləmə qaydaları və icra mexanizmləri də hazırlanıb və onların icrası üçün təməl yaradılıb. 2025-ci ildə isə bu layihələrin real nəticələrini görəcəyik.

***– 2025-ci ildə icbari sığorta bazarının təkmilləşdirilməsi istiqamətində nə kimi yeniliklərin həyata keçirilməsini planlaşdırırsınız. Ümumiyyətlə, bu illə bağlı proqnozlarınız hansı yöndədir?***

– 2025-ci ili bizim üçün bir növ "InsurTech" layihələrinin tətbiqi ili də adlandırmaq olar. Çünki müasir dövrdə dünya sığorta sektoru sürətlə texnologiya əsaslı həllərə keçid edir və ölkəmizin sığorta sahəsi də bu prosesdən geri qalmamalıdır. Rəqəmsal transformasiya təkcə şirkətlər üçün deyil, eyni zamanda, sığortalılar üçün də böyük üstünlüklər yaradır. Daha rahat, daha sürətli və şəffaf sığorta xidmətlərinin təqdim olunması həm bazarın inkişafını sürətləndirəcək, həm də vətəndaş məmnuniyyətini artıracaq.

Bu ildən süni intellekt, data-analitika və avtomatlaşdırılmış sistemlər sayəsində sığorta hadisələrinin proqnozlaşdırılması daha dəqiq aparılacaq, risklər daha optimal idarə olunacaq. Artıq xaricdə rəsmiləşdirilən "Yaşıl kart" sisteminin tam elektronlaşdırılması da tamamlanıb. Bu dəyişiklik xaricdə rəsmiləşdirilən bu tip kartların əlçatanlığını artıraraq sığorta sektorunda müasir texnoloji həllərin tətbiqini sürətləndirib. İndiyədək sığortalılara təqdim olunan kağız daşıyıcılarda olan sığorta müqavilələri tamamilə elektron formata keçirilib. Eyni zamanda, yeni sistem çərçivəsində sığorta müqavilələrinin QR kod vasitəsilə yoxlanılması da mümkündür. Elektronlaşdırma prosesi sənəd saxtakarlığının qarşısını almağa və əməliyyat sürətini artırmağa töhfə verəcək.

Daha bir yenilik isə sığorta hadisəsi zamanı dəymiş zərərin qiymətləndirilməsindən narazı qalan və ya qiymətləndirilməsi qanunla müəyyən edilmiş müddətdə tamamlanmayan zərərçəkənlər üçün nəzərdə tutulub. Belə ki, zərərçəkənlər İcbari Sığorta Bürosunun informasiya sisteminə daxil olaraq onlayn qaydada müstəqil ekspert təyin edə və qiymətləndirmə prosesini izləyə biləcəklər.

Sığorta bazarı üçün olduqca faydalı hesab edilən və şəxsin yazılı razılığı əsasında onun səbəb olduğu sığorta hadisəsi barədə məlumatların sığortaçıya elektron qaydada ötürülməsinə imkan verən sistemin tətbiqi də 2025-ci ildə ərsəyə gətirəcəyimiz layihələr sırasındadır. Bu layihə reallaşdıqdan sonra sığortaçılar sığorta hadisələrinin hansı şirkətdə qeydə alınmasından asılı olmayaraq şəxsin tarixçəsini müəyyən edə və xüsusilə könüllü sığortalar üzrə risk əsaslı modellər hazırlaya biləcəklər.

Bundan əlavə, İcbari Sığorta Bürosu 2025-ci ildə sığorta bazarının inkişafına və şəffaflığı artırılmasına xidmət edən daha bir mühüm layihəni həyata keçirəcək. Bu layihə çərçivəsində təşkilatımıza üzv olmayan sığortaçılara bağladıqları könüllü sığorta müqavilələri üzrə baş vermiş sığorta hadisələri ilə bağlı "Forma 4" sənədlərini İcbari Sığorta Bürosu informasiya sistemi vasitəsilə elektron qaydada sorğulamaq imkanı yaradılacaq.

Yeniliklərdən danışarkən "Insurebus Gateway" layihəsini də qeyd etmək yerinə düşər. Bu layihə istər sığorta müqavilələrinin rəsmiləşdirilməsi, istərsə də sığorta hadisələrinin qeydiyyatı proseslərini tamamilə "API" servislər vasitəsilə sığorta şirkətlərinə ötürülməsini hədəfləyi . Sığorta şirkətləri icra etdikləri əməliyyatları öz biznes proseslərinə uyğun aparmaqla yanaşı, bir çox mərhələdə məlumatların verifikasiyasını sektorumuzun informasiya sistemi üzərindən apara biləcəklər.

Bununla yanaşı, sərhəd sığorta müqavilələrinin qeydiyyatının yenilənməsi məqsədilə yeni www.tpl.az platformasının yaradılması planlaşdırılır. Bu platformanın yaradılmasında məqsəd sərhəd sığorta müqavilələrinin qeydiyyatını optimallaşdırmaq və xarici ölkələrdə qeydiyyatdan keçmiş nəqliyyat vasitələrinin sahiblərinə onlayn şəkildə sığorta müqaviləsi əldə etmək imkanı yaratmaqdır. Yeni platforma ödənişlərin birbaşa sayt üzərindən həyata keçirilməsini təmin etməklə yanaşı, sərhəd keçid məntəqələrində yaranan sıxlığın aradan qaldırılmasına dəstək olacaqdır.

2025-ci ildə həyata keçirməyə başladığımız mühüm layihələrdən biri də təbii fəlakətlər üzrə risklərin modelləşdirilməsidir. Azərbaycan seysmik baxımdan aktiv zonada yerləşdiyindən daşınmaz əmlakın icbari sığortasında risklərin dəqiq qiymətləndirilməsi və potensial zərərlərin proqnozlaşdırılması böyük əhəmiyyət kəsb edir. Bu məqsədlə Türkiyənin "T RUPT" şirkəti ilə əməkdaşlıq edərək ölkəmizə uyğun "CatMod Azərbaycan" zəlzələ modelini tətbiq edəcəyik. Bu layihə sayəsində sığorta şirkətləri zəlzələdən əvvəl müxtəlif bölgələrdə mümkün şiddətdə baş verə biləcək təbiət hadisəsinin potensial zərərlərini öncədən hesablaya biləcəklər. Qurulan bu modellər nəticəsində sığortaçılar riskləri düzgün proqnozlaşdırmaqla yanaşı, beynəlxalq təkrar sığorta bazarlarına da daha rahat çıxış əldə edəcəklər.

Əlbəttə ki, 2025-ci ildə yeniliklər yalnız bunlarla məhdudlaşmayacaq. İcbari Sığorta Bürosunun informasiya sisteminin həm dayanıqlığını, həm də təhlükəsizliyini artırmaq məqsədilə yeni texnoloji layihələr icra ediləcək. Bir sözlə, bu gün atdığımız addımlar və həyata keçirdiyimiz islahatlar sığorta sektorunun dayanıqlı inkişafı və rəqəmsal transformasiyanın dərinləşdirilməsi üçün möhkəm təməl yaradır. Strateji hədəflərimi arasında vətəndaşların maliyyə təhlükəsizliyini gücləndirmək, onları potensial risklərdən qorumaq və həyat rahatlıqlarını artırmaq üçün yeni icbari sığorta növlərinin yaradılması da yer alır. Gələcəkdə sığortalıların maraqlarını ön planda tutaraq texnoloji yeniliklər vasitəsilə sığorta xidmətlərinin keyfiyyətini daha da artıracağımıza əminəm. İcbari Sığorta Bürosu olaraq hər bir vətəndaşın sığorta xidmətlərindən rahat, sürətli və şəffaf şəkildə faydalanmasını təmin etmək üçün fəaliyyətimizi davam etdirəcəyik.

# Fındıq bağlarının təbii itkiləri ödənilir



**Ölkəmizdə aqrar sığortanın əhatə etdiyi 41 bitki növündən biri də fındıq bağlarıdır. Bu da müxtəlif ərazilərdə fındıq əkən fermerlərə aqrar sığorta vasitəsilə bağlarını sığorta etdirməyə imkan yaradır. Qeyd edək ki, aqrar sığorta mexanizmi fındıq bağlarını dolu, fırtına, qasırğa, sel-subasma, normadan artıq qar yağması, vəhşi heyvanların hücumu, eləcə də üçüncü şəxslərin hərəkətləri və s. kimi risklərdən qoruyur.**

Aqrar Sığorta Fondunun məlumatına əsasən, digər bitkiçilik növləri kimi fındıq məhsulunun da sığorta haqqı regionlardan asılı olaraq dəyişir və olduqca aşağıdır. Məsələn, fındığın kütləvi şəkildə əkildiyi Xaçmaz rayonunda 1000 manatlıq məhsulu sığortalamaq üçün fermer cəmi 7,25 manat ödəməlidir. Zaqatala, Balakən və Qax rayonlarında isə 1000 manatlıq fındığın sığortası fermerə cəmi 20 manata başa gəlir.

Artıq 2024-cü ildən etibarən fındıq sahələri üzrə sığorta ödənişlərinə də başlanılıb. Ötən il fındıq bağlarına dəymiş zərərlərə görə fermerlərə və təsərrüfatlara 4 min 737 manat sığorta ödənişi edilib.

Bağ sahibləri əlavə olaraq meyvə bağlarındakı ağacları ayrıca sığorta etdirə bilərlər. Bu halda, ağac tələf olarsa, fermerə ağacın 3 illik meyvə dəyəri qədər sığorta ödənişi verilir. Bu sığorta məhsulu üzrə sığorta tarifi cəmi 0,83 faiz təşkil edir.

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, aqrar sığorta mexanizminin fermerlər üçün əsas üstünlüklərindən biri də sığorta haqqının 50 faizinin dövlət tərəfindən qarşılanmasıdır. Belə ki, fermerlərə dəstək məqsədilə sığorta haqqının yarısını dövlət ödəyir. Nəticədə, fermerlər hesablanmış sığorta haqqının yalnız 50 faizini ödəyərək təsərrüfatlarını və əkin sahələrini sığorta etdirirlər.

**Sığorta sektorunun potensialı artır. 2024-cü ildə toplanmış sığorta haqları ötən ilin sonuna nisbətən 10,6 faiz – 130 milyon manat artaraq 1milyard 353 milyon manata çatıb. Sığorta haqlarının 54 faizi həyat, 46 faizi isə qeyri-həyat sığorta siniflərindən formalaşıb. Bunu Azərbaycan Mərkəzi Bankının sədrinin müşaviri Vüqar Əliyev dünən maliyyə sabitliyi ilə bağlı keçirilən mətbuat konfransında deyib.**

# Sığorta sektorunda uğurlu nəticələr



Qeyd olunub ki, həyat sığortası üzrə yığım 16,7 faiz artaraq 734 milyon manat, qeyri-həyat sığortası üzrə isə 4,4 faiz artaraq 619 milyon manat təşkil edib. Həm həyat sığortası, həm də qeyri-həyat sığortası üzrə artımın əsas qüvvəsinin könüllü sığorta sinifləri olduğunu diqqətə çatdıran müşavirin sözlərinə görə, könüllü sığorta sinifləri 13,9 faiz – 123 milyom manat artaraq 1 milyard 11 milyon manat, icbari sığorta sinifləri isə 2,4 faiz – 8 milyon manat artaraq 342 milyon manat təşkil edib.

Müşavir bildirib: "Könüllü sığorta siniflərində artımı şərtləndirən əsas amil həyatın yaşam sığortası sinfi olub. Belə ki, könüllü sığorta üzrə artımın 76 faizi – 94 milyon manat məhz bu sinif hesabına formalaşıb. Sektorda yığılan haqlar artsa da, artım məhdud sayda şirkət hesabına baş verib".

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Elmlər Akademiyası XX əsrdə tarixi zərurətdən yarandı

**Elm cəmiyyətin dayanıqlı inkişafının təməl daşıdır. Əsrlər boyu elmi biliklər insan həyatını yaxşılaşdırmış, texnoloji tərəqqiyə yol açmış və cəmiyyətin mənəvi dəyərlərini zənginləşdirmişdir. Müasir dövrdə elmin cəmiyyətdə rolu daha da artmışdır. Dövlətlərin iqtisadi, siyasi və hərbi qüdrəti bilavasitə onların elmi-intellektual potensialından asılıdır.**



**Arif HƏŞİMOV, akademik**



Bu səbəbdən elm yalnız yeni kəşflərin mənbəyi deyil, həm də sosial problemlərin həllində, innovativ düşüncənin formalaşmasında və milli tərəqqinin təmin olunmasında aparıcı qüvvə kimi çıxış edir. Cəmiyyət elmə, alimlərə böyük ümidlər bəsləyir; gözləntilər ondan ibarətdir ki, elm qarşıya çıxan qlobal iqlim dəyişikliyindən tutmuş enerji təhlükəsizliyinə, ictimai rifahın yüksəldilməsindən milli təhlükəsizliyin gücləndirilməsinədək bir çox strateji məsələlərin həllində açar rol oynasın. Dövlət də öz növbəsində elmin inkişafını prioritet hesab edir, bu sahəyə investisiya yatırır və hüquqi bazanı möhkəmləndirir. Azərbaycanda 2016-cı ildə "Elm haqqında" Qanunun qəbul edilməsi, 2018-ci ildə 27 mart tarixinin "Elm Günü" elan olunması kimi addımlar elmin cəmiyyət və dövlət üçün daşıdığı böyük əhəmiyyətin təsdiqidir.

Azərbaycan elmi çoxəsrlik tarixi və zəngin mədəni ənənələri ilə seçilir. Orta əsrlərdən etibarən Azərbaycan coğrafiyasından çıxmış alimlər – riyaziyyatçılar, təbiblər, astronomlar, filosoflar dünya elmində sanballı iz qoymuşlar. Məsələn, XIII əsrdə yaşamış məşhur alim Nəsirəddin Tusi Azərbaycanda Marağa rəsədxanasını quraraq astronomiya elminə böyük töhfələr vermişdir. Bu kimi tarixi nümunələr göstərir ki, Azərbaycanın intellektual irsi elm və mədəniyyətin ayrılmaz vəhdətindən ibarətdir. Xalqımızın dahi şair və mütəfəkkiri Nizami Gəncəvinin əsərlərində də elmi-fəlsəfi fikirlər əks olunmuş, bilik axtarışı ali dəyər kimi təqdim edilmişdir. Sonrakı dövrlərdə, XIX əsrdə Bakıda ilk texniki məktəblərin, XX əsrin əvvəllərində Bakı Dövlət Universitetinin (1919) təsis edilməsi də Azərbaycan elminin institusional əsaslarının formalaşmasının mühüm mərhələlərindən olmuşdur. Milli ziyalılarımız Həsən bəy Zərdabi, Əbdürrəhim bəy Haqverdiyev və başqaları maarifçilik hərəkatı çərçivəsində elmin və təhsilin inkişafına çalışmış, beləliklə, çox zəngin elmi-mədəni irs yaratmışlar. Bütün bu tarixi ənənələr 1945-ci ildə dövlətçilik tariximizdə ilk dəfə təsis edilmiş Azərbaycan Elmlər Akademiyasının (indiki Azərbaycan Milli Elmlər Akademiyasının – AMEA) bünövrəsində dayanan möhkəm baza rolunu oynamışdır.



Müstəqillik dövründə Azərbaycan qısa müddətdə regionun qüdrətli və dinamik inkişaf edən dövlətinə çevrilmişdir. Bu inkişafın təməlində təbii sərvətlərdən səmərəli istifadəyə əsaslanan iqtisadi islahatlar, infrastrukturların modernləşdirilməsi, insan kapitalına yatırımlar və əlbəttə ki, elmlə təhsilin prioritet sahələr kimi yüksəldilməsi dayanır. Xüsusilə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji proqramlar ölkəmizin hərtərəfli tərəqqisinə səbəb olmuşdur. Azərbaycan artıq qlobal miqyaslı nüfuzlu tədbirlərə ev sahibliyi edir; məsələn, 2024-cü ildə Bakıda keçirilmiş BMT-nin İqlim Dəyişiklikləri üzrə 29-cu Konfransı (COP29) elmi-diplomatik nailiyyət kimi tarixə düşdü. Bu fakt bir daha təsdiqləyir ki, müasir Azərbaycan öz elmi potensialı, intellektual elitası və innovativ təşəbbüsləri ilə dünya miqyasında mühüm rol oynamağa qadirdir. Digər tərəfdən, ölkə daxilində aparılan islahatlar nəticəsində Azərbaycan 2020-ci ildə tarixi ədaləti bərpa edərək ərazi bütövlüyünü təmin etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasi iradəsi sayəsində qazanılmış Vətən müharibəsi Zəfəri Azərbaycanı regionda yeni reallıqların müəllifinə çevirdi və dövlətimizin qarşısında post-münaqişə dövrünün bərpa və inkişaf vəzifələri durdu. Belə bir şəraitdə elmi ictimaiyyətin üzərinə işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, təbii sərvətlərinin araşdırılması, ekoloji durumunun monitorinqi kimi konkret vəzifələr qoyuldu. Göründüyü kimi, elmin cəmiyyətdə rolu bu gün daha da çox şaxələnmiş və vacib olmuşdur.

Prezident İlham Əliyev ölkəmizin elmi potensialının gücləndirilməsi naminə bir sıra mühüm addımlar atmışdır. Onun fərman və sərəncamları ilə elmin hüquqi və maddi bazası möhkəmləndirilmiş, gənc tədqiqatçıların stimullaşdırılması üçün xüsusi təqaüdlər və mükafatlar təsis edilmişdir. Məsələn, 2009-cu ildə təsdiq olunmuş "2009–2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" çərçivəsində elmi infrastrukturun modernizasiyası, prioritet elmi istiqamətlərin müəyyən edilməsi və elmi nəticələrin innovasiyalara tətbiqi istiqamətində geniş işlər görülmüşdür. 2016-cı ildə "Elm haqqında" Qanunun qüvvəyə minməsi ilə elm və təhsil sferalarının inteqrasiyası, elmi fəaliyyətin yeni dövrün tələblərinə uyğun təşkili üçün zəruri hüquqi əsaslar yaradıldı. Dövlət başçısının təşəbbüsü ilə yüksək texnologiyalar, kosmik sənaye, informasiya-kommunikasiya texnologiyaları sahələrində xüsusi proqramlar icra olunur; nəticədə, Azərbaycan ilk süni peykini orbitə çıxarmış, "Azərkosmos" agentliyi təsis edilmiş, ölkədə innovasiya və startap ekosistemi formalaşdırılmışdır. İlham Əliyevin elmə verdiyi dəyərin bariz nümunələrindən biri də AMEA-nın inkişafına göstərilən daimi diqqətdir. Məhz bu diqqətin sayəsində akademiya son illərdə beynəlxalq elmi şəbəkələrə qoşulmuş, TÜBİTAK-la birgə elektron elmi jurnallar platforması yaratmış, dünyanın nüfuzlu elm mərkəzləri ilə əməkdaşlığı genişləndirmişdir. Prezident İlham Əliyevin "Azərbaycan 2030" milli inkişaf konsepsiyasında da elm və innovasiyalar iqtisadi tərəqqinin aparıcı amillərindən biri kimi müəyyən edilir, süni intellekt texnologiyalarının və rəqəmsal transformasiyanın sürətləndirilməsi əsas hədəflərdən olaraq qeyd olunur. Bütün bu təşəbbüslər ölkə rəhbərliyinin elmə verdiyi strateji önəmin göstəricisidir.

Hazırda Azərbaycan elmi yeni inkişaf mərhələsinə qədəm qoyur. Elmin qarşısında dayanan əsas vəzifələrdən biri onun cəmiyyətin aktual tələbatlarına uyğunlaşdırılması, əldə olunan biliklərin tətbiqi nəticəliliyinin yüksəldilməsidir. Bu məqsədlə fundamental tədqiqatlarla yanaşı, innovativ və multidissiplinar elmi layihələrə xüsusi önəm verilir. Məsələn, iqlim dəyişikliyi, enerji və qida təhlükəsizliyi, informasiya mühitinin qorunması kimi qlobal və regional əhəmiyyətli sahələrdə tədqiqatlar aktuallaşmışdır. Azərbaycan alimləri beynəlxalq miqyasda BMT-nin Davamlı İnkişaf Məqsədlərinə uyğun layihələrdə iştirak etməklə qlobal elmə töhfə verməyə başlamışlar. Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı quruculuq işlərinə elmi dəstək göstərilir – torpaqların münbitliyinin bərpası, biomüxtəlifliyin tədqiqi, mədəni-tarixi abidələrin bərpası kimi sahələrdə AMEA-nın müvafiq institutları konkret proqramlar həyata keçirir. Müasir dövrdə Azərbaycan elminin inkişafında rəqəmsallaşma və beynəlxalq inteqrasiya da mühüm rol oynayır. Alimlərimiz dünyanın aparıcı elmi mərkəzləri ilə birgə layihələr icra edir, akademiyanın elmi jurnalları beynəlxalq indekslərə daxil olur, elektron elmi resurslar yaradılır. 2023-cü ildə ilk dəfə olaraq Azərbaycan Milli Elmlər Akademiyası dünyanın ən mötəbər elm təşkilatlarını birləşdirən Beynəlxalq Elmi Şuraya və Asiya Elmlər Akademiyaları Assosiasiyasına tamhüquqlu üzv qəbul edilmişdir. Bütün bunlar göstərir ki, Azərbaycan elmi milli çərçivədən çıxaraq qlobal elm məkanında layiqli yer tutmağa yönəlmiş strateji kurs götürmüşdür.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəylinin rəhbərliyi ilə akademiyada son dövrdə geniş islahatlara start verilmişdir. 2022-ci ilin sonlarından etibarən AMEA-da elmi fəaliyyətin səmərəliliyinin artırılması, elm və təhsilin inteqrasiyasının gücləndirilməsi, akademiyanın idarəetmə strukturunun optimallaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Akademik İsa Həbibbəyli öz islahat proqramında elmin sosial və ideoloji missiyasına da xüsusi önəm ayırır. O, vurğulayır ki, Azərbaycan elmi yalnız ölkədaxili ehtiyaclara deyil, həm də qlobal çağırışlara cavab verməlidir; bunun üçün tədqiqatlarda rəqəmsal texnologiyaların, süni intellektin imkanlarından geniş istifadə olunmalıdır. Həqiqətən də, son dövrdə AMEA-nın humanitar və ictimai elmlər sahəsində rəqəmsal texnologiyaların tətbiqi, elektron elmi bazaların yaradılması istiqamətində mühüm addımlar atılmışdır. Eyni zamanda, akademik İsa Həbibbəyli elmin ideoloji əsaslarını milli maraqlar müstəvisində yenidən müəyyənləşdirməyə çalışır. Onun təşəbbüsü ilə sovet dövründən qalma marksist dövrləşdirmə yanaşması tənqid edilərək ölkəmizin siyasi-tarixi reallıqları və azərbaycançılıq məfkurəsi nəzərə alınmaqla yeni inkişaf konsepsiyası hazırlanmışdır. Bu konsepsiyada Azərbaycan elmi və mədəniyyəti öz tarixi-sivilizasiyon kontekstində mərhələlərə bölünmüş, hər dövrün səciyyəvi xüsusiyyətləri və həmin mərhələdə yetişmiş görkəmli elm xadimlərinin rolu qiymətləndirilmişdir. Xüsusilə, akademik İsa Həbibbəyli elmi tədqiqatlarda tarixi şəxsiyyətlərin – dövlət xadimləri, sərkərdələr, milli qəhrəmanların həyat və fəaliyyətinin obyektiv şəkildə öyrənilməsini ön plana çəkmiş, bununla da sovet elminə xas "tarixi şəxsiyyətləri unutdurma" ənənəsinə son qoyulmasına çalışmışdır. AMEA-da aparılan bu islahatlar artıq öz bəhrəsini verməyə başlayır: müxtəlif elm sahələrində fundamental tədqiqatların nəticələri əsasında yeni tətbiqi layihələr formalaşdırılır, Azərbaycan xalqının çoxəsrlik mədəni irsini əks etdirən ensiklopediyaların (o cümlədən "Heydər Əliyev Ensiklopediyası", "Qərbi Azərbaycan Ensiklopediyası" və s.) hazırlanmasına start verilir.

Akademiyanın beynəlxalq əlaqələri də sürətlə genişlənir – AMEA ilk dəfə beynəlxalq elm təşkilatlarında (Beynəlxalq Elmi Şura, AASSA və b.) institusional üzvlük statusu qazanmışdır. Bütün bu işlər akademik İsa Həbibbəylinin yüksək elmi təşkilatçılıq bacarığı və geniş intellektual dünyagörüşü sayəsində həyata keçirilir. Məhz onun elmə və idarəçiliyə innovativ yanaşmasının nəticəsidir ki, bu gün Azərbaycan elmi öz yeni intibah dövrünə inamla qədəm qoyur.

Beləliklə, həm cəmiyyət, həm də dövlət Azərbaycan elminə böyük ümidlər bəsləyir. Gələcəkdə elmin fundamental nailiyyətləri əsasında innovativ texnologiyaların yaradılması, ölkənin rəqabətqabiliyyətli bilik iqtisadiyyatına keçidinin təmin edilməsi, milli-mənəvi dəyərlərin və tarixi həqiqətlərin elmi əsaslarla dünyaya tanıdılması kimi mühüm vəzifələr prioritet olacaqdır. Azərbaycan Milli Elmlər Akademiyası və ümumən elmi ictimaiyyət bu gözləntiləri doğrultmaq üçün səfərbər olub. Elmimizin tarixi təcrübəsi, zəngin ənənələri və müasir dövrün çağırışlarına uyğunlaşma bacarığı onu göstərir ki, Azərbaycan elmi qarşıdakı illərdə də həm cəmiyyətin, həm də dövlətin inkişafında aparıcı mövqeyini qoruyub saxlayacaq və yeni nailiyyətləri ilə ölkəmizi beynəlxalq aləmdə layiqincə təmsil edəcəkdir.

Bu gün Azərbaycan tam müstəqil dövlət olaraq ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətti çox uğurla həyata keçirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin titanik səyləri nəticəsində XXI əsrdə artıq dünyanın ekoloji siyasətinin, təhlükəsizliyinin, sözün əsl mənasında planetimizin gələcəyinin təmin edilməsində öz mövqeyi olan bir dövlətə çevrilmişdir.

Bu mövqe təkcə diplomatik və siyasi müstəvidə deyil, həm də elmi-intellektual sferada Azərbaycan Respublikasının artan nüfuzunu əks etdirir. Davamlı inkişaf, "yaşıl artım" və ekoloji sabitlik kimi çağırışların cavablandırılması istiqamətində ölkənin atdığı addımlar, Azərbaycanın yalnız regional deyil, qlobal miqyasda məsuliyyətli tərəfdaş kimi çıxış etdiyini sübut edir.

Özünün 80 illik yubileyini qeyd edən AMEA, bütövlükdə, Azərbaycan elmi, ölkəmizin və dünyanın ən aktual problemi olan ekoloji tarazlığın əldə edilməsi ilə dayanıqlı inkişafın təmin edilməsində elmi-texniki potensialdan prioritet hesab olunan istiqamətlərdə istifadəni genişləndirmək və AMEA-nın 80 illik fəaliyyətinin dünyanın yeni çağırışları ilə əlaqələndirilməsi üçün yaxın tarixi keçmişin, ilk olaraq isə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Bakı dövrünü qısa da olsa şərh etmək məqsədəuyğun olardı.

## "Azərbaycan 2030" – elmi strategiya

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair müəyyənləşdirilən beş Milli Prioritetdən biri dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, digəri isə təmiz ətraf mühit və "yaşıl artım" ölkəsidir ki, bunlar da müasir dünyanın çağırışlarına, o cümlədən BMT-nin COP29-un çağırışlarına tam cavab verir.

Bu sənəd, elmi siyasətin dövlət strategiyası ilə inteqrasiyasının bariz nümunəsidir. Burada elmi tədqiqatlar yalnız akademik məqsədlər üçün deyil, həm də cəmiyyətin rifahına yönəlmiş praktiki vasitələr kimi nəzərdə tutulur. Dövlət-vətəndaş-elmi institut üçbucağında yaranan bu vəhdət, Azərbaycanın gələcək inkişaf modelinin əsasında dayanır.

Məlumdur ki, dayanıqlı inkişaf konsepsiyası üç əsas komponentdən ibarətdir – ekoloji, sosial və iqtisadi. Bu istiqamətlərin əsasında bəşəriyyətin təbii ehtiyaclarını biosferin təbii imkanları ilə uyğunlaşdırmaq prinsipi dayanır. Bu konsepsiya həm təbiətin qorunması, həm də iqtisadi artımın təmin olunması baxımından balanslı və optimal yol kimi qəbul edilir.

Bu prinsipin nəzərə alınmaması 1992-ci il Rio-de-Janeyro konfransının sənədlərində təsvir olunan vəziyyətə gətirib çıxara bilər. Orada qeyd edilirdi: "Biz planetimizi xilas etmək şansı olan son nəsil ola bilərik". Bu ifadə, təkcə emosional çağırış deyil, həm də elmi cəhətdən əsaslandırılmış xəbərdarlıqdır. Ekosistemin dayanıqlığı pozulduqda sosial və iqtisadi sabitlik də təhlükə altına düşür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 28 oktyabr 2016-cı il tarixində Paris Sazişinin təsdiq edilməsi haqqında Qanunu imzalamaqla bu qlobal təşəbbüsə qoşulmuşdur. Bu addım Azərbaycanın ekoloji məsələlərə yalnız daxili məsələ kimi deyil, qlobal öhdəlik kimi baxdığını nümayiş etdirir.

İmzalanmış sənədlərin və görülmüş tarixi əhəmiyyətli işlərin nəticəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin COP29 öncəsi müraciətində öz əksini tapmışdır. O, "Yaşıl dünya naminə həmrəylik ili" çağırışı ilə bu tədbirin təkcə texniki və siyasi deyil, həm də humanist və ideoloji yük daşıdığını vurğulamışdır.

Bu, elmi ictimaiyyət üçün də mühüm siqnaldır: elm yalnız müşahidəçi deyil, aktiv iştirakçı olmalıdır. Ekoloji dəyişikliklərin səbəbləri, nəticələri və qarşısının alınması yolları yalnız multidissiplinar elmi yanaşmalarla müəyyən edilə bilər.

## AMEA və COP29: yeni fəlsəfi transformasiya

Azərbaycan Milli Elmlər Akademiyasının COP29-da iştirakına dair Prezident İlham Əliyevin "COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir" tezisi əsasında 2024-cü il noyabrın 30-da AMEA Rəyasət Heyətinin iclası keçirilmişdir. Akademik İsa Həbibbəyli bu iclasda "COP29: çağırışlar və AMEA-nın qarşısında duran vəzifələr" adlı məruzə ilə çıxış etmişdir.

Burada əsas məqam ondan ibarət idi ki, elmin yeni dövrü artıq başlamışdır: elmi fəaliyyət yalnız fundamental nəzəriyyələrlə kifayətlənməməli, praktiki transformasiyalara da yol açmalıdır. Xüsusilə "yaşıl enerji", "yaşıl iqtisadiyyat", "karbonsuz inkişaf" kimi anlayışlar yalnız texniki terminlər deyil, fəlsəfi və metodoloji kateqoriyalar kimi araşdırılmalıdır. Məruzədə "COP29 elmi təfəkkürdə yeniliklər yaradıb" tezisi vurğulanaraq akademiyanın gələcək fəaliyyətinin bu istiqamətdə qurulacağı diqqətə çatdırılmışdır.

Akademik Həbibbəyli alimlərimizin COP29 çərçivəsində xarici həmkarlarla qlobal problemləri müzakirə etməsini və dünya alimlərinin AMEA ilə əməkdaşlıq istəklərini xüsusi qeyd edərək bu sahədəki intellektual diplomatiyanın genişləndirilməsi zərurətini vurğulamışdır. Bu həm də Azərbaycanın elmi nüfuzunun artdığını göstərən indikatorlardandır.

AMEA Rəyasət Heyətinin iclasında qəbul edilən Prezidentə ünvanlanmış müraciət də bu elmi-ictimai həmrəyliyin rəmzi kimi qiymətləndirilə bilər.

## Elmi irs və milli kimlik

Tarix boyu dahi şəxsiyyətlər elmin inkişafına dəstək vermiş, onun milli iradənin təzahür forması olduğunu vurğulamışlar. Ümummilli lider Heydər Əliyevin "Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir" fikri, bu elmi ocağın yalnız bilik istehsalçısı deyil, həm də milli ideoloji dayaqlardan biri olduğunu göstərir.

Bu paralellər "Poisk" qəzetinin 31 yanvar 2025-ci il tarixli nömrəsində rusiyalı tarixçi Sergey Solovyovun fikirlərində də görünür. O, Moskva Dövlət Universitetinin təsis edilməsini Rusiyanın ən mühüm tarixi mərhələləri ilə eyni sıraya qoymuşdur. Elmin dövlətçiliklə eyniləşdirilməsi həm keçmişdə, həm də bu gün aktuallığını saxlayır.

## AMEA-nın tarixi və müasir missiyası

Azərbaycan SSR Elmlər Akademiyası 1945-ci ilin martında təsis edilmişdir. Bu tarix yalnız qurumun yaranma tarixi deyil, həm də elmi dövlətçiliyin formalaşma mərhələsinin başlanğıcı kimi qiymətləndirilməlidir.

Bugünkü AMEA milli strateji düşüncənin, elmi innovasiyaların və qlobal elmi inteqrasiyanın mərkəzidir. Onun fəaliyyəti təkcə elmi tədqiqatlarla məhdudlaşmır, həm də milli mədəniyyətin, ədəbiyyatın, fəlsəfənin və ictimai fikrin formalaşmasında əvəzsiz rol oynayır.

Nəticə etibarilə, XXI əsrdə AMEA-nın qarşısında duran əsas vəzifə elmin sərhədlərini genişləndirməklə bərabər, onu həyatın bütün sahələrinə inteqrasiya etməkdir. Qlobal iqlim dəyişikliyi, enerji təhlükəsizliyi, qida və su resurslarının azalması, bioçeşidliliyin qorunması kimi fundamental problemlərin həlli yalnız elmə əsaslanan kompleks yanaşmalarla mümkündür.

*(ardı var)*

Cəfər Cəfərov – 65

# Görkəmli alim, islahatçı təhsil qurucusu

**Çağdaş tarixşünaslıq elmimizin görkəmli nümayəndəsi, elmi yaradıcılığı ilə ictimai-siyasi və pedaqoji fəaliyyətini məharətlə əlaqələndirməyi bacaran, müasir təhsil sistemində özünəməxsus yeri olan professor Cəfər Məmməd oğlu Cəfərovun anadan olmasının 65 ili tamam olur. Ölkənin elmi-pedaqoji ictimaiyyəti soydaşımızın mənalı və zəngin ömür yolunun uğurlarını xalqa layiqli xidmət örnəyi kimi qiymətləndirir.**



1977-ci ildə Bakı şəhəri 158 nömrəli orta məktəbi bitirən soydaşımız Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə qəbul olunmuşdur. Əlaçı tələbə olan C.Cəfərov 1980-ci ildə təhsilini davam etdirmək üçün Moskva Dövlət Universitetinə göndərilmişdir. 1983-cü ildə bu ali məktəbi müvəffəqiyyətlə bitirərək MDU-nun aspiranturasına daxil olan C.Cəfərov 1987-ci ildə dissertasiya işini vaxtından əvvəl müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi almışdır.

C.Cəfərov Moskvada ali məktəbdə və aspiranturada oxuduğu illərdə yalnız təhsil və elmi-tədqiqatlarla kifayətlənməmiş, ictimai işlərdə də fəal iştirak edərək təşəbbüskarlığı və yüksək təşkilatçılığı ilə fərqlənmiş, azərbaycanlı tələbələrin problemlərinin həlli və hüquqlarının müdafiəsi istiqamətində ardıcıl iş aparmışdır. O, Moskvanın müxtəlif ali məktəblərində təhsil alan azərbaycanlılardan ibarət Tələbə və Aspirantlar Şurasının sədr müavini seçilmiş, idarəçilik və liderlik keyfiyyətləri, işgüzarlığı, milli təəssübkeşliyi ilə yoldaşlarının dərin hörmətini qazanmışdır.

Moskvada qalıb işləməyə, karyera qurmağa imkanları olsa da, C.Cəfərov öz xalqına xidməti bütün gələcək imtiyazlardan üstün tutaraq 1987-ci ildə doğma Vətəninə qayıtmış, vaxtilə tələbəsi olduğu Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində əmək fəaliyyətinə başlamış, 1994-cü ilə qədər kafedrada laborant, müəllim, baş müəllim, dosent və dekan müavini kimi müxtəlif vəzifələrdə çalışmışdır.

1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradıldıqda 34 yaşlı C.Cəfərov Gənclərlə iş üzrə baş idarənin rəisi vəzifəsinə təyin olunur. Burada çalışdığı müddətdə gənclərlə iş sahəsində dövlət siyasətinin formalaşdırılmasında, müvafiq qanunvericilik aktlarının və dövlət proqramlarının layihələrinin hazırlanmasında, istedadlı və yaradıcı gənclər üçün əlverişli şəraitin yaradılmasında, çoxsaylı gənclər təşkilatlarının fəaliyyətinin konstruktiv məcraya yönləndirilməsində yaxından iştirak etmişdir. Gənclər Təşkilatları Milli Şurasının, Gənclər və İdman Nazirliyi yanında Gənclərlə iş üzrə İctimai Şuranın yaradılmasında da C.Cəfərovun xüsusi rolu olmuşdur. Həmin illərdə müxtəlif təşkilatlarda təmsil olunan gənclər bu gün də Cəfər müəllimə böyük hörmətlə yanaşır, onun xidmətlərini dərin minnətdarlıq hissi ilə qeyd edirlər.

1997-ci ildə Azərbaycan Hökuməti ilə BMT İnkişaf Proqramı arasında ölkədəki qeyri-hökumət təşkilatlarının institusional inkişafını hədəfləyən layihə imzalanır. Gənclər və İdman Nazirliyində çalışdığı müddətdə gənclər təşkilatları ilə iş sahəsində böyük təcrübə toplamış C.Cəfərov həmin layihənin Azərbaycan hökuməti tərəfindən milli koordinatoru təyin olunur. 2003-cü ilədək davam edən layihə çərçivəsində Qeyri-Hökumət Təşkilatlarının Resurs və Təlim Mərkəzi, onun regional (Quba, Qəbələ, Şəmkir, Bərdə, Şirvan və s.) bölmələri yaradılır, Milli Qeyri-Hökumət Təşkilatlarının Forumu kimi geniş tərkibli konfederativ qurum təsis olunur. Milli və dövlətçilik maraqlarını üstün tutan, cəmiyyət üçün faydalı işlər görən, zərərli xarici təsirlərdən uzaq olan ictimai birlik və fondlar yaxından dəstəklənir, QHT sektorunda ön mövqelərə çıxırlar. Bu baxımdan, mübaliğəsiz demək olar ki, Azərbaycanda üçüncü sektorun formalaşmasında və inkişafında Cəfər müəllimin danılmaz xidmətləri vardır.

Layihə çərçivəsində öyrənilən xarici təcrübəyə əsasən 2000-ci ildə "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi vətəndaş cəmiyyətinin inkişafı tarixində mühüm hadisə olmuşdur.

Qeyd edilən layihənin koordinatoru olmaqla yanaşı, C.Cəfərov 2000-2001-ci illərdə Fulbrayt proqramının qalibi kimi Nyu-York Universitetinin Dövlət İdarəçiliyi Məktəbində tədqiqatçı alim vəzifəsində də çalışmış, BMT-nin mərkəzi qərargahında "Elektron hökumət" layihəsinin icraçılarından biri olmuşdur.

C.Cəfərovun yüksək təşkilatçılıq keyfiyyətləri, prinsipiallığı, işgüzarlığı, yeniliyə və təşəbbüskarlığa münbit şərait yaratması ölkə rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir. Belə ki, o, 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə yenicə yaradılmış, ölkəmizdə turizm sahəsində yeganə dövlət təhsil, tədqiqat və təlim mərkəzi kimi ixtisaslaşan Azərbaycan Turizm İnstitutunun (2014-cü ildən Turizm və Menecment Universiteti) rektoru vəzifəsinə təyin olunur. Cəfər müəllimin səyləri nəticəsində institutda qısa müddətdə sağlam və şəffaf daxili mühit, ciddi nizam-intizama malik olan keyfiyyətli tədris sistemi formalaşır, ali məktəb innovativ ideya və təşəbbüslərə açıq olan, yüksəkreytinqli təhsil müəssisəsinə çevrilir.

C.Cəfərov fəaliyyətinin ilk günlərindən təhsil sahəsində beynəlxalq əməkdaşlığa böyük önəm vermişdir. Belə ki, 2007-ci ildə ölkənin təhsil tarixində ilk dəfə olaraq Azərbaycan Turizm İnstitutu (ATİ) və Avstriyanın İMC Krems Tətbiqi Elmlər Universiteti arasında bakalavr təhsil pilləsi üzrə akademik ikili diplom müqaviləsi imzalanmışdır. Müqavilənin şərtlərinə görə, tələbələr bir il ATİ-də milli proqram, üç tədris ili ərzində isə ingilis dilində beynəlxalq proqram üzrə təhsil alır və hər iki ali təhsil müəssisəsinin diplomlarını əldə edirdilər. Həmin diplomlara yiyələnmiş məzunlara dünyanın istənilən ölkəsində nüfuzlu turizm müəssisələrində çalışmaq imkanı verilirdi. Bu gün də bu proqramı başa vuran yüzlərlə məzun istər Azərbaycanda, istərsə də dünyanın müxtəlif ölkələrində uğurla fəaliyyət göstərir.

Bakalavr səviyyəsində davam edən əməkdaşlığa əsaslanaraq, 2011-ci ilin oktyabr ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Avstriya Respublikasının Federal Prezidenti cənab Haynts Fişerin iştirakı ilə Azərbaycan Turizm İnstitutu və Avstriyanın İMC Krems Tətbiqi Elmlər Universiteti arasında magistratura səviyyəsində tədrisin təşkilini nəzərdə tutan əməkdaşlıq sazişi imzalanmış, bununla da müvafiq proqram artıq həm də magistratura piləsində tətbiq olunmağa başlamışdır.

C.Cəfərovun təşəbbüsü ilə ATİ 2007-ci ildən etibarən Avropa İttifaqının Erasmus-Mundus Xarici Əməkdaşlıq Pəncərə Proqramının qalibi kimi fəal şəkildə mübadilə proqramlarına qoşulmuşdur. İnstitutun tələbə və müəllimləri proqram çərçivəsində Böyük Britaniya, İtaliya, Yunanıstan, Portuqaliya, Latviya, Fransa və Bolqarıstanın ali təhsil müəssisələrində müxtəlif müddətli tədris, ixtisasartırma və təcrübə mübadiləsi layihələrində iştirak etmişlər. İsrailin, Türkiyənin, Almaniyanın müvafiq turizm təşkilatları ilə əldə edilmiş razılıqlara əsasən ATİ-nin tələbələri 2008-ci ildən başlayaraq yay istehsalat təcrübələrini həmin ölkələrin qabaqcıl turizm müəssisələrində keçmək imkanı qazanmışlar.

İnkişaf etməkdə olan turizm sektorunun peşəkar xidməti personalla təmin edilməsi yönündə aparılan işlər nəticəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 dekabr 2011-ci il tarixli, 192 nömrəli Qərarı ilə ləğv edilmiş 11 nömrəli Bakı Peşə Liseyinin bazasında ATİ nəzdində Bakı Turizm Peşə Məktəbi yaradılmışdır. Bu gün də fəaliyyətini uğurla davam etdirən məktəb ölkənin turizm sektorunun peşəkar personal xidməti ilə təmin edilməsinə öz dəyərli töhfəsini verməkdədir.

Respublikamızda yeni istiqamət olan turizmi elmi-nəzəri cəhətdən daha da inkişaf etdirmək üçün Cəfər müəllim beynəlxalq turizm və təhsil yönümlü təşkilatlara üzv olmağa, onlarla sıx iş birliyi qurmağa xüsusi önəm vermişdir. 2011-ci ildə Azərbaycan Turizm İnstitutu Ümumdünya Turizm Təşkilatının "qoşulmuş üzvü" seçilmiş və ÜTT-nin təşkil etdiyi tədbirlərdə fəal iştirak etməyə başlamışdır. ATİ Avrasiya Universitetlərinin Beynəlxalq Assosiyasiyası, Xidmət üzrə Rusiya Ali Məktəblərinin Milli Elmi-Tədqiqi Texnoloji Konsorsiumu, Xəzəryanı Ölkələrin Dövlət Universitetlərinin Assosiasiyası, Qara Dəniz Hövzəsi Ölkələri Universitetlərinin Assosiasiyası, Avrasiya İpək Yolu Universitetlərinin Konvensiyası və bir sıra digər beynəlxalq qurumlara üzv olmuşdur.



10 il ATİ-yə uğurla rəhbərlik edən professor C. Cəfərov Prezident İlham Əliyevin 23 iyun 2016-cı il tarixli Sərəncamı ilə ölkənin ən qocaman, çoxsaylı kontingentə və geniş şəbəkəyə malik ali məktəblərindən birinə – Azərbaycan Dövlət Pedaqoji Universitetinə (ADPU) rektor təyin olunur.

C.Cəfərovun rəhbərliyi ilə universitet Azərbaycan Respublikası Prezidentinin 26 noyabr 2015-ci il tarixli Sərəncamına uyğun olaraq Azərbaycan Müəllimlər İnstitutunun ADPU-ya qoşulması və onun 5 filialının ADPU-nun filiallarına çevrilməsi prosesini uğurla tamamlamış, işçi heyətinin attestasiyasını keçirmişdir. Eyni zamanda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 fevral 2016-cı il tarixli Qərarı ilə Bakı Sənaye-Pedaqoji Kolleci Azərbaycan Dövlət Pedaqoji Kollecinə birləşdirilərək ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci kimi fəaliyyət göstəməyə başlamış, Azərbaycan Respublikası təhsil nazirinin 20 iyul 2016-cı il tarixli əmri ilə Bakı şəhərindəki Məmməd Rahim adına 7 nömrəli tam orta məktəb Pedaqoji Universitetin baza məktəbi kimi öz iş ahənginə qovuşmuşdur. 2016-2017-ci illərdə həyata keçirilmiş islahatlar, strateji planlaşdırma ilə bağlı aparılmış tədqiqatlar əsasında 100 illik yubileyədək dövrü əhatə edən "ADPU-2021" Strateji İnkişaf Planı işlənib hazırlanmış və Elmi Şuranın 14 sentyabr 2018-ci il tarixli iclasında təsdiq edilmişdir. Strateji İnkişaf Planında tədris və ümumi idarəçilik üzrə 102, elm və innovasiyalar üzrə 65, beynəlxalq əlaqələr və inkişaf sahəsi üzrə 34, inzibati və iqtisadi sahələr üzrə 32, sosial və humanitar sahələr üzrə 31 olmaqla, cəmi 264 bənddən ibarət tədbirlər nəzərdə tutulmuşdur. Universitetin bütün struktur bölmələri bu işlərin icrasına birbaşa məsul və köməkçi qurumlar kimi cəlb edilmişdir.

2016-2025-ci illər ərzində ADPU-da təhsilin keyfiyyətinin yaxşılaşdırılması, məzmunun yenilənməsi, professor-müəllim heyətinin səriştəsinin və tələbə məmnunluğunun artırılması, müəllimlərin işə qəbulu üzrə imtahanlarda məzunların nəticələrinin yüksəldilməsi, yeni magistr proqramlarının açılması, SABAH qruplarının genişləndirilməsi, SABAH magistratura proqramının və eksperimental qrupların yaradılması, yeni innovativ layihələrin reallaşdırılması, beynəlxalq əlaqələrin inkişaf etdirilməsi, ABŞ-ın Corc Vaşinqton Universiteti ilə "Təhsil siyasəti və idarəetməsi" üzrə ikili diplom magistr proqramının həyata keçirilməsi, yeni nəsil təhsil proqramlarının tətbiqi, professor-müəllim heyətinin performans qiymətləndirmə sisteminə keçirilməsi, əməkdaşlarının yaş tərkibinin tənzimlənməsi, gənc alimlərin irəli çəkilməsi və s. istiqamətlərdə effektiv tədbirlər görülmüşdür.

2010-cu ildə tarix üzrə elmlər doktoru elmi dərəcəsi, 2013-cü ildə professor elmi adı alan Cəfər müəllimin bu şərəfli və məsuliyyətli vəzifəni yüksək səviyyədə icra etməsinə, təbii ki, heç kimin şübhəsi olmamışdır. Çünki onun iş üslubunda islahatlara, yeniliyə, təşəbbüskarlığa, modernləşməyə, şəffaflığa və mütərəqqi düşüncələrə geniş yer verilir. Cəfər müəllimin hədəflərində dövlətin və cəmiyyətin tələbatına uyğun yüksəkixtisaslı kadrlar hazırlamaqla yanaşı, müasir dünyagörüşünə malik, Vətənini və xalqını sevən vətənpərvər ruhlu gənclər yetişdirməkdə əsas məsələlərdən biri kimi dayanır. Bu məqsədlə Pedaqoji Universitetdə çoxsaylı konfranslar, seminarlar, beynəlxalq tədbirlər və görüşlər keçirilir, ən son yeniliklərin, pedaqoji nailiyyətlərin geniş müzakirəsi təşkil edilərək tədrisin səmərələşdirilməsi istiqamətində daim axtarışlar aparılır.

Son dövrlərdə ADPU-da həyata keçirilən islahatlar, yazılı və hibrid imtahan sistemlərinin tətbiqi, tədris proqramlarının daim yenilənməsi, infrastrukturun təkmilləşdirilməsi, praktik-laborator imkanların artırılması həm qəbul imtahanlarında yüksək nəticə göstərən abituriyentlərin universitetə cəlb olunmalarında, həm də müəllimlərin işə qəbulu (MİQ) imtahanlarında məzunların yüksək nəticələr əldə etmələrində həlledici rol oynamışdır. Məmnunluq hissi ilə qeyd etmək olar ki, 2023/2024-cü tədris ili üzrə ADPU-dan məzun olan 2317 bakalavrdan 812 nəfəri Azərbaycanda, 72 nəfəri xaricdə magistraturaya qəbul olunub. 1063 məzun MİQ imtahanlarında iştirak edib ki, bunlardan 984 nəfəri müsabiqə mərhələsində iştirak etmək hüququ qazanıb, 551 nəfəri isə dövlət ümumtəhsil müəssisələrində işlə təmin edilib. Məzunlardan 142 nəfəri dövlət orqanlarında, 308 nəfəri isə özəl təhsil müəssisələrində işə qəbul olunub. Pedaqoji Universitetin 2024-cü ildə əmək bazarına çıxmış məzunlarının məşğulluğu 83,7 faiz, işləyən məzunların ixtisas üzrə məşğulluğu isə 85,8 faiz təşkil edib.

Dövlət Məşğulluq Agentliyi tərəfindən ali təhsil müəssisələri ilə əməkdaşlıq əsasında hazırlanan "Məzunların məşğulluq reytinqi" platformasının təqdim etdiyi məlumatlara görə, ADPU məzunların işlə təmin olunması üzrə ölkə universitetləri arasında öncül yerlərdədir. Belə ki, 2018-2021-ci illər üzrə məzunların işlə təmin olunmasının ümumi orta statistikasına görə, ADPU ali təhsil müəssisələri arasında 4-cü yeri tutub. Həmçinin 2023-cü il ərzində Dövlət İmtahan Mərkəzinin dövlət qulluğunun inzibati vəzifələrinin tutulması məqsədilə keçirdiyi test imtahanlarında sertifikat alan namizədlərin təhsil aldığı ali məktəblər üzrə nəticələrə əsasən ADPU yenə də dördüncü yerdə qərarlaşıb. Qeyd olunan nəticələri əldə etmək sırf pedaqoji kadr hazırlığı üzrə ixtisaslaşmış ali təhsil müəssisəsi üçün ciddi uğur hesab oluna bilər.

C.Cəfərovun diqqət yetirdiyi ən mühüm məsələlərdən biri də professor-müəllim heyətinin elmi-tədqiqatlarının nəticələrinin beynəlxalq elmmetrik bazalarda indekslənən nüfuzlu jurnallarda dərc olunmasını daha da artırmaq, universitetin beynəlxalq reytinqlərdə layiqli yer tutmasına nail olmaqdır. Bu məqsədlə Pedaqoji Universitetdə, onun bütün filiallarında və kollecdə professor-müəllim heyətinin reytinq qiymətləndirilməsi sistemi tətbiq olunur, aparılan tədqiqatlara, onların nəticələrinin nüfuzlu və impakt faktorlu jurnallarda dərcinə görə əməkdaşların əməkhaqqına stimullaşdırıcı əlavələr ödənilir. Bütün bunların nəticəsidir ki, ADPU 2016-2018-ci illərdə elm sahəsindəki uğurlarına görə "Web of Science" elmi bazasının "Ən mütərəqqi Universitet" mükafatına layiq görülüb. 2019-2023-cü illərdə "Web of Science" elmmetrik bazasında ən çox elmi işi dərc olunan ali təhsil müəssisələri arasında ADPU-nun 4-cü yerdə olması da kifayət qədər qürurvericidir.



Elm və Təhsil Nazirliyinin Akkreditasiya Şurasının 8 iyun 2023-cü il 1 nömrəli qərarı ilə Azərbaycan Dövlət Pedaqoji Universiteti 5 il müddətinə akkreditasiya olunmuşdur.

ADPU qarşıdakı 5 ildə "Ənənələrə sadiq, yeniliklərə açıq" devizi ilə yüksək keyfiyyətli təhsil ocağına, idarəetmədə, tədris və elmi araşdırmalarda rəqəmsallaşdırmanı və beynəlmilləşməni geniş tətbiq edən, sosial məsuliyyətliliyi yüksəldən, çevik və dayanıqlı tədqiqat universitetinə çevrilməyi hədəfləyir.

Ümumiyyətlə, son dövrlərdə universitetin əldə etdiyi nailiyyətləri nəzərdən keçirərkən rektor C.Cəfərovun islahatçı, fədakar, nümunə götürüləcək, Vətənini və millətini sevən dəyərli bir təhsil qurucusu, ziyalı olduğu aydın görünür. Dövlətimiz tərəfindən Cəfər müəlimin əməyi yüksək qiymətləndirilmiş, o, "Şöhrət" ordeni və bir sıra medallarla təltif olunmuşdur.

100 illik yubileyini arxada qoymuş, ciddi islahatlarla yeni uğurlara doğru gedən ADPU dünyada və ölkədə baş verən prosesləri, davamlı inkişaf məqsədlərini, rəqəmsallaşmanı, beynəlmiləlləşdirmə tendensiyalarını, rəqabətliliyi, Azərbaycan Respublikasının öz torpaqlarını işğaldan azad etməsini, dövlət suverenliyinin tam bərqərar olunmasını nəzərə alaraq gənc nəslin təhsil və tərbiyəsini əsas vəzifə kimi hədəfləmişdir. Bu tarixi missiya ölkədə pedaqoji kadr hazırlığının 35 faizini həyata keçirən Azərbaycan Dövlət Pedaqoji Universitetində, onun 5 filialında və nəzdindəki Pedaqoji Kollecdə uğurla reallaşdırılır.

Belə şərəfli missiyanın daşıyıcısı olan professor Cəfər Cəfərovu 65 illik yubileyi münasibətilə təbrik edir, çətin və məsuliyyətli işində ona yeni nailiyyətlər arzulayırıq.

*Rafail ƏHMƏDLİ,*
*fəlsəfə elmləri doktoru, professor*

## Xuntaçıların məhkəməsi





# Ruben Vardanyanın əməlləri soydaşlarımıza faciələr yaşadıb

**Azərbaycan Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi aprelin 15-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Məhkəmə prosesi zərərçəkmiş şəxslərin dindirilməsi ilə davam etdirilib.

Zeynal Ağayev dindirmədən əvvəl zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmədə zərərçəkmiş şəxslər İlqar Orucov, Mərdan Musayev, Anar Alıyev, Xəzri Əhmədov, Həsən Əliyev, Elşad Əhmədov, Fərid İlyaszadə, Təbriz Ramazanov, Saleh Həsənov, Cavid Mehdizadə, Əzizağa Qarayev, Nəriman İbrahimov və digərləri Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin müxtəlif istiqamətlərdə təxribatları zamanı yaralandıqlarını bildiriblər.

Zərərçəkmişlərdən Elvin Məmmədli ifadəsində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən törədilən təxribat nəticəsində yaralanmış əsgəri sanitar maşınla təxliyə edərkən özünün də yaralandığını bildirib. O, sanitar maşının üzərində uzaqdan görünən qırmızı aypara işarəsi olmasına baxmayaraq, tankəleyhinə silahla vurulduğunu deyib.

Nizami Baxşəliyev dövlət ittihamçısı Fuad Musayevin suallarına cavab olaraq ön xətdən 7-8 kilometr geridə olarkən qarşı tərəfin atəşi nəticəsində yaralandığını bildirib və deyib: “Onların məqsədi torpaqları işğal etmək idi”.

Ülvi Süleymanov isə özünün yaralandığını, döyüş yoldaşının isə şəhid olduğunu qeyd edərək bildirib: “Döyüş yoldaşlarımdan biri qucağımda can verdi”.

İmran Həsənli isə dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zaman Ağdərə rayonunun Sırxavənd kəndində partlayış nəticəsində qrup komandiri ilə eyni vaxtda yaralandığını deyib.

Tural Məmmədzadə də Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən törədilən hərbi təxribat zamanı artilleriya atəşi nəticəsində Ağdamda qəlpə yarası aldığını söyləyib.

Anar Rəhimli dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavab verərkən Ağdam rayonunun Yeddixırman ərazisində mülki şəxs kimi öz vəzifəsini icra edən zaman yaralandığını diqqətə çatdırıb. “Ermənistanın qanunsuz silahlı birləşməsinə rast gəldik. Onlar bizim avtomobili atəşə tutdular. Mən sol qolumdan güllə yarası aldım”, – deyə o əlavə edib. Bildirib ki, nəticədə onun qolu sınıb, avtomobilin aşması nəticəsində isə sağ əlindən də sınıq xəsarəti alıb.



“Həmin vaxt bizim yanımızda hərbçilərimiz yox idi. Biz onları görərkən geri qayıtmaq istədik. Geri qayıdanda bizi atəşə tutdular. Onların atəşi qorxutmaq üçün deyildi, davamlı atəş açırdılar”, – deyə o vurğulayıb.

Cavid Mehdizadə düşmənin Ağdamın Abdal-Gülablı kəndi istiqamətində təxribatı nəticəsində yaralandığını bildirib. O əlavə edib: “Yanımda iki döyüş yoldaşım şəhid oldu, bir neçə nəfər yaralandı. Xəsarət alarkən biz öz mövqeyimizdə idik. Qarşı tərəf mütəmadi olaraq təxribat törədirdi”.

Valeh Nuriyev də düşmən tərəfin təxribatı zamanı yaralandığını bildirib. Elşən İbrahimli Ağdamda snayper tüfəngindən açılan atəş nəticəsində yaralandığını söyləyib. Zərərçəkənlərin hər biri təqsirləndirilən şəxsə ən ağır cəzanın verilməsini məhkəmədən xahiş edib. Prosesdə, həmçinin məhkəmə-tibbi ekspertizanın rəyləri açıqlanıb. Məhkəmənin növbəti iclası aprelin 22-nə təyin olunub.

***XQ***

# İtirilmiş yurdun yadigarları

## *Sumqayıtdakı “Didərgin muzey” Qərbi Azərbaycan nisgilinə ayna tutur*

**Əslən Qərbi Azərbaycanın Qafan rayonunun Həçəti kəndindənəm. 1957-ci il avqustun 18-də anadan olmuşam. 1981-ci ilə qədər doğulduğum kənddə, sonra isə iş yerimlə əlaqədar Qafan şəhərinə yaxın Zeyvə qəsəbəsində yaşamışam. Kəndimiz Kiçik Qafqaz dağlarının ətəyində yerləşirdi. Hər tərəf sıx meşələrlə örtülmüşdü. Kəndimizdə çox qədim Alban qəbiristanlığı, Alban kilsəsi vardı. Bu kəndin əhalisi, əsasən, maldarlıqla məşğul olurdu. Kənd Qafan rayonunun mərkəzindən 30 kilometr şimal-qərbdə yerləşirdi.**

1905-1918-ci, eləcə də 1948-1956-cı illərdə ermənilər Qafan rayonunda yerləşən Azərbaycan kəndlərinə hücumlar etmişdilər. Əhali özünü qorumaq məqsədilə bu əraziyə yaxın olan Naxçıvan Muxtar Respublikasına və Qubadlı-Zəngilan bölgəsinə pənah aparmışdı. Yaşlı nəslin danışdığına görə, onlar yalnız erməni talanları qurtardıqdan sonra yenidən öz yurdlarına qayıtmışdılar.

1988-ci ildə isə ermənilər yenidən Qafanda, eləcə də bura yaxın olan Qacaran şəhərində azərbaycanlılara qarşı mitinqlər keçirməyə başladılar. Mitinqlərdə əsas mövzu “Qarabağ bizimdir” şüarı idi. Biz bu ideyanın ilk öncə nədən ibarət olduğunu başa düşmürdük. Erməni millətçiləri şəhər və kəndlərdə yaşayan həmvətənlərimizə hücum edir, iş yerlərində, şəhərlərin küçə və meydanlarında soydaşlarımıza qarşı görünməmiş vəhşiliklər törədirdilər. Onlar azərbaycanlılardan şəhəri təcili tərk etmələrini tələb edirdilər. Bu tələbin qarşısında aciz qalmayan azərbaycanlılar onlara layiqli cavab verdikdə, bu, böyük silahlı toqquşmalara gətirib çıxarırdı. Nəticədə həmyerlilərimizin günahsız qanı tökülür, onlar əsassız yerə həbs olunur və mülkləri yandırılırdı. Yerli hökumət orqanları tərəfindən müdafiə olunmayan azərbaycanlılar məcburi surətdə doğulub boya–başa çatdıqları torpağı tərk edirdilər.



Belə bir ağır taleyi yaşamaq mənim də bəxtimə düşmüşdür. Belə ki, mən öz doğma vətənimi tərk edərkən ev əşyalarımdan heç bir şey gətirə bilmədim. Amma əvəzində Zəngəzurla bağlı çox sayda muzey eksponatı gətirdim. O zaman Qafan rayonu 21 nömrəli texniki-peşə məktəbində müəllim işləyirdim. Hər gün işimlə əlaqədar Qafan şəhərində olurdum. Bir gün işdən çıxıb gələrkən ermənilər məni avtobusa mindirməyə qoymadılar. Mənə əl-qol atdılar və hədələdilər:

– Bu gün səni öldürmürük, get evinə, onsuz da sizin yaşadığınız qəsəbəni bütövlüklə yandıracağıq.

Məni təhqir edən, təpikləyən ermənilərdən canımı qutarıb evə gəldim. Ev əşyalarımı daşımağı ağlıma belə gətirmirdim. Müəllim işlədiyim Müsəlləm kənd 8 illik məktəbinə getdim. Uzun illər burada sevə-sevə topladığım eksponatları qonşunun yük maşınında mənzilimə gətirdim. Oradan isə bu əşyaları böyük bir çətinliklə də olsa, Azərbaycana keçirə bildim. Bu gün həmin eksponantlar Sumqayıt Şəhər Tarix-Diyarşünaslıq Muzeyində “Didərgin muzey” adı ilə bir guşədə yerləşdirilmişdir.



1993-cü il dekabrın 28-də ulu öndərimiz Heydər Əliyev yenidən hakimiyyətə gələndən sonra Sumqayıta səfər etmişdi. O zaman mən dahi şəxsiyyəti muzeyin girişində qarşılayanlardan biri olmuşam və “Didərgin muzey”lə bağlı, təxminən, iyirmi dəqiqə Ulu öndərə məlumat vermişəm.

Ev əşyalarımın yerinə Zəngəzurun tarixi ilə bağlı 350-dən artıq eksponatı gətirdiyimi biləndə Ulu öndər təşəkkür etdi. Mən tezliklə Sumqayıt Şəhər İcra Hakimiyyətində işə qəbul olundum. Həmin vaxtdan 2006-cı il iyunun 1-dək şəhər icra hakimiyyətinin ərazi idarəetmə orqanları ilə iş şöbəsində baş məsləhətçi vəzifəsində işləmişəm.

Hazırda Sumqayıt şəhər 39 nömrəli tam orta məktəbin direktoru vəzifəsində çalışıram.

***Bəxşeyiş ƏLƏMŞAHOV***


# Ləğv prosesində olan “Dəmirbank” ASC-nin kreditorlarının diqqətinə!




Əmanətlərin Sığortalanması Fondu ləğv prosesində olan "Dəmirbank" ASC-nin kreditorlarının diqqətinə çatdırır ki, növbəlikdə sonuncu sırada olan təminatsız kreditorların tələblərinin növbəti ödənişi 16 aprel 2025-ci il tarixdən etibarən başlayacaqdır.

Tələblərin ödənişi nağdsız qaydada həyata keçiriləcəkdir.

Kreditorlardan xahiş olunur ki, tələblərin ödənişi ilə bağlı Əmanətlərin Sığortalanması Fondunun Bakı şəhəri, Babək prospekti 16 ünvanında yerləşən binasına müvafiq sənədlərlə müraciət edərək ödəniş üçün bank rekvizitlərini təqdim etsinlər.

Əlavə məlumat almaq üçün ünvan və əlaqə nömrələri:
Bakı şəhəri
Babək prospekti 16
Qaynar xətt: (+994) 941

AMEA – 80

# Dünya şöhrətli Cavadzadə



**AMEA Lənkəran Regional Elmi Mərkəzi və Lənkəran Şəhər Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə AMEA-nın 80 illiyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində "Regionun görkəmli alimləri: akademik Mirməmməd Cavadzadənin həyat və elmi fəaliyyəti" mövzusunda elmi seminar keçirilib.**

"Xəstəni həyata qaytaran həkim onun üçün ən doğma adamdır". Bu sözlərin müəllifi, şəxsiyyəti və xatirəsi şəfa verdiyi minlərlə insan üçün əziz olan məşhur cərrah Mirməmməd Cavadzadə Azərbaycan tibb elminin korifeyləri sırasında özünəməxsus yer tutur. Lənkəran ictimaiyyəti nümayəndələrinin, elm adamlarının, ziyalıların, Lənkəran Tibb Kollecinin müəllim və tələbələrinin iştirak etdikləri seminarda görkəmli alimin həyatı və elmi fəaliyyəti ilə bağlı nümayiş olunan videoçarxın kadrları bu qənaəti bir daha təsdiqlədi. Tədbiri REM-in direktoru Mehman Əliyev açaraq dedi ki, Ulu öndərin sədaqətli dostlarından biri – AMEA-nın həqiqi üzvü, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, respublikamızda uroloji məktəbin yaradıcısı Mirməmməd Cavadzadə milli tibb elminin və praktik səhiyyənin inkişafına əvəzsiz töhfələr vermiş şəxsiyyət olub.

Sonra M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanasının həkim-uroloqu, tibb üzrə fəlsəfə doktoru Əliməmməd Bağırovun "Akademik Mirməmməd Cavadzadənin Azərbaycan tibb elminə verdiyi töhfələr" və Lənkəran Rayon Mərkəzi Xəstəxanasının həkim-uroloqu Qabil Bəşirovun "Akademik Mirməmməd Cavadzadənin uroloji sahəyə gətirdiyi yeniliklər" mövzularında məruzələri dinlənildi. Bildirildi ki, M.Cavadzadə 1927-ci ilin yazında "Cənub mirvarisi" Lənkəranda anadan olmuş, burada orta məktəbi bitirmiş, sonra Azərbaycan Dövlət Tibb İnstitutunda və İkinci Moskva Dövlət Tibb İnstitutunun urologiya kafedrasında təhsil almışdır. Hələ gənc yaşlarında həkimlik istedadı ilə həmkarları arasında seçilən M.Cavadzadə çox keçmədən uroloq-alim kimi şöhrət qazandı. Təsadüfi deyil ki, Azərbaycan səhiyyəsində böyrək xəstəliklərinin profilaktikası problemlərinin həllindən, urologiyanın inkişafından söz düşəndə, ilk növbədə, mərhum akademik Mirməmməd Cavadzadə xatırlanır. Təbabətin bu sahəsində institut və elmi mərkəz yaradılması, kafedra və şöbələrin açılması, hemodializ, mürəkkəb böyrək əməliyyatlarının aparılması məhz onun elmi axtarışlarının və misilsiz zəhmətinin bəhrəsidir.

Müzakirələrdə Əməkdar müəllim, hüquq elmləri doktoru, professor İbrahim Quliyev, Lənkəran Tibb Kollecinin direktoru, tibb üzrə fəlsəfə doktoru Mübariz Mustafayev, M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanasının baş həkimi Nicat Kərimov, tarix üzrə fəlsəfə doktoru Teyyub Nəsirov və başqaları iştirak etdilər. Qeyd olundu ki, ötən əsrin 50-ci illərindən urologiyanın qlobal və təxirəsalınmaz problemlərinin həlli yollarının axtarışına çıxan gənc alim bu sahənin inkişafını anesteziologiya-reanimotologiya ilə əlaqələndirirdi. O, urologiya təcrübəsində ilk dəfə olaraq prostat vəzi və sidik kisəsində cərrahi əməliyyat zamanı çanaq sümükdaxili anesteziya tətbiq edib. Gərgin axtarışlar nəticəsində belə bır qənaətə gəlib ki, uroloji əməliyyatların geniş spektrinə yalnız birdəfəlik seçilmiş anestezioloji təminat vermək mümkün deyil. Xəstələrin vəziyyətindən və cərrahi müdaxilənin spesifik xüsusiyyətlərindən asılı olaraq, ağrısızlaşdırmanın daha əlverişli üsullarından istifadə edilə bilər.

Görkəmli uroloq-alimin təşəbbüsü ilə 1966-cı ildə Bakıda Respublika Uroloji Xəstəxanası yaradılıb. 1971-ci ildə onun rəhbərliyi ilə Cənubi Qafqazda ilk dəfə böyrək köçürülməsi əməliyyatı həyata keçirilib. Bir neçə il ərzində o özü uğurla 30 belə əməliyyat aparıb. Ulu öndər Heydər Əliyev 1974-cü ildə M.Cavadzadəni Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutuna direktor təyin edib və o, ömrünün sonunadək bu institutun rəhbəri olub. O, urologiyanın problemlərinə həsr edilmiş 34 monoqrafiya və dərs vəsaitinin, 700-dən artıq elmi məqalənin müəllifidir. Alimin əsərləri respublikamızın hüdudlarından kənarda da yüksək qiymətləndirilib. O, keçmiş SSRİ Tibb Akademiyasının müxbir üzvü, Avropa və Beynəlxalq uroloqlar cəmiyyətlərinin üzvü, Çexiyanın və Bolqarıstanın uroloqlar cəmiyyətlərinin fəxri üzvü idi. Onun müəllimi məşhur uroloq Anton Pıtel Cavadzadənin işlədiyi xəstəxananı "uroloji fikirlər ocağı" adlandırmışdı.

Xatırlandı ki, analitik təfəkkürə, fenomenal yaddaşa və xüsusi təşkilatçılıq bacarığına malik olan Mirməmməd Cavadzadənin rəhbərliyi ilə 51 elmlər doktoru, 152 elmlər namizədi, yüzlərlə yüksək ixtisaslı uroloq-həkim yetişib. Dünya şöhrətli akademik respublikamızda ictimai xadim kimi də yaxşı tanınıb, dörd çağırış Ali Sovetin deputatı olub, Azərbaycan–Fransa Dostluq Cəmiyyətinin, digər ictimai birlik və qurumların sədri kimi səmərəli fəaliyyət göstərib. Mirməmməd Cavadzadənin xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilib, keçmiş SSRİ və Azərbaycan Dövlət mükafatlarına, "Şöhrət" və "İstiqlal"ordenlərinə layiq görülmüş akademik 2008-ci ildə dünyasını dəyişib və Bakıda 1-ci Fəxri Xiyabanda dəfn olunub.

Seminarın sonunda akademikin oğlu, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun urologiya kafedrasının müdiri, professor Samir Cavadzadə çıxış edərək atasının xatirəsinin əziz tutulduğuna görə minnətdarlığını bildirdi.

***Ə.NƏCƏFXANLI***
***XQ***

# "YARAT" "Bir zamanlar dəniz" rəsmlərini təqdim edir





**Dünən "YARAT" Müasir İncəsənət Mərkəzinin XX–XXI əsrlər Azərbaycan Rəngkarlığı Muzeyində "Bir zamanlar dəniz" adlı qrup sərgisinin açılışı olub. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və "YARAT" Müasir İncəsənət Məkanının təsisçisi, rəssam Aida Mahmudova sərgi ilə tanış olublar.**



Ekspozisiyada Nadir Eminov, Baba Əliyev, Müseyib Əmirov, Ənvər Əsgərov, Lətif Feyzullayev, Hüseyn Haqverdiyev, Mirnaib Həsənoğlu, Gündüz Hunlar, Zakir Hüseynov, Fərhad Xəlilov, Fikrət İbrahimli, Ülviyyə İman, Nadir Qasımov, Novruz Məmmədov, Oqtay Mirqasımov, Aleksandr Mişon, Elvin Nəbizadə, Elnarə Nəsirli, Maral Rəhmanzadə, Rais Rəsulzadə, Əli Rza, Aliya Bayramova & Timur Zaripov, Mirnadir Zeynalov və CHINGIZ kimi müxtəlif nəsillərə mənsub sənətçilərin rəngkarlıq, qrafika, fotoqrafiya, video və instalyasiya janrlarında əsərləri nümayiş olunur.

Sərgi çərçivəsində kurator və yazıçı Dərya Yücel, müstəqil kurator və "Artcom" platformasının təsisçisi Aigerim Kapar və rəssam CHINGIZ-in iştirakı ilə "Xəzər dənizinin kölgəsi" mövzusuna həsr olunmuş panel müzakirə də aparılıb.

Sonda Xalq artisti Oqtay Mirqasımovun 1965-ci ildə ekranlaşdırdığı "Dəniz" adlı sənədli film nümayiş olunub.

Nümayişdən əvvəl çıxış edən Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev qeyd edib ki, ötən əsrin 60-cı illərində sənədli filmlərə yeni nəfəs gətirən nümunələr meydana çıxmışdı. Bu filmlərin özünəməxsus poetik dünyası var. "Dəniz" filmi də məhz bu dövrün məhsuludur. Ekran əsərinin çoxulduzlu aktyor heyətinə məxsus olduğunu diqqətə çatdıran C.Quliyev deyib: "Ekran əsəri cəmi 17 dəqiqə davam edir və dialoqdan istifadə olunmur. Sadəcə, musiqi və səslərlə müşayiət olunur. Musiqi isə əsasən dənizi təsvir edir və onun ovqatını ötürür".





Sərginin kuratoru Zəhra Məmmədova mediaya açıqlamasında bildirib ki, sərgi Xəzər dənizi ilə onun ətrafında əsrlər boyu yaşayan insanlar arasında formalaşmış psixoloji, mədəni və arxetipik əlaqələri araşdırır. O, sərginin əsas ideyasının havaylı tədqiqatçı Karin İnqersoll tərəfindən irəli sürülmüş "dəniz epistemologiyası" anlayışına istinad etdiyini vurğulayaraq qeyd edib ki, ekspozisiya dənizlə həm tarixi, həm də müasir perspektivdən tanışlığı təklif edir. Müasir sənətçilər Xəzəri incə və intim bir məkan kimi təsvir edirlər.

***T.RÜSTƏMLİ***
***XQ***

# Bakı məktəblisi NASA layihəsi qazanıb



**Bu gün böyüyən nəsil üçün təhsil yalnız dərs kitablarından ibarət deyil. Onlar müxtəlif biliklərin mənimsənilməsinə fərqli yanaşır, özlərini inkişaf etdirmək üçün alternativ mənbələrdən istifadə edirlər. Müsahiblərimiz zamanın çağırışlarına öz zəkalarına güvənərək cavab verməkdə qətiyyətli olan yaradıcı gənclərimizdən ikisi – "LANDAU School" məktəbinin 11-ci sinif şagirdləri Səbinə Abışova və Yusuf Kərimlidir.**

***– Əvvəlcə, özünüz, maraq dairəniz, gələcək planlarınız haqqında danışın.***

**Səbinə Abışova:**

– 16 yaşım var. Tibb sahəsinə marağım böyükdür və təhsilimi də bu istiqamətdə davam etdirmək istəyirəm.

**Yusuf Kərimli:**

– Marağım aerokosmik və aviasiya sahələrinədir, təhsil planlarım da bu istiqamətdədir. Elm, mühəndislik, riyaziyyat, kritik düşüncə və xüsusi inklüziv mühitdə olan gənclər üçün müxtəlif layihələr təşkil edirik.

***– Sosial mediada sizin təşkil etdiyiniz Beynəlxalq Aerokosmik və Rəqəmsal İnnovasiyalar Forumu barədə xəbərlər yayıldı. Bu forum ölkədə ilk dəfə idi keçirilirdi. Necə oldu ki, bu baş tutdu?***

**Yusuf Kərimli:**

– Azərbaycan artıq kosmik tədqiqatlar istiqamətində tədbirlərin məkanına çevrilib. Ötən ilin oktyabrında Bakıda keçirilən "NASA Space Apps Challenge" tədbiri də gənclərin bu sahədə söz sahibi olmasına imkan yaratdı. Topladığımız təcrübələr, tədqiqatlarım ona imkan verdi ki, belə bir forumu Azərbaycanda keçirək. Bu ideyanı irəli sürəndə bizə inananlar da, inanmayanlar da var idi. Təsəvvür edin, 15 yaşında uşaqlar ölkəmizdə heç vaxt keçirilməyən beynəlxalq aerokosmik və rəqəmsal informasiyalarla bağlı forum təşkil edirlər. Nəhayət, bu ilin fevralında tədbirimiz baş tutdu. 5 paneldə 19 yaşdan aşağı yeniyetmələrin moderatorluğu ilə fərqli və maraqlı mövzularda gənclərin qarşısına çıxdıq.

**Səbinə Abışova:**

– Forumun əsas məqsədi aerokosmik və rəqəmsal innovasiyalara marağı olan gəncləri bir araya toplamaq və məlumatlar vermək idi. İşin əvvəlindən bilirdik ki, bizə dəstək göstəriləcək. Çünki 15-16 yaşındakı uşaqlar bu ağır yükü dəstəksiz həyata keçirə bilməz. İlk növbədə, kommunikasiyaların qurulması ilə başladıq. Belə ki, bir çox yerli və beynəlxalq dövlət və özəl qurumlara elektron müraciət ünvanladıq. Onlardan cəmi 6-sı bizə dəstək oldu. Bunların arasında Britaniya səfirliyi, "Nargis" fondu, "Azərcosmos" kimi qurum və təşkilatlar var idi. Orta və ali təhsil müəssisələrinə də müraciət etdik ki, marağı olan gənclər iştirak etmək üçün foruma qatıla bilərlər.

***– Yusuf, bir xəbərdə oxudum ki, sizi ABŞ Aviasiya və Kosmos Agentliyi (NASA) nümayəndəliyinə üzv seçiblər. Həmçinin NASA-nın Bakıda keçirilmiş tədbirinin təşkilatçısı olmusunuz. Üzvlüyünüz hansı kriteriyalara görə olub?***

– Hər il NASA-nın "Space Apps" qlobal miqyaslı hakatonu keçirilir. Keçən il orada dünyanın 185 ölkəsindən 60 mindən çox şagird və tələbə iştirak etmişdi. Bu hakaton dünyanın, 80 ölkəsində təşkil olunur. Əsas məqsəd NASA-nın qarşıya qoyduğu problemlərdən birinin həllini tapmaqdır. Bunun üçün iştirakçılar müxtəlif sahələrdən istedadlı insanlarla üz-üzə gəlir, bu mövzuları onlarla birgə araşdırmaq imkanı əldə edirlər. Nəticədə, gənclərin ideyaları startaplara çevrilir, daha da inkişaf etdirilərək həyata keçirilməsinə dəstək göstərilir. Mən də bu hakatona qoşulmaq üçün tədqiqatlarımın mövzusunu və digər məlumatlarımı göndərdim. 1 aydan sonra NASA-dan müsbət geridönüş etdilər. Beləcə, NASA-nın bir layihəsini Bakıda təsis etmək imkanı qazandım və ölkəmiz üzrə nümayəndə seçildim.

**Səbinə Abışova:**

– Biz müxtəlif sərgilərdə, təlimlərdə təmsil olunuruq və hətta özümüz təşkil edirik. Fəaliyyətimizin uğurla başa çatmasında hər zaman dövlət qurumlarının dəstəyini görə bilirik. Yusufun fikirlərinə əlavə olaraq, bizə dəstək olan qurumlardan Rəqəmsal İnkişaf və Nəqliyyat, Gənclər və İdman, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin adlarını çəkə bilərəm.

***– Siz həm də ictimai fəaliyyət göstərirsiniz. Hətta bir qədər də irəli gedərək cəmiyyət yaratmısınız.***

**Yusuf Kərimli:**

– Elədir. Bu işlərə 2023-cü ilin yayında başladıq. Məqsədimiz xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum, təhsildə inklüzivliyi zəif uşaqlara kömək etməkdir. Maarifləndirici tədbirlərlə onların həyatına sevinc qatmaq istəyirik. Hazırda bizim müxtəlif yaşlarda könüllülərimiz var və onların sayəsində bir çox işlər görmüşük.

**Səbinə Abışova:**

– 30-a yaxın tədbir keçirmişik. Başlanğıcda bir qədər çətinliyimiz oldu. Poçt məktubları göndərərək dövlət və özəl qurumlardan maliyyə dəstəyi ala bildik. Hazırda kifayət qədər təcrübəmiz var və işlərimizin daha dayanıqlı və davamlı olması naminə birlikdə çalışırıq.

***– Yaşınızın az olmasına baxmayaraq, komandanız gənc nəslin inkişafı naminə hansısa işləri görməyə səy göstərir. Sizin kimi olmaq istəyən həmyaşıdlarınıza nə deyərdiniz?***

**Səbinə Abışova:**

– Gənclər heç vaxt ruhdan düşməsinlər. 1-ci, 2-ci, 3-cü dəfə alınmasa da, 4-cü, 5-ci dəfə mütləq alınacaq. Təhsilə ciddi maraq göstərsinlər – əsas olan budur.

**Yusuf Kərimli:**

– Gənclər heç bir təşkilatı, qurumu gözləməməlidirlər. Özləri qurumlara getməli, layihələrini təqdim etməlidirlər. Əsas odur ki, bizi görməlidirlər. Onda mütləq bizə inanan təşkilat, qurum və ya şəxs olacaq.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Qayıdışın akkordları

# Əlvida, köçkünlük, salam, doğma Cəbrayıl!

**Ömür kitablarının, təxminən, bir qərinəlik səhifələrinə didərginlik, doğulub-böyüdüyü ev-eşiyinin həsrəti ilə qovrulmaq yazılmış insanların taleləri bir-birinə çox oxşardır. Elə vaxtilə yaşadıqları ağrı-acıları, torpaqlarımız işğaldan azad edildikdən sonra keçirdikləri sonsuz sevinc duyğuları kimi...**



Bu yazımızın qəhrəmanı Xuraman Rəhimova da onlardan biridir. Onunla bu ilin fevralında, məcburi köçkünlük həyatının sona çatdığı, Cəbrayıla – doğma ata-baba yurduna qayıtdığı gün telefonda danışmışdıq. Yeni mənzillərinin açarını təzəcə almışdılar, ancaq hələ yükləri ortada idi. Necə deyərlər, elə "isti-isti" həyəcanını, sevincini qəzetimizin oxucuları ilə bölüşmüşdü.

Həmin vaxt həmsöhbətimə söz vermişdim ki, ev-eşiyinizə yerləşin, Vətənin havasını doyunca sinənizə çəkin, suyundan için, yolum o tərəflərə düşən kimi mütləq sizə baş çəkəcəyəm. Çünki azad Cəbrayılı ilk dəfə olaraq görmək mənim də arzum idi.

Sözümü tutdum, bugünlərdə Şərqi Zəngəzura səfərim zamanı yolumu yenidən qurulan, gündən-günə abadlaşan Cəbrayıldan saldım, 70 yaşlı Xuraman xanımgilin qapısını döydüm. Ev sahibi ilə mehribanlıqla "xoşgəldin" etdikdən sonra Cəbrayılın məşhur Çinar kəhrizinin suyundan hazırlanmış çay içə-içə söhbətə körpü salmağa başladıq...



Dörd bacı, üç qardaşın böyüyü olan Xuraman Rəhimova Cəbrayılda doğulub, burada boya-başa çatıb. Peşə məktəbində oxuyanda Məhərrəm İbrahimovla tanış olublar, nişanlanıb, ailə həyatı qurublar. Bərdəyə gəlin köçsə də, sözün əsl mənasında, doğma Cəbrayılından ayrı yaşaya bilməyib. Getdiyi yerin havası səhhətində problemlər yaradıb, həkim isə Məhərrəmə deyib ki, ya bunu boşa, ya başqa yerə apar. O da çox sevdiyi Xuramanı da götürüb yenidən Cəbrayıla qayıdıblar.

Həyat yoldaşı 1991-ci ildə dünyasını dəyişəndən sonra Xuraman xanım 3 övladına həm ana, həm də ata olub. 1993-cü ilin avqustunda Cəbrayıl Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunanda doğma yurdlarından didərgin düşüblər. Həmsöhbətim həmin günləri belə xatırladı:

– O müsibətləri Allah heç kimə göstərməsin, heç düşmənə də. Avqust istisindən asfalt od tutub yanırdı. Ev-eşiyini tərk etməli olan camaat maşını olan maşınla, olmayan payi-piyada yollara səpələnmişdi. Balaca uşaqların da qucaqlarında pal-paltar, yük vardı. Mən o qaçaqaçda özü at arabasına qoşulub vacib əşyalarını çıxarmağa çalışanları görmüşəm. Evimizin yanında Axsaqlar kəhrizi vardı. Getdim ordan bir çaydan su götürdüm ki, özümlə aparım. Sonra da qəbiristanlığa, yoldaşımın məzarına sarı boylandım, dedim, buralar sənə, övladlarımız da mənə əmanət! Ayrılanda dağlara üz tutdum, bir bayatı qopdu dilimdən:

**Dağ, salamat qal!**
**Bağ, salamat qal!**
**Biz gedər olduq,**
**Sağ-salamat qal!**

Məcburi köçkünlük həyatları Beyləqandan başlayıb, Kürdəmirdə, Bakıda davam edib, 31 il yarımdan sonra Biləsuvarda başa çatıb. 2020-ci il oktyabrın 4-də Prezident, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyev Cəbrayılın düşmən işğalından azad edilməsi xəbərini verəndə sevincdən ağlayıb.

Xuraman Rəhimova bu il fevralın 19-da yenidən, bu dəfə daimi məskunlaşmaq, 4 otaqlı, geniş, işıqlı, mətbəxi, hamamı, sanitar qovşağı hazır, yaxşı təmir olunmuş yeni evinin işığını yandırmaq üçün Cəbrayıla qayıdıb. Bəs indi hansı hisslər keçirir? Nələr yaşadığını belə anlatdı:

– Bu yerlərdən ağlaya-ağlaya çıxmışdım. Gələndə də ağladım. Çəkildim bir kənara, Cəbrayılın torpağını ovuclayıb öpdüm, yedim. Hönkür-hönkür sevinc göz yaşları tökdüm. Üzümü dağlara tutub bu dəfə dedim ki, salam olsun sizə, ay qoca dağlar! Salam olsun sənə, doğma Cəbrayılım! Salam olsun sizə, şəhidlərimizin ruhları! Biz qayıtdıq!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Cəbrayıl**

Sağlamlıq

# Yazda sular qaynayır, təzyiq isə "oynayır"

**Yaz ürək və qan damarları ilə bağlı təhlükənin artdığı fəsildir. Kardioloqların fikrincə, məhz yazda təzyiq böhranları, infarktlar daha çox müşahidə edilir. Bəs nə səbəbdən ilin bu fəsli ürək və qan damarları üçün qorxulu hesab edilir? Terapevt Məlahət Məmmədova XQ-yə açıqlamasında bu suala belə cavab verdi:**

– Yazda hava son dərəcə qeyri-sabit keçir. Adətən, səhər soyuq, gündüz isti, axşam isə yenidən soyuq ola bilir. Gün ərzində temperatur və atmosfer təzyiqindəki bu cür dəyişikliklər qan damarlarının tonuna təsir edərək onların daralmasına və ya əksinə, genişlənməsinə səbəb olur. Bunun da öz növbəsində, ürək-damar sisteminə əlavə stress yaratması və müxtəlif – hipertensif böhranlar (qan təzyiqində kəskin yüksəlmə), xroniki ürək çatmazlığının kəskinləşməsi kimi pozuntular yaratması mümkündür.

Qışdan sonra orqanizm ürək üçün vacib olan – qan təzyiqini və ürək ritmlərini tənzimləyən maqnezium, miokardın funksiyasını dəstəkləyən kalium, hipertoniya riski ilə əlaqələndirilən D vitamini, damarları iltihabdan qoruyan Omeqa-3 və digər maddələrin çatmazlığından əziyyət çəkir. Bu elementlərin azlığı qan damarlarının elastikliyini zəiflədir, stress və təzyiq dəyişikliklərinə daha həssas edir.

Yazda gündüz saatlarının artması ilə əlaqədar elə bil orqanizm yenidən qurulur. Xüsusilə, hormonların istehsalında əhəmiyyətli dəyişikliklər baş verir. Bu isə yuxunun keyfiyyətinə və sağlamlığın digər fizioloji əsaslarına təsir göstərir. Bədənin belə dəyişikliklərə uyğunlaşmaq üçün əlavə enerji sərf etməsi yorğunluğu artırır, əsəbilik, yuxu problemləri, həyəcan yaradır.

**Həkim onu da vurğuladı ki, məhz yaz aylarında hipertoniya, ateroskleroz, ürək-damar xəstəlikləri (KD) və şəkərli diabet xəstələri özlərini daha zəif, yorğun və gərgin hiss edirlər:**

– Bu patologiyalar temperatur və rütubət dəyişiklikləri ilə əlaqədar qan damarlarının spazmlara həssaslığını artırır, qan laxtalarının daha çox əmələ gəlməsinə səbəb olur və aritmiya yaradır.

Bahar istiliyinin gəlişi ilə bir çox insanlar iş yükünü kəskin şəkildə artırır. Məsələn, çalışmağa, idmanla məşğul olmağa və ya ümumi təmizliyə başlayırlar və açıq havada daha çox vaxt keçirirlər. Amma yadda saxlamaq lazımdır ki, belə vaxtlarda ürəyi və ya qan damarları sağlam olmayan bir insan qışda az hərəkət edirsə, qəfil yüklənmə və ya onların kəskin artması infarkt da daxil olmaqla bir çox təhlükəli pozuntulara yol aça bilər.

Yazda ürək və damarları qorumaq üçün öncə qan təzyiqinə nəzarət edilməlidir. Əgər hipertoniya və ya təzyiq dalğalanmalarına meyillisinizsə, hər gün, bir neçə dəfə qan təzyiqi ölçülməlidir. Gündəlik həyatda qəfil hərəkətlərdən, məsələn, yataqdan tez qalxmaq kimi adətdən çəkinmək lazımdır.

Həkimin tövsiyə etdiyi dərmanlar (antihipertenziv, antiplatelet agentləri) təyin edilmiş rejimə uyğun olaraq qəbul edilməlidir.



**Ürək üçün düzgün qidalanmanın vacibliyini vurğulayan həkim sonra dedi:**

– Yazda daha çox tərkibində maqnezium və kalium olan qidalar yemək lazımdır. Maqnezium sinir hüceyrələri üçün də vacibdir və enerji yaratmaqla zülalların, yağların və karbohidratların kimyəvi və bioloji dəyişikliklərini təmin edir. Kifayət qədər maqnezium olmadıqda, əzələlərdə enerji yığılmır, sinir sistemi, vəzilər, böyrəklər, əzələlər, beyin, ürək və damarlara pis təsir edir və xəstəliklər meydana gəlir.

Paxlalılar, soya unu, yaşıl yarpaqlı tərəvəzlər, bəkməz, balqabaq, qoz, şokolad, fıstıq, çuğundur yarpaqları, yulaf əzməsi, bişmiş kartof, kakao tozu, şüyüd, keşniş, adaçayı, kərəviz, reyhan, quru xardal, kəklikotu, razyana, tərxun, kimyon maqnezium tərkibli qidalardır.

Pəhrizdə Omeqa-3 doymamış yağ turşularının mənbələri – balıq, qoz-fındıq, bitki yağları, kətan toxumu və yağı, qırmızı mərci, xardal və dənələri olmalıdır. Amma gündə bir ovuc qoz, mərcimək, 2 xörək qaşığı kətan toxumu yağı içməklə orqanizmi Omeqa -3-lə təmin etmək mümkündür.

Duz qəbuluna ciddi nəzarət etmək lazımdır. Ondan gündə 5 qramdan çox istifadə düzgün hesab edilmir. Bu, onunla bağlıdır ki, duz bədəndə suyu saxlayır. Bu əlavə su isə qan damarlarının divarlarına təzyiq göstərir. Rasiona kalium tərkibli qida məhsullarının əlavə edilməsi qan təzyiqinin azaldılması üçün duzdan imtina edilməsi ilə müqayisədə daha səmərəli ola bilər. Pomidor püresi, maya, protein tozu, qızardılmış püstə, kişmiş, qarışıq quru meyvələr, gavalı, balqabaq toxumu, təzə cəfəri, səhər yeməyi üçün badam yağı, banan kaliumla zəngin qida məhsullarıdır.

Kifayət qədər – gündə 1,5 – 2 litr su içilməli və kofedən sui-istifadə edilməməlidir.

Oturaq həyat tərzinə son qoyulmalı, fiziki fəaliyyət artırılmalıdır. Yazda idmana başlamaq istəyənlər yadda saxlamalıdırlar ki, təlim keçməyiblərsə bədənin yüklənməsinə nəzarət edilməlidir. İdman hərəkətlərinə həkimin tövsiyəsi ilə yüngül hərəkətlərdən başlayıb, gün keçdikcə məşqlərin növünü və vaxtını artırmaq lazımdır.

***Z.HÜSEYNOVA***
***XQ***

Yeni kitablar

**Mən jurnalist İttifaq Mirzəbəylini çoxdan – onun Dövlət radiosunda mənim isə Dövlət televiziyasında çalışdığımız illərdən tanıyıram. Teleşirkətin, demək olar ki, əməkdaşlarının əksəriyyəti İttifaq müəllimi gündəlik fəaliyyətdə yorulmaz, mövzu seçməkdə isə təşəbbüskar işçi kimi tanıyırdı. Bəzi həmkarlarımız müsahibə götürmək üçün vəzifə adamlarını, tanınmış şəxsləri seçəndə, İttifaq müəllim "Azərbaycan" kinoteatrının qocaman kinomexaniki, yaxud şair Əli Nəzminin səksən yaşlı xəstə qızı İqlimə xanımla həmsöhbət olurdu. Onun bu xasiyyəti sözə qiymət verə bilən hər kəs tərəfindən bəyənilirdi.**

# Yorulmayan müəllifin tükənməyən mövzuları

Sonralar İttifaq Mirzəbəyli əmək fəaliyyətini "Xalq qəzeti"ndə davam etdirməli oldu. Mən artıq rayonda çalışsam da, mətbuatda onun gündəlik fəaliyyətindən əlavə on beş kitab çap etdirməsi haqqında oxudum. Səmimi şəkildə etiraf edim ki, həmin kitabların heç biri haqqında nə isə yazmadığıma görə özümü bağışlamıram. Ancaq bu dəyərli həmyerlimizin və qocaman həmkarımızın son iki ildə üç kitab tərtib edərək ərsəyə gətirməsini, həmin kitabların hamısının "Xalq qəzeti"nin kitabxanası" şərti adı altında təqdim edilməsini görəndə bu sətirləri yazmaya bilməzdim. Üstəlik, bu nəşr nümunələrinin hamısı onun əmək fəaliyyətini dayandıraraq pensiyaya çıxmasından sonra hazırlanıb. Yəni bu qələm sahibinin özü yorulmur, yazdıqları isə tükənmir.




İttifaq müəllimin "And və əməl" kitabı onun 44 günlük İkinci Qarabağ müharibəsinin getdiyi günlərdə qələmə aldığı yazılardan və Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin 20 illiyinə həsr olunmuş məqalələrdən ibarətdir. "Baş redaktorlarımız haqqında yazılanlar" kitabı isə bir əsrdən çox fəaliyyət göstərmiş anadilli qəzetimizin sükanı arxasında oturmuş görkəmli qələm sahibləri haqqında yazılmış məqalələrdir.

Son günlərdə ərsəyə gəlmiş "Unudulmazlar redaksiyası" adlı kitab isə birmənalı olaraq mərhum həmkarlarımızın xatirəsinə ehtiram hisslərindən ibarətdir. Belə ki, kitabın girişində qeyd edildiyi kimi, 1991-ci ilin yayınadək "Kommunist" adı ilə nəşr edilən "Xalq qəzeti", sözün həqiqi mənasında, bir jurnalistika məbədi, dilçilik məktəbi olmuşdur.

Xatırladaq ki, kitabın tərtibçisi 106-yaşlı qəzetin son 35 ilində ("Xalq qəzeti" adı ilə nəşr olunduğu dövr nəzərdə tutulur (S.Ə.)) redaksiyada çalışmış, fəqət dünyasını dəyişmiş həmkarları barədə olan yazıları toplamışdır. Məni bu sətirləri yazmağa sövq edən məqamlardan biri isə kitabın layihə rəhbəri, Əməkdar jurnalist, "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşovun qələmə aldığı "Ödəməli olduğumuz mənəvi borclardan biri" adlı ön söz oldu. Əflatun müəllim yazır ki, bizim maddi həyatdakı borclarımıza nisbətən mənəvi borclarımız min dəfələrlə çoxdur. Valideynlər, müəllimlər, soykökümüzün görkəmli simaları, övladlarımız, el-oba, qonşular qarşısında olan borclarımızdan əlavə həmkarlarımız və iş yoldaşlarımız qarşısında da çoxsaylı borclarımız var... Dünyasını dəyişmiş həmkar və ya iş yoldaşlarımızın ehtiramla anılması, onların xatirəsinin müntəzəm şəkildə yad edilməsi bu addımları atanların mənəvi kamilliyindən xəbər verir".

Layihə rəhbəri qeyd edir ki, mən bu kitabda verilmiş – əlli ildən çox qəzetimizin foto-müxbiri olmuş Cahangir İbadov haqqında olan "Baharın yetmiş beş anı" (müəllif Qüdrət Piriyevdir), son 35 ildə bütün jurnalistlərin və oxucuların çox yaxşı tanıdığı Məmməd Nazimoğlu haqqında olan "Bir ağ bulud kimi zərif, ziyansız..." (müəllif İttifaq Mirzəbəylidir), həm Kommunist", həm də "Səhər" qəzetlərində, eləcə də Mətbuat Şurasının Ahıl Jurnalistlər Məclisində səmərəli, məsuliyyətli fəaliyyəti ilə hamının rəğbətini qazanmış Məzahir Süleymanzadə haqqında olan "İndi bizim dost itirən vaxtımızdı..." (müəllif Səməd Məlikzadədir), eləcə də Azərbaycan musiqi mədəniyyətinə ən yaxın mətbuat təmsilçisi kimi tanınan Rafiq Salmanov haqqında qələmə alınmış "Mənalı ömrün akkordları" (müəllif Tahir Aydınoğludur) adlı məqalələri maraqla oxudum: "Amma etiraf edim ki, məni daha çox məmnun edən fakt yeni kitabın müstəqilliyimizin ilk illərində bu qəzetə rəhbərlik etmiş, bizim hamımızın müəllimi, sadə insan, mükəmməl qələm sahibi olan Tofiq Rüstəmov barədə qələmə alınmış çox gözəl bir yazı ilə (müəllif Qüdrət Piriyevdir) başlanmasıdır".

...Elə mən də həmin məqamı daha çox qabartmaq istəyirdim. Çünki Tofiq Rüstəmov Azərbaycan jurnalistlərinin əksəriyyətinin müəllimidir. Allah ona rəhmət eləsin. Ağsaqqal həmyerlim, orta məktəbdəki və universitetdəki müəllimlərim kimi dəyər verdiyim İttifaq Mirzəbəyliyə isə can sağlığı və yeni uğurlar arzulayıram. Bu qəbildən olan insanların yorulmazlığı, sabaha inamla baxması bizə örnəkdir.

***Sərraf ƏFƏNDİYEV,***
***jurnalist***

**Qəbələ şəhəri**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə və gəmilər üçün əlvan metalların satın alınması məqsədi ilə*

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2025-ci il aprelin 23-ü saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili – 1047.

Ünvan – Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə və gəmilər üçün müxtəlif ölçüdə bolt, qayka, şayba, vint, dəmir kələbçə, metal sıxac, mismar, şurup və şplintlərin satın alınması məqsədi ilə*

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2025-ci il aprelin 23-ü saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili: 1047.

Ünvan – Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

"Quba konserv-1" ASC səhmdarlarının nəzərinə!

5 iyun 2025-ci il saat 14.00-da 2024-cü ilin maliyyə -təsərrüfat fəaliyyəti ilə əlaqədar səhmdarların növbəti illik ümumi yığıncağı Quba şəhəri , Vaqif küçəsi 30 nömrəli ünvanda "Quba konserv-1" ASC-də keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1.Cəmiyyətin illik hesabatının, balansının, mənfəət və zərər hesabatlarının təsdiqi.

2.Digər cari məsələlər.

Səhmdar ümumi yığıncaqda iştirak hüququnu bilavasitə özü və ya nümayəndəsi vasitəsilə həyata keçirə bilər.Bu zaman səhmdarın nümayəndəsi qanunvericiliklə müəyyən edilmiş etibarnaməyə malik olmalıdır.

Ümumi yığıncaqda iştirak edən səhmdar və ya nümayəndəsi şəxsiyyətini təsdiqləyən sənədin əslini (nümayəndə olduqda isə etibarnaməsinin notarial təsdiqlənmiş surətini) təqdim etməlidir.

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 74 (30768) 16 aprel 2025-ci il, çərşənbə

## İdman

### “Bakı-2025” minifutbol çempionatının hakimləri




**Bakıda təşkil olunacaq minifutbol üzrə Dünya çempionatının oyunlarını idarə edəcək hakimlər müəyyənləşib.**

Mundialda 14 ölkədən hakim iştirak edəcək. Onların arasında Azərbaycan təmsilçisi Rza Məmmədov da var. Dünya çempionatında oyunları idarə edəcək hakimlər bunlardır: Alaa Eddin Zidan (Liviya), Ales Müller (Sloveniya), Aleksander Vangelov (Bolqarıstan), Antoniyo Meşiç (Xorvatiya), Katalin Pidqirni (Moldova), Grem Florens (ABŞ), İlyes Çakrun (Tunis), İstvan Mod (Macarıstan), Marko Popoviç (Monteneqro), Mixal Bereş (Slovakiya), Mohammed Adnan İsmail (İraq), Rza Məmmədov (Azərbaycan), Tamaş Paul (Rumıniya), Tomaş Sikora (Çexiya).

Qeyd edək ki, Dünya çempionatı bu il mayın 21-dən iyunun 1-dək Milli Gimnastika Arenasında keçiriləcək.

### Üzgüçülərimiz Çexiyada 17 medal qazanıblar




**Azərbaycan üzgüçüləri Çexiyada Dünya çempionatına lisenziya xarakterli 32-ci Ostrava Qran-prisində uğurla çıxış edərək 2-si qızıl, 8-i gümüş, 7-si bürünc olmaqla 17 medal qazanıblar.**

Təmsilçimiz Ramil Vəlizadə və Süleyman İsmayılzadə hərəyə 1 qızıl, 2 gümüş medal qazanıblar. Əbdürrəhman Rüstəmov və Fatimə Alkərəmova 2 gümüş, 1 bürünc mükafat əldə ediblər. Oqtay Hüseynov 3 bürünc, Səid Həmidov isə 2 bürünc medala sahib olublar.

Qeyd edək ki, turnirdə 5 ölkədən (Çexiya, Azərbaycan, Fransa, Polşa, Sloveniya) 350-yə yaxın idmançı iştirak edib.

### 9 boksçumuz İpək yolu turnirinin finalında



**Bakıda kişi və qadın boksçular arasında ənənəvi Böyük İpək Yolu beynəlxalq turnirində yarımfinal mərhələsi başa çatıb.**

9 ölkənin 200-dək idmançısının qatıldığı yarışda Azərbaycan millisinin 11 idmançısı finala vəsiqə qazanıb. Kişi boksçuların mübarizəsində Sübhan Məmmədov, Nicat Hüseynov, Məhəmmədəli Qasımzadə, Nəbi İsgəndərov, Seyidcəmşid Cəfərov, Murad Allahverdiyev, Alfonso Dominqes və Məhəmməd Abdullayev yarımfinal döyüşlərini qələbə ilə başa vurublar. Şamil Əsgərov, Tağı Nəsibov, Ruslan Rüstəmov və Məmməd Quliyev finala yüksələ bilmədikləri üçün bürünc medalla kifayətləniblər.

Qadın boksçuların yarışında Marjona Savriyeva, Zeynəb Rəhimova və Aynur Rzayeva qalib gələrək həlledici görüşə vəsiqə qazanıblar. Onlardan fərqli olaraq, Anaxanım İsmayılova, Bəhriyyə İbrahimova və Aynur Mikayılova yarımfinal səddini keçə bilmədikləri üçün üçüncü yeri tutublar.

***L.QURBANOVA***
***XQ***

*✓ 2023- cü ildə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən Qasımov Nahid Yusuf oğlunun adına verilmiş 1032319A nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

*✓ “Gəncə Təmir Quraşdırma” ASC-nin emissiya prospekti itdiyi üçün etibarsız sayılır.*

## İnsan və təbiət

# Daşlar müalicə edir...

**Daşlar haqqında məlumatlar qədim kitablardan qaynaqlanır. Həmin məlumatlar daha çox inanca əsaslansa da, sonralar onun elmi tərəfləri də araşdırılmağa başlanılıb. O vaxt almazı cəsarət və qorxmazlığın rəmzi kimi görsələr də, indi onun ən bərk metalları belə aşılaya bildiyi məlumdur. Əvvəllər kvarsın gizli və sehrli enerjiyə malik olmasına inansalar da, mexaniki güc tətbiq edilərkən onda elektrik gərginliyi yarandığı, kəhrəbada qoruyucu keyfiyyət olduğu üzə çıxdı.**



Həmsöhbətimiz Nazir Nağıyev 14 ildir ki, bu sahə ilə maraqlanır. Azərbaycan Dövlət Pedaqoji Universitetinin məzunu olan gemmoloq hələlik 12 təbii daş əldə edib və onların kimyəvi tərkibi, enerjisi, mistik və müalicəvi xüsusiyyətlərini öyrənir. Gemmoloqun dediyinə görə, daşlar özü də bir neçə yerə bölünür. Kvars, ametist, əqiq mineral, almaz, sapfir, yaqut, aleksandrit və s. müalicəvi daşlar sayılır. Zümrüd, almaz, yaqut, turmalin bəzək əşyaları, nefrit, lapis, oniks və s. əl işləri üçün istifadə olunan daşlardır.

N.Nağıyev söhbətində dedi:

“Belə hesab edilir ki, daşların vibrasiyası insan orqanizminin vibrasiyasına bərabərdir və orqanizmdə energetik axını optimal formada stimullaşdırır. Daşlarla müalicə alternativ təbabətin inkişafında yeni



bir sahə sayılır və onu bəzən XXI əsrin təbabəti də hesab edirlər. Qiymətli daşların, qan qrupuna, uyğun təsnifatına görə, sarımtıl-narıncı rəngdən qırmızı, purpur rəngə qədər olan daşlar I, qırmızı, narıncı, mavi, yaşıl və bənövşəyi rənglərdə olanlar III, mavi və yaşıl rənglərdə olanlar II və IV qan qrupları üçün düşərlidir.

Müsahibimiz söylədi ki, nefrit daşında yaradılışın işarəsini, mifi görmək olar. Onunla ehtiyatlı olmaq lazımdır, onda keçmişlə gələcəyi qovuşdurmaq gücü var. “Hematit qalibiyyət daşıdır, tərkibində dəmirlə zəngindir, onun mistikası həmişə qələbəyə səsləyir. Zümrüd bərəkət, kəhrəba təmizlik daşıdır. Turmalin gərginliyi aradan qaldırır. Opal daşı dəriyə təmas edir, dəri xərçənginə təsir edir əqiq təzyiqi stabilləşdirir, qanaxmanı dayandırır. Alın, gicgah və göz ağrısı zamanı kvarsdan, baş ağrısı zamanı ametistdən, xrizolit və sitrindən istifadə edilir. Nefrit ürək xəstəliyinə xeyirdir, sapfir yaddaşı gücləndirir, düşüncəni dəqiqləşdirir, sinirləri sakitləşdirir.

Lakin yaqut və sapfir daşını taxarkən əsəbiləşmək olmaz, çünki əsəbi lap qaldırır. Firuzə daşı 12 xəstəliyin dərmanıdır. Əsasən görmə qabiliyyətinin qorumasında xüsusən xeyirlidir, ondan eynək taxanların istifadə etməsi məsləhətdir. Mədəaltı vəziyə, alındakı ağrılar, epilepsiyaya, dil qatlanmaya qarşı faydalıdır. Bütün daşları suya salıb içmək olar, minerallarla əlaqədə olan distillə olunmamış su çox faydalıdır”.

Həmsöhbətimiz qeyd etdi ki, mineral daşlar suyu gec süzsə də, tərkibini tam təmizləyir və başqa heç bir filtrdə ona nail olmaq mümkün deyil. Müxtəlif daşların ayaq altına yığılması, onların üzərində yerimə, əllərin həmin daşlara sürtülməsi, eyni zamanda masaj seansların, məsələn, onurğa və kürək üzərinə daşlar qoyulması birbaşa sinir sisteminə və enerjiyə müsbət təsir göstərir, yorğunluq və yüklənmədən azad edir.



Onun dediyinə görə, akvamarin əsəbləri sakitləşdirir, düşüncənin aydınlaşması və yaradıcılıq qabiliyyətinin üzə çıxmasında böyük rol oynayır. Kvars beyinə xəbərdarlıq edir, neqativ enerjini pozitivə çevirir. Əqiq daşı güc və uğur gətirir, bəd nəzərdən də qoruyur. Mirvari sadəlik və gözəllik nişanəsidir, eyni zamanda müdrikliyin simvolu olaraq da qəbul edilir. Hətta qədim zamanlarda onun ana südünü artırdığına da inanırdılar. Zümrüd bədəni və ruhu təmizləyir, mərhəməti, sevgini, səmimiyyəti və sədaqəti ifadə edir. Çəhrayı kvars sevgi daşıdır, hematit, baş ağrıları və qan azlığının müalicəsi üçün xeyirlidir. Kəhrəba daşı gərginlik və yorğunluğu aradan qaldırır. Firuzə miqren və baş ağrılarına kömək edir.

Söhbətimizin yekununda gemmoloq bir sıra məsləhətlər də verdi: “Əsəb xəstəliyi olanlar əqiq və ya zümrüd daşı gəzdirməlidir. Zümrüd yayda taxılmamalıdır, çünki Günəşlə əlaqəyə girəndə rəngi sola bilər. Ona görə də payızda taxmaq daha düzgündü. Çox qəmgin və neqativ fikirli olanların da zümrüd daşı taxması məsləhətdir. Özünə qapananlar yaqut və sapfir taxmalıdır ki, cəmiyyətə qaynayıb qarışsınlar. Əsəbi vaxtda almaz daşı ilə gəzmək olmaz, o əsəbin daha güclənməsinə səbəb olur. Nefrit taxan yalan danışmamalıdır. Cəsarətsiz olanlar qara almaz, şələ daşı taxmalıdır. Panik atak zamanı yaqut, yaşıl, sarı və adi sapfir gəzdirmək faydalıdır. Xrizolit, turmalin, opal, gül rəngli kvars sevgi daşlarıdır, qarşılıqlı hissləri ifadə etməyə kömək edir”.

***Süleyman QARADAĞLI***

## SAĞLAMLIQ

# Sən nə yamansan, TV...

## Ekran qarşısında 1-2 saatdan artıq oturmaq infarkta, diabetə aparır



**Alimlər televizora ürəyə zərər vermədən baxmaq müddətini müəyyən ediblər. Honq Konq Universitetinin alimləri infarkt, insult və aterosklerozdan qorunmaq üçün televizora baxmaq vaxtını gündə 1 saatla məhdudlaşdırmağı irəli sürüblər.**

Bildiriblər ki, ateroskleroz damarların divarlarında yağlı “lövhələrin” əmələ gəlməsi səbəbindən baş verir. Damarların daralması və belə bir lövhənin ayrılması isə ürək xəstəliyinə səbəb ola bilər. Şəkər xəstəliyi və oturaq həyat tərzi aterosklerotik ürək-damar xəstəlikləri üçün əsas risk faktorlarıdır. İnsanlar, xüsusilə, televizor ekranlarının qarşısında oturaraq vaxt keçirirlər.

Sağlamlığa zərər vermədən televizora nə qədər baxmağın mümkünlüyünü öyrənmək üçün elm adamları 2-ci tip diabetə müxtəlif genetik meyilləri olan 346 min 916 britaniyalının iştirakı ilə araşdırma aparıblar.

Nəticələr göstərib ki, gündə 2 saatdan çox televizora baxanların aterosklerotik ürək-damar xəstəliyindən əziyyət çəkmə ehtimalı 12 faiz çoxdur. Bu təsir diabet üçün genetik riskdən asılı olmayaraq müşahidə edilmişdir.

Şəkərli diabetə meyilli olan iştirakçılar gündə bir saatdan çox televizora baxmazlarsa, aterosklerozun inkişaf riski artmır.

Alimlər onu da bildiriblər ki, oturma vaxtının azaldılması sağlamlığın yaxşılaşdırılması üçün mühüm vasitədir.

***Z.HÜSEYNLİ***
***XQ***

## HAVA

# Yenə də külək, leysan, qar...

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 16-da Bakıda və Abşeron yarımadasında gecədən yağışın aramsız leysan xarakterli intensiv, günün birinci yarısınadək yarımadanın bəzi yerlərində güclü olacağı gözlənilir. Şimşək çaxacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək. Gecə 6-9°, gündüz 10-12° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunundan 766 mm civə sütununa yüksələcək, nisbi rütubət 90-95 faiz olacaq.



Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir leysan xarakterli yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, dolu düşəcəyi, bəzi dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-9°, gündüz 9-14° isti, dağlarda gecə 3-8°, gündüz 0-3° şaxta olacaq.

***Q.QASIMOV***
***XQ***

# Şəkidə “Xoşbəxt hadisə”

**Şəki Dövlət Dram Teatrında polşalı dramaturq Slavomir Mrojekin “Xoşbəxt hadisə” pyesi əsasında səhnələşdirilmiş eyni adlı tamaşaya ictimai baxış olub.**



Teatrın ədəbi dram hissə rəhbəri Lalə Məmmədova bildirib ki, tamaşa Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Əməkdar artist Xanlar Həşimzadənin 50 illik uğurlu səhnə fəaliyyəti və 70 illik yubileyinə həsr olunub.

Əsəri dilimizə Vaqif Aslan çevirib. Tamaşanın quruluşçu rejissoru teatrın baş rejissoru, Əməkdar incəsənət xadimi Mirbala Səlimli, quruluşçu rəssamı Sahib Əhmədov, geyim üzrə rəssamı Elman Rəşidov, baletmeysteri isə Çingiz Novruzəliyevdir. Səhnə əsərində rolları əməkdar artistlər Xanlar Həşimzadə, Əbülfət Salahov, aktyorlar Xəyal Salahov, Nazilə İmamhüseynova və Ömər Salahov ifa edirlər.

***S.FİDAN***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3365
SİFARİŞ 744
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00